**YUNİS HÜSEYNOV**

**Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir**

**Ulu Öndər**
**HEYDƏR ƏLİYEV**

# ŞUŞA ŞƏHƏRİNİN TARİXİ

**BAKI – 2013**

*Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşirin xatirəsinə həsr edirəm.*

Redaktor: **V.X.QULİYEV,**
"Şuşa" nəşriyyatının redaktoru

Rəyçilər: **Z.H.BAYRAMLI,**
tarix üzrə elmlər doktoru

**D.M.ƏZİMLİ,**
tarix üzrə fəlsəfə doktoru

**X.S.QASIMOV,**
tarix üzrə fəlsəfə doktoru

**HÜSEYNOV Yunis Rza oğlu, t.ü.f.d.: - ŞUŞA ŞƏHƏRİNİN TARİXİ**. Bakı: - "Şuşa" nəşriyyatı, 2013, 156 s.

**H-05(2013)**

Əsərdə Qarabağ xanlığının üçüncü paytaxtı olan ŞUŞA – Pənahabad qalasının salınma tarixi, siyasi, iqtisadi, sosial inkişafı, xarici işğalçılara qarşı mübarizə tarixi, görkəmli şəxsiyyətləri, erməni işğalının nəticələri və bir sıra digər məsələlər öz əksini tapmışdır.

Bunlarla yanaşı monoqrafiyada ŞUŞANIN mədəni inkişaf tarixinə də geniş yer verilmişdir.

$$H\,\frac{051(L-041)}{051-011(013)}$$

***Müəllif tərəfindən hədiyyə***

**©Y.R.HÜSEYNOV, 2013**

# ŞUŞA ŞƏHƏRİNİN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ İYİRMİNCİ İLDÖNÜMÜ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır.

**1977-ci ildə Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə «Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında»** qərar qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyətimizin və incəsənətimizin böyük simalarından Üzeyir bəy Hacıbəylinin, Xurşudbanu Natəvanın və Bülbülün ev-muzeyləri təşkil olunmuş, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsi ucaldılmışdır.

1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyinin bərpası haqqında müvafiq sənədlər qəbul edən Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın aqressiv etnik təmizləmə siyasəti ilə üz-üzə qaldı. Dərin siyasi, iqtisadi, sosial böhran keçirən və Dağlıq Qarabağda yaranmış gərgin vəziyyətdən çıxış yolu axtaran

ölkəmiz hələ öz milli ordusu formalaşmadığından yüksək hərbi-strateji əhəmiyyətli Şuşa şəhərinin müdafiəsində yalnız könüllü özünümüdafiə dəstələrinin yardımına ümid edirdi. Lakin onların qəhrəmancasına döyüşmələrinə və layiqli müqavimət göstərmələrinə baxmayaraq, təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi.

Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Erməni vandalları işğal vaxtı minlərlə eksponatın olduğu muzeyləri talan etdilər, yüzlərlə tarix-mədəniyyət abidəsini dağıtdılar, məbədgah və məscidləri təhqirlərə məruz qoydular, çox sayda nadir əlyazma nümunələrini məhv etdilər, təhsil və səhiyyə ocaqlarını xarabazara döndərdilər.

Şuşanın süqutunun iyirminci ildönümü ərəfəsində şəhərin müdafiəsi zamanı şahid olmuş soydaşlarımızın xatirəsini bir daha dərin hüznlə yad edir, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə əlaqədar müvafiq anma mərasimləri keçirilsin.

2.Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 9 aprel 2012-ci il**

## ŞUŞANIN TƏBİİ MƏNZƏRƏSİNİN QISA TƏSVİRİ

**«Qarabağ… Şuşada zəngin bir saray,**
**Açılır qapısı, örtülür lay-lay;**
**Onun divarları al-əlvan naxış,**
**Əsrdən-əsrə yadigar qalmış…»**

**Səməd VURĞUN**

Uca dağlar başında əzəmətli bir şəhər var. Həmin şəhər yazda və yayda yaşıllığa, payızda və qışda isə dumana və qara bürünür. Bu mənim ata-baba yurdum olan **Şuşa-Pənahabad şəhəridir**.

**PƏNAHABAD** qalası Qarabağın Sarıcalı oymağından olan Pənah xan Cavanşirin göstərişi və şəxsən iştirakı ilə tikildiyinə görə banisinin şərəfinə Pənahabad və ya Şişə (**Şuşa**) adlandırılmışdır. Pənahabad **möhtəşəm Qarabağ xanlığının üçüncü paytaxt şəhəridir**.

Yerli şuşalılar dumanlı havada şəhərin hər hansı bir yerindən şimala, şimal-şərqə və şimal –qərbə tamaşa edərkən belə gözəl mənzərədən feyziyab olardılar. Dumanlı havada Pənahabad böyük okeanlarda coşqun dalğalarla vuruşan gəmiyə bənzəyirdi. Şimal-şərq tərəfdəki əzəmətli uca dağlar özünün kənar çıxıntısı və bürcləri ilə tac qoymuş əfsanəvi nəhəngləri xatırladır.

Cənub-şərq tərəfdən Şuşanı hər iki tərəfdən hündürlüyü **250-300 sajendən (1 sajen 3 arşına, bir arşın isə Azərbaycanda təqribən 75 sm-ə bərabər idi - Y.H.)** və eni **100 sajenə** qədər olan sıldırım qayalı dərə əhatə edir. Həmin dərənin üstündə gözəl bir bürc var. Bürcdən aşağıda qayaya bitişmiş bir qəsr var; orada olan təbii kahadan soyuq suyu olan bulaq axır.

**Cıdır düzünün Üç mıx** adlanan ərazisindən **Daşaltı çayının sol sahilində** içərisində tarixin sirlərini özündə qoruyub

saxlayan **nəhəng Şuşa kahası** yerləşir. Bu kaha qaya boyu, şəhərin altından keçən yeraltı yolla, o biri tayda, qalanın yuxarı qapısının aşağı tərəfində başqa bir ucsuz-bucaqsız kaha ilə birləşir.

Pənahabadın cənub tərəfindən, **əzəmətli Kirs dağından** şəhərə nəzər saldıqda, ətəklərində yerləşən bu qala şəhərin alınmaz qaya ilə şəhərin yarımdairəvi mənzərəsi duman arasından, püskürməkdə olan təbii vulkanı xatırladır **[**1, 172**]**.

Pənahabadın **4 fəslinin** özünəməxsus gözəlliyi var. Yazda və yayda şəhər və onun ətrafı **əfsanəvi cənnəti xatırladır**. Müxtəlif ağacların ətir iyi saçan çiçəkləri, quşların şən nəğmələri, yağan yağışların laylaları, yağışdan sonra havanın insana verdiyi mənəvi və fiziki gümrahlıq, şəhərin səması üzərində uçan qartalın təkrarolunmaz səsi, yazın müjdəçisi olan qaranquşların şən və həzin civiltisi, şəhərin üzərində yaranan göy qurşağının yaratdığı təbii mənzərə şəhərimizin təbi məhsulu idi.

Şuşada yağışdan sonra küçələr xüsusi mənzərə alırdı. Belə ki, bütün küçələr parlaq don geyinirdi. Daşlar sanki ağ xalat geyərdi. Küçələrə döşənmiş daşlar gecələr işıq saçırdı. Palçıq nə olduğunu yaşlı şuşalılar bilməzdi. Şəhərimizin mərkəzi küçəsi, sağ və sol tərəfdən göçə ağacları ilə əhatə olunmuşdur. Yaz və yay aylarında həmin küçə xüsusi gözəlliyə qərq olardı. Ağaclar çiçək açarkən göçə ağacının əvəzolunmaz iyi şuşalılara və istirahətə gələn qonaqlara xüsusi ləzzət və əhval-ruhiyyə bəxş edərdi. Payız və qış fəsilləri Şuşanın əvəzsiz bəzəyi idi.

Pənah xanın və onun oğlu İbrahimxəlil xanın və Qarabağ xanlığının varlı adamları tərəfindən tikilən memarlıq abidələri, saraylar, qəsrlər, məscidlər, digər dini abidələr, bürclər Şuşada tarixin unudulmaz yadigarıdır. Ayrı-ayrı insanlara məxsus olan şəxsi evlərin xüsusi yaraşığı var idi.

Bir sözlə **Ulu yaradan** qala şəhər – **Şuşaya** təbiətin bütün nemətlərini – gözəl təbiəti, saf havanı, təmiz suyu, əzəmətli dağları, zəngin meşələri, dərələri, ormanları və bir

sözlə saf və təmiz nə varsa hamısını bəxş etmişdir.

Ulu müdriklərimiz çox gözəl deyiblər: - **«Torpağın müqəddəsliyi, onun yetişdirdiyi barında, bərəkətindədir. Barın təamı qüvvətli, yararlı olanda, ondan dadıb-tamsınanlar da güclü, qüvvətli, namuslu, qeyrətli, istedadlı və müdrik olurlar. Belə müdriklər, istedadlar o torpağın başını ucaldır, şöhrətini el-obalarda, dünya miqyasında yayır-yaşadır və müqəddəsləşdirirlər»** [2, 58].

Şuşa elm, mədəniyyət, ədəbiyyat və incəsənət mərkəzi kimi görkəmli şəxsiyyətlərin müqəddəs vətəni olmuşdur.

## PƏNAHABAD-ŞUŞA QALA–ŞƏHƏRİNİN SALINMASI TARİXİNDƏN

Pənahabad-Şuşa qala-şəhəri Azərbaycanın ən qədim ərazilərindən biri olan Qarabağ ərazisində tikilmişdir. Ən qədim insanın yaşayış məskənləri də bu ərazidə aşkar edilmişdir. Azərbaycan Respublikasının Qarabağ bölgəsinin cənub-şərq yamaclarının ucqar nöqtəsində yerləşən Azıx mağarası buna parlaq misaldır. Tağlar mağarası da Qarabağın ən qədim insan məskənlərindən biridir.

Bütün tarixi dövrlərdə Qarabağın ərazisində türkdilli tayfalar yaşamışlar. Qarabağın Füzuli rayonunun ərazisində yerləşən **Azıx** mağarasında arxeoloji qazıntılar zamanı burada əldə edilmiş maddi və mənəvi abidələr sübut edir ki, mağara sakinləri əmək alətləri düzəltmək və onlardan istifadə etmək vərdişlərinə yiyələnə bilmişlər. Bu barədə çoxlu misallar göstərmək olar. Müəllifin öz qarşısına qoyduğu əsas vəzifə – **Pənahabad şəhər qalasının salınma tarixidir**.

Azərbaycanın şimalında yaranan xanlıqlardan biri də Qarabağ xanlığı idi. Qarabağ xanlığı İran şahı Nadirin öldürülməsindən sonra – **1747-ci ildə, Cavanşirlər tayfasının başçısı olan Pənahəli xan tərəfindən yaradılmışdır**. Qarabağ xanlığı İran hökmranlığı ilə gərgin mübarizə şəraitində yaranmış və siyasi-iqtisadi cəhətdən möhkəmlənmişdir.

Pənahəli xanın böyük qardaşı Fəzləli bəy Nadir şahın sarayında keşik ağacı məmuru idi. O, qardaşı Pənahəli bəylə birlikdə, I Nadir şah Qarabağda ordusuna əsgər topladığı zaman, hər iki qardaşı əsgər kimi özü ilə götürmüşdür. Qarabağlıların Nadir şah tərəfindən Xorasana sürgün edilmələrinə qarşı etiraz əlaməti olaraq Fəzləli bəy ona qarşı müxalifətdə idi. Ona görə də saray məmurları onu şahın nəzərindən sala bildilər. Nadir şahın göstərişi ilə Fəzləli bəy edam olundu. Şahın əmri ilə Pənah bəy böyük qardaşının yerinə eşik ağası təyin olundu. İşgüzar və qoçaq bir insan olan Pənah bəy hiss edirdi ki, Nadir şah ona düşmən münasibət bəsləyir, bunu o, şahın qorxunc baxışlarından

hiss edirdi **[**3, 32**].**

Mənbələrdə deyildiyi kimi Nadir şah tərəfindən qətlə yetirilən böyük qardaşının əhvalatından sonra Pənah bəy onun yanında qala bilməzdi. Ona görə də Pənah bəy saraydan qaçmağı qət etdi. Nadir şah Xorasanda olduğu zaman Pənah bəy bir neçə nəfər yaxın adamı ilə Nadir şahın sarayından qaçdı. **Bu hadisə 1738-ci ildə baş vermişdir [**4, 110].

Nadir şah tərəfindən təqib olunan Pənahəli xan Qarabağ dağları, Şəki və Qəbələdə yaşayırdı. Çox keçmir ki, **15 yaşlı oğlu İbrahimxəlil ağa da atasının ardınca Qarabağa gəlir** [5, 25].

Elə yeri gəlmişkən Nadir şahın öldürülməsi haqqında bir qədər məlumat vermək yerinə düşərdi.

Nadir şah cavanlıqda təhsil almamışdı. Şah II Təhmasib tərəfindən qoşuna fərmandeh **(baş komandir)** təyin olunduqdan sonra, o, dərk edirdi ki, oxumağa və yazmağa ehtiyacı vardır. Ancaq müsafirətlər **(səfərlər)** və müharibələr ona imkan vermirdi ki, savad ala bilsin. Nəhayət, **Mirzə Mehdi Esterabadi** adlanan, çox istedadlı bir nəfər onun xidmətinə girdi. O, Nadirin savad almasında böyük işlər gördü. Nadir şah olduqca qəzəbli və kinli şəxsiyyət idi. Uşaqlarına, qan qohumlarına və başqalarına qarşı dözümsüz idi. Nadir şah böyük oğlu Rzaqulu Mirzənin gözlərinə alovda qızardılmış mil çəkdirərək kor etmişdir.

Nadir şahın ətrafında olanlara qarşı amansız cəza verdirməsi, ona qarşı sui-qəsdin hazırlanmasına gətirib çıxartdı.

Nadir şaha qarşı sui-qəsdə, şahın qardaşı oğlu Əliqulu Mirzə başçılıq edirdi. Sui-qəsdə Saleh bəy Əfşar, Məhəmməd bəy Qacar Şirvani, Musa bəy Əfşar, Qoçu bəy Əfşar Urumi daxil idilər. Qoçu bəy Əfşar Urumi Nadir şahın xüsusi gözətçilərinin rəisi idi. O, Nadir şahın tayfasından idi. Bundan başqa Musa bəy və Saleh bəy də Əfşar tayfasından idilər. Nadirə qarşı sui-qəsd **1160-cı il hicri-qəməri ilinin cəmadiul sani ayının 14-də həyata keçirildi (Miladi tarixi ilə 1747-ci il – Y.H.)**. Nadir şaha Xabuşan yaylağında ilk qılınc zərbəsini Saleh

bəy Əfşar endirmişdir. İran tarixində heç vaxt şah öz tayfasının nümayəndəsi tərəfindən öldürülməmişdir. Nadirə ikinci qılınc zərbəsini Qoçu bəy vurmuşdur. Ölməkdə olan şahın başını isə Musa bəy Əfşarın nökəri kəsmişdir [6, 20, 32, 36, 39].

Bu hadisədən sonra Pənahəli bəy azad fəaliyyətə başladı. Qarabağın Cavanşir, Kəbirli, Otuziki və başqa ellər Nadir şah tərəfindən Xorasana sürgün edilmişdi. Onlar elliklə sürgündən vətənə qayıtmağa başladılar. Pənahəli bəy onları mehribanlıqla qarşılayıb, yaşamaları üçün lazım olan bütün şəraiti yaratdı [3, 32-33].

Sürgündən qayıdan elləri qarşılamaq üçün Pənah bəy, yaxın adamları ilə bərabər İraq və Azərbaycan sərhədinə qədər getdi. Onu salamat görən, nökər və köməkçilərinin çoxluğunu müşahidə edən bütün el əhli və qohum-əqrəbası sevindi və Pənah bəylə birlikdə Qarabağ torpağına daxil oldular. Hər kəs öz əvvəlki yurduna gəlib yerləşdi. Var-yoxdan çıxmış, qarət edilmiş həmin adamlara, hər cür yardım göstərildi. Pənahəli bəy igid cavanları ətrafına toplayaraq dövlət qurdu [4, 111].

Beləliklə də Nadir şahın qanlı qətlindən sonra **1747-ci ildə bütün atributlara malik olan, Qarabağ xanlığı yarandı**. Pənah bəy **xan** elan olundu.

Qarabağ xanlığı müstəqil dövlət elan edildikdən sonra, Pənah xanın qarşısında duran ən mühüm vəzifə onu siyasi, iqtisadi və sosial cəhətdən möhkəmləndirməkdən ibarət idi. Əgər Təbriz, Ərdəbil, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Şəki, Dərbənd xanlıqlarının siyasi mərkəzləri var idisə, **Qarabağ xanlığının belə şəhər mərkəzi yox idi**. Ona görə də Pənah xan, yeni yaranmış xanlıq üçün **siyasi mərkəz şəhəri də yaratmalı idi**. O, yaxşı bilirdi ki, siyasi-iqtisadi mərkəz şəhəri olmadan xanlığı qoruyub saxlamaq mümkün deyildir.

**Qarabağ tarixçisi Mirzə Camal bəy Cavanşir Qarabaği yazır:**

**«Məşvərətdən sonra indiki Kəbirli mahalı içərisində olan BAYAT qalasının binası qoyuldu. Qısa bir zamanda möhkəm hasar tikildi və xəndək qazıldı, bazar, hamam və**

**məscid tikildi. Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhl-əyyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər. Bayat qalası müsəlman tarixi ilə 1161-ci ildə, xristian tarixi ilə 1745-ci ildə (hicri 1161-ci il, miladi 1748-ci ilə bərabərdir) tikilmişdir** [4, 111-112].

Qarabağ xanı Pənah xanın siyasi hakimiyyət tarixi, heç bir kənar fərman olmadan **1747-ci ildən başlayır**.

Mənbələr də göstərilir ki, 1748-ci ildə Bayat qalası tikildikdən sonra Pənah xanın siyasi hakimiyyət tarixi, heç də bir kənar fərman olmadan 1747-ci ildən başlayır.

Bayat qalası tikildikdən sonra Pənah xanın şöhrəti hər tərəfə yayıldı. Qala möhkəmləndirilir, əhalisi isə artırdı. Bunu hiss edən Şirvan və Şəki hakimləri müqavilə bağlayıb, Pənah xanı aradan götürmək məqsədilə çoxsaylı qoşunla Bayat qalasına hücum etdilər.

Pənah xan igid adamları ilə birlikdə düşmən qoşunlarına ağır zərbə vurur, onları qalaya yaxınlaşmağa qoymurdular. Şəki və Şirvan xanları heç bir iş görə bilmədilər və məyus halda geri qayıtdılar. Şəki xanı **Hacı Çələbi** yolda öz adamlarına demişdir:

**«Pənah xan bir xan idi. Biz gəldik, onunla dava etdik və bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq»** [4, 112].

Göründüyü kimi Hacı Çələbi Pənah xanı, xan kimi rəsmi surətdə tanıdığını etiraf edir.

**1748-ci il Bayat müharibəsindən sonra** Pənah xan daxili asayişi möhkəmləndirmək məqsədilə alban xristian məliklərini özünə tabe etdirməyə başladı. Bir müddət müqavimət göstərdikdən sonra Xəmsə alban xristian məlikləri itaət etməyə məcbur oldular.

Bayat müharibəsi göstərdi ki, Bayat qalası qala kimi uzun müddət düşmən hücumuna davam gətirə bilməz. Ona görə də Pənah xanın başçılığı ilə çağırılan müşavirədə, yeni qala bina

olunması qərara alındı.

Beləliklə də **Şahbulağı adı ilə məşhur olan Tərnəküt qalasının tikintisinə başlanıldı**. Şahbulaq qalası tikilib qurtardıqdan sonra **(1751-1752-ci illər)** hamı yeni qalaya köçürüldü.

İranda baş verən siyasi hadisələr Qarabağ xanlığı üçün təhlükə törədirdi. Mərkəzi hakimiyyəti ələ keçirmək üçün müxtəlif qüvvələr mübarizə aparırdılar. Bu qüvvələr içərisində **Məhəmmədhəsən xan Qacar, Fətəli xan Əfşar və Kərim xan Zənd** xüsusilə fərqlənirdilər.

Göründüyü kimi bu qüvvələrin hər hansı biri Qarabağ xanlığına hücum etsəydi Şahbulağı qalası onların qarşısında davam gətirə bilməzdi. Pənah xanın göstərişi ilə yenidən ruhanilərin və saray məmurlarının geniş müşavirəsi çağırıldı. Müşavirədə qərara alındı ki: «**… Bizimlə Əliqulu xan və Sərdar Əmir Aslanın arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi… Belə bir münasibət və dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xan arasında ola bilsin ki, olmasın. Ətraf xanlarından da bir o qədər xatircəm deyilik. Onların Məhəmmədhəsən xanı üzərimizə təhrik edərək, onunla birlikdə bizə qarşı çıxacaqları ehtimalı vardır. Belə bir vəziyyətdə Qarabağın elləri, adlı-sanlı adamları Qızılbaş qoşununun ayağı altında paymal olar, biz isə Şahbulağı qalasında elə bir qüvvətli düşmənin və ətraf xanların qarşısında müqavimət göstərə bilməyib bütünlükdə qırılarıq… Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daima açıq olmalı və mahallarla əlaqəmiz bir an belə kəsilməməlidir** [4, 115].

Müşavirədən sonra Pənah xanın göstərişi ilə bir neçə adam ətraf yerləri xeyli gəzdikdən sonra üç tərəfi təbii istehkamlarla, hündür qayalarla əhatə olunmuş bir əraziyə gəlib çıxdılar. Bu ərazi qədim türk ellərinin yaşayış məskəni olan Pənahabad qalasının salınacağı ərazi idi. Bələdçilər xana ərazi haqqında ətraflı məlumat verdikdən sonra, o, həmin əraziyə

gəldi və oranı bəyəndi. Ərazidə iki-üç bulaqdan başqa su mənbəyi yox idi. Xanın göstərişi ilə bir neçə quyu qazıldı, müəyyən edildi ki, ərazidə su quyuları qazmaq olar. Bunu eşidən Pənah xan çox sevindi.

**1170-ci ildə Pənahabad qalasının əsası qoyuldu**. Qala tikilib başa çatdıqdan bir il sonra Məhəmmədhəsən xan Qacar İraq və Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur) qoşunu ilə Pənahabad qalasını almaq və Pənah xanı özünə tabe etmək məqsədilə Araz çayını keçib qalanın dörd ağaclığında çadırlar qurdurdu. Lakin Pənah xanın qoçaq döyüşçüləri və əhali Məhəmmədhəsən xanın ordusuna ağır zərbə vuraraq, onu geri qayıtmağa məcbur etdilər.

Yuxarıda qeyd edildiyi kimi **Pənahabad qalasının binası 1170-ci ildə qoyulmuşdur. Bu tariximizin 1756-57-ci ilinə müqabildir**. Yeni qalanın tikilməsində eyni zamanda da ərazinin iqlim şəraiti də nəzərə alınmalıdır. Bir il ərzində Pənahabad kimi möhkəm bir qalanın tikilməsi və möhkəmləndirilməsi qeyri-mümkündür. Nəzərə alsaq ki, Məhəmmədhəsən xan Qacar qala üzərinə **1757-ci ildə** hücum etmişdirsə, bəs qalanı nə üçün tuta bilməmişdir?

Mənə belə gəlir ki, minilliyin yadigarı olan qədim türk yurduna, özündən əvvəlki qala şəhərlərin ən əzəmətlisi, bir sözlə Allahın əli ilə yaradılan gözəl məkanda ucaldılan Pənahabadın tarixi son zamanlarda dəqiqləşdirilmişdir.

**İndi qətiyyətlə deyə bilərik ki, Pənahabadın bünövrəsi 1750-ci il, - avqust ayının sonu - sentyabr ayının ilk günlərində qoyulmuşdur.** Çox ehtimal ki, ehtiyat üçün **Şahbulağı qalasının da tikintisi davam etdirilmişdir.** «Qarabağnamə» müəllifləri də Pənahabad qalasının inşa olunmasında müxtəlif fikirlər irəli sürürlər.

**Mirzə Yusif Qarabaği «Tarixi-Safi»** salnaməsində yazırdı:

**«Soraqlaşdıqdan və axtarış etdikdən sonra ... Şuşa qalasının yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gördü və hər cəhətdən bəyəndi. Ərazinin ortasından su**

**axmadığı üçün bir neçə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1752 (1166)-cı ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu»** [7, 18].

**Mirzə Adıgözəl bəy, Mirzə Camal bəy Cavanşir Qarabaği Pənahabad qalasının əsasının qoyulmasını 1756-1757-ci illəri göstərirlər. Əhməd bəy Cavanşir isə 1754-cü ili əsas götürür.**

Yuxarıda göstərdiyimiz tarixlər Pənahabadın bünövrəsinin qoyulması kimi qəbul edilə bilməz. Ona görə ki, Qarabağın tarixinə həsr edilən ilk salnamənin müəllifi **Mirzə Adıgözəlbəyin əsəri Pənahabadın tarixini dəqiqləşdirməyə imkan verir**. Güman etməyə əsas verir ki, istər **Mirzə Adıgözəl bəyin və istərsə də Mirzə Camal bəy Cavanşir Qarabağinin** salnamələri dikdə olunub yazılarkən və ya üzləri köçürülərkən, bu işləri görən adamlar tarixləri, özləri də bilmədən səhv qələmə almışlar. Başqa cür də ola bilməz.

**Rzaqulu bəy Mirzə Camal oğlu «Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri»** adlı əsərində yazırdı:

**«Xan (Pənah xan nəzərdə tutulur - Y.H.) hicri 1160-cı ildə Şahbulağında sakin olan bütün rəiyyətləri, əyanların, qulluqçuların, ellərin və bəzi kəndlərin kəndxudalarının ailələrini köçürüb bu qalanın (Pənahabad qalası nəzərdə tutulur - Y.H.) içərisində yerləşirdi. Əvvəllər bu yerlərdə heç bir abadlıq yox idi** [7, 215].

Rzaqulubəy Mirzə Camal oğlunun yuxarıda göstərdiyimiz **1160-cı il** hicri tarixidir. Bu isə **miladi tarixinin 1747-ci ilinə təsadüf olunur**. Halbuki, Pənah xan həmin tarixdə **Qarabağ xanlığını yaratmışdır. Həmin dövrdə xanlığın siyasi və mədəni mərkəz şəhəri yox idi.** Görünür əsas **dolaşıqlıq hicri və miladi tarixlərinin dəqiq göstərilməməsindədir**.

**Şuşa-Pənahabad qalası 1750-ci ilin yayının sonu-payızın əvvəllərində inşa olunmağa başlaması heç bir şübhə doğurmur**.

**Şuşalı Həsən İxfa Əlizadə «ŞUŞA ŞƏHƏRİNİN**

**TARİXİ»** adlı salnaməsində qalanın inşa edilməsindən danışaraq belə bir fikir irəli sürür:

**“Miladi 1750-ci ildə Şuşa şəhərinin bünövrəsi qoyulmuşdur. (O, Şuşa dedikdə ilk növbədə qalanın ilk adı olan Pənahabadı nəzərdə tuturdu). Pənahəli xan tezliklə şəhərin ətrafına möhkəm bir hasar çəkdirib hər növ təcavüzə qarşı müdafiə sistemi və möhkəm bir səngər düzəltdikdən sonra, daxili islahat və inşaat işlərinə başladı. Pənah xan Pənahabadı (Şuşanı) qədim Azərbaycan memarlıq abidələri ənənələri əsasında tikmək üçün adamlar göndərib Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirtdirmişdir. Sonralar həmin ustaların özləri də Pənahabadın sakini oldular**” [9, 316].

Qarabağ salnamələrinin müəlliflərindən biri də **Həsənəli Qaradağidir**. O, **“Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları»** adlı salnaməsində qeyd edir ki:

**“Azərbaycana Məhəmmədhəsən xan Qacar hakim olmuşdur. Hərçənd son illər ki, hakimlər ilə, xüsusən Əmir Aslan xan ilə Pənah xan çox dost idi. Lakin bu yeni gəlmiş Məhəmmədhəsən xandan ehtiyat edirdi. Ona görə də mövcud qalalar (Bayat və Şahbulağı) əgər dava düşərsə, İran qızılbaşlarına cavabverici tərzdə deyildi. Pənah xan və onun yaxınları yeni bir möhkəm qalanın binasına qərar verdilər. Bu qalanın elə bir mərkəzdə olmasını məsləhət gördülər ki, bura həm Aran, həm də dağ camaatına yaxın olsun. Belə bir məkan indiki Şuşa şəhərinin yerini tapdılar. Təbii bir qaladır ki, hər tərəfdən hündür qayalar, əlçatmaz daşlar idi. Yalnız belə bir yerdə İran qızılbaşlarından müdafiə olunmaq mümkün idi. Şuşa qalası 1754-cü ildə, hicri tarixi ilə 1168-ci ildə bina olunmuşdu. İlk adı Pənahabad idi. Burada pul sikkəsi dəxi vurulurdu** [10, 357].

Onu da qeyd edək ki, Həsənəli Qaradağinin salnaməsinin tam mətni indiyə kimi əldə edilməmişdir.

**M.M.Mustafayev Qarabağ xanlığının iqtisadiyyatına həsr etdiyi elmi əsərində** qeyd edir ki**, «Şuşa qalasının**

**inşasına 1750-ci ildə başlanmış və bu iş 1752-ci ildə başa çatmışdı» [(11, s. 33].**

**«Qarabağnamələr»in 1989-cu** ildəki son nəşrinin tərtibçiləri də **Şuşa qalasının** inşası barədə başqa fikir söyləyirlər. Onlar qeyd edirlər ki, **«Hicri 1170-ci ili Şuşa qalasının** bina olunması tarixi kimi qəbul etmək olmaz. Ona görə ki, **Mirzə Adıgözəl bəyin «Qarabağnamə»** əsərini diqqətlə nəzərdən keçirərkən məlum olur ki, tarixçi o dövrdə baş verən hadisələri ardıcıllıqla izah edir» [12, 41].

Doğrudan da **Mirzə Adıgözəl bəyin yuxarıda qeyd etdiyimiz salnaməsini** diqqətlə oxuduqca məlum olur ki, o, qələmə aldığı hadisələri təsvir edərkən tarixi ardıcıllığı əsas tutmuşdur. Tarixçi salnaməsinin dördüncü fəslinə belə bir başlıq vermişdir: - **«Şuşa qalasının bina olması və Ağa Məhəmməd şahın atası Qacar Məhəmmədhəsən xanın mərhum Pənah xanla müharibəsi haqqındadır»** səhifələrini diqqətlə oxuduqda **Pənahabad (Şuşa)** qalasının bina edilməsi haqqında məlumat əldə etmək olar.

**Mirzə Adıgözəl bəy yazırdı:**

**«Bu şəhərin bina edilməsindən bir il keçdikdən sonra, Ağaməhəmməd şahın atası Məhəmmədhəsən xan Qacar Astarabad, Mazandaran və Gilan vilayətlərindən daşların sayından çox və yağışın qətrələrindən artıq qaniçən qoşun topladı, Şuşa şəhərini almaq məqsədilə hərəkət etdi** [3, 40].

Göstərilən iqtibasdan aydın göründüyü kimi **Məhəmmədhəsən xan Qacarın qoşunları Qarabağda olduğu zaman Pənahabad qalası var idi**.

Bu hadisədən sonra Gəncə, Qarabağ, Qaradağ, Naxçıvan və İrəvan xanları, Şəki xanı Hacı Çələbiyə qarşı müharibə aparmaq məqsədilə, Gürcüstan hakimi **II İrakli** ilə birləşmək üçün Gəncədən bir qədər aralıda yerləşən **Qızılqaya** ərazisinə gəldilər. Lakin Gürcü hökmdarı namərdlik edərək Azərbaycan xanlarını - **Qarabağ xanı Pənah xanı, Qaradağ xanı Kazım xanı, Naxçıvan xanı Heydərqulu xanı və Gəncə xanı Şahverdi xanı tutub həbs etdirdi**.

Aralarında olan düşmənçiliyə baxmayaraq **Şəki xanı Hacı Çələbi həbs edilən xanları əsirlikdən azad etdi**.

**E.C.Takayşvili** tərəfindən rus dilinə tərcümə edilmiş və **«Описание событий»** başlığı ilə nəşr olunmuş adsız gürcü salnaməsində bu hadisələrin tarixi dəqiq qeyd olunmuşdur. Salnamənin verdiyi məlumata görə yuxarıda göstərilən hadisələr **1752-ci ilin mart ayında baş vermişdir** [3, 41].

Bütün bu hadisələrin təhlili sübut edir ki, özünə qədər inşa olunan qalaların ən əzəmətlisi, tayı və bərabəri olmayan **Pənahabad qalasının əsası ən geci 1750-ci ilin ikinci yarısında və ya 1751-ci ilin əvvəllərində qoyulmuşdur. Biz isə 1750-ci ili qəbul edirik**.

Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, **Pənahabad (Şuşa) qalası qədim türk torpağında inşa olunmuşdur. Bu yurdun min ildən çox tarixi vardır**.

Dövrün etibarlı mənbələri olan «**Qarabağnamələr**»**in əksəriyyətində Məhəmmədhəsən xanın Qarabağa hücumunu 1752-ci ildə baş verdiyi qeyd edilir**. Bu barədə müxtəlif fikirlər də var. Bir sıra tarixçi alimlərimiz belə hesab edirlər ki, Məhəmmədhəsən xan Qacar ola bilsin ki, Qarabağa iki dəfə hücum etmişdir. Əlbəttə, bu fərziyyələr elmi araşdırmalar əsasında müəyyənləşdirilməlidir. Bir daha qeyd etməliyik ki, Şuşa qalasının əsasının 1756-cı ildə qoyulmasını qəbul etmək olmaz.

**Pənahabad-Şuşa** Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir incisidir. Bu inci təkrarolunmaz olaraq, onun şanlı tarixinə həkk olunmuşdur. Şuşa müqəddəs şəhərdir, Azərbaycan xalqının **Kərbəla şəhəridir**.

**Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi YAQUB MAHMUDOV yazır:**

**«Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövrlərdə Azərbaycanın cənnəti olan Qarabağın sinəsində ona həyat verən bir ürək kimi döyünmüş, aranlı-yaylaqlı bütün Qarabağın mərkəzi**

**olmuşdur.**

**Düzənli-dağlı Qarabağ üçün, bütün Azərbaycan ellərindən ötrü uzun tarixi dövr ərzində uca, şiş dağlar başında səfalı bir yaylaq yeri olan Şuşa el arasında, xalqın təfəkküründə və ədəbiyyatında Şişə kimi də məşhur olmuşdur»** [13, 9-10].

**Q.B.Zakir və F.B.Köçərli də öz əsərlərində Şuşanı Şişə kimi işlətmişlər**.

## ŞUŞANIN İNKİŞAF TARİXİNDƏN

Pənah xanın və onun oğlu İbrahimxəlil xanın dövründə **Pənahabad-Şuşa** sürətlə inkişaf etmişdir. Artıq **şəhər XVIII əsrin** ortalarında Azərbaycanın inkişaf etmiş şəhərlərindən biri idi. Hər iki xan qalanın inkişafına xüsusi qayğı göstərirdilər.

Şuşanın sürətlə inkişaf edib böyüməsi, onun əlverişli təbii mövqedə yerləşməsi idi. Üç tərəfdən hündür sıldırım qayalarla əhatə olunmuş qalaya, yalnız ərazinin şimal-şərq hissəsindən, bir o qədər də əlverişli olmayan dar bir cığırla qalxmaq olardı. Sanki **Ulu Tanrı Pənahabad üçün** hər şeyi təbii plan əsasında bəxş etmişdir.

**«Pənah xan bir xoş gündə Şuşa şəhərinin təməlini qoydu. Şəhər cənub-qərbdən, şimal-şərqdən, eyni zamanda da qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur**» [7, 18].

Xanlıq dövründə tikilmiş olan qala divarları daş və əhənglə tikilmişdir. Pənah xanın dövründə inşa olunan qala hasarları bir qədər də möhkəm deyildi. Ona görə ki, həmin hasarlar sürətlə və tələsik inşa edilmişdir. İbrahim xan hakimiyyətə gəldikdən sonra, Şuşa qalasının divarlarının yenidən tikilməsini həyata keçirdi. Bu barədə **Mirzə Camal bəy Cavanşiri yazırdı:**

**«Şuşa qalasının hasar divarları müsəlman tarixi ilə 1198 (1783-84)-ci ildə binası qoyulmuş və üç il ərzində çəkilib başa çatdırılmışdır. Qala divarlarının uzunluğu 2,5 km-dir** [4, 143].

İbrahim xanın hakimiyyəti dövründə inşa edilmiş qala divarları, Pənah xan dövründə tikilmiş qala divarları ilə müqayisədə olduqca keyfiyyətli və möhkəm idi. Yeni tikilmiş qala divarları, İbrahim xanın nəzarəti altında yüksək ixtisaslı mütəxəssislər tikib başa çatdırmışlar.

**«Bu divardan nə ton mərmisi, nə də başqa bir şey keçməzdi. Çünki divar daş və əhənglə tikilmişdir. Bu**

**divarlardan dörd darvaza açdılar. Şimal və şərq tərəfdən olan darvazaya –Şuşa kənd darvazası deyilir. İki darvaza isə şimal və qərb arasındadır. Bunlardan birinə İrəvan darvazası, digərinə isə Gəncə və Çiləbörd darvazası deyilir. Dördüncü darvaza isə dağıdılmış və hazırda onun yerinə divar tikilmişdir. İndi isə şəhərin ancaq üç darvazası var»** [7, 18].

**«Xacə şah»** romanının müəllifi **Jan Gevr** Şuşanın müdafiə istehkamları haqqında yazır:

**Ağa Məhəmməd xan Ərdəbilə çatanda ona dedilər ki, İbrahimxəlil xan Cavanşir Şuşa şəhərini möhkəmləndirmişdir və qərara almışdır ki, orada müqavimət göstərsin. Qacar xanı düşündü ki, İbrahimxəlil xana qüvvətlənməyə fürsət verməsin, ona görə, bilatəxir onunla vuruşmaq üçün yola düşdü. Xudafərin körpüsündən keçib sürətlə irəlilədi… İbrahimxəlil xan Cavanşir Şuşa hasarının arxasında vuruşmağa hazırlaşmışdı. Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik, gözəl şəhər idi, möhkəm hasarın hündürlüyü şəhərin bütün cəhətlərində bərabər idi, hasarın elə yerləri var idi ki, oradan mücahidlərin başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olardı** [6, 129-130].

Ağa Məhəmməd şah Qacardan əvvəl də Şuşa qalası bir neçə xarici işğala qarşı qəhrəmancasına müqavimət göstərmişdir. Ağa Məhəmməd şah Qacarın və Fətəli xan Əfşarın hücumlarının qarşısının alınması və onların dəf olunması Şuşanın tarixində silinməz izlər buraxmışdır.

Şuşa qalasında İç qala olmamışdır. Qalanın ümumi hasarı olduqca etibarlı idi. Şəhərin inşası yuxarıda deyildiyi kimi yüksək ixtisaslı mütəxəssislər tərəfindən həyata keçirilmişdir. Qalanın daxilində xana, onun övladlarına, qohumlarına, bəylərə, ağalara, ali din xadimlərinə, saray məmurlarına, tacirlərə məxsus olan imarətlərin ətraf əraziləri möhkəm və hündür hasarlarla əhatə olunmuşdur. Bütün bu deyilənlər Şuşanın yaşlı sakinlərinə məlumdur.

Deməli, Şuşa qalasında İç qalanın olmaması onun

coğrafi mövqeyi ilə və etibarlı müdafiə qurğularının olması ilə sıx bağlı idi. Şuşa qalasının inkişaf mərhələləri Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni inkişafı ilə sıx bağlı idi. Şuşa qalasında inşa olunan binaların əksəriyyəti iki mərtəbəli idi. Üç mərtəbəli binaların sayı olduqca az idi. Daş və əhəngdən tikilən binaların otaqları geniş, hündür və işıqlı idi. Binaların geniş eyvanları var idi.

**İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağanın** imarəti, qalanın aşağı hissəsində, Çuxur məhəllədə, **«Leyli»** qayasının üstündə inşa edilmişdir. Bina Şuşanın cənub-şərq hissəsində, səfalı və mənzərəli ərazidə yerləşir. İmarətin sol və sağ hissəsində, hündür hasarın ətrafında iki möhkəm bürc tikilmişdir.

Təsadüfi deyildir ki, Ağa Məhəmməd şah Qacar **1797-ci ilin iyun ayının əvvəllərində Şuşa qalasını alarkən Məhəmmədhəsən ağanın imarətində yerləşmiş və orada da qətlə yetirilmişdir**.

Şuşada inşa edilən bina və imarətlər şərq arxitekturası ənənələri əsasında tikilmişdir. Bütün binaların eyvanları **Qibləyə baxır**.

**Qaraböyük xanımın imarəti, Hacı Dadaşın imarəti, Hacı Qulunun imarəti, M.M.Nəvvabın mülkü, Nəcəfqulu Ağanın mülkü, C.Qaryağdı oğlunun mülkü, Zöhrabbəyovların mülkü və yüzlərlə bəy, ağa, ruhani və tacir mülkləri Şuşanın bəzəyi idi.**

**Pənah xanın, İbrahim xanın, Mehralı bəyin, Mehdiqulu xanın, Xurşudbanu Natəvanın imarətləri və habelə divanxana kompleksi Qarabağ xanlığının silinməz və unudulmaz tarixi yaddaşıdır.**

Şuşa qalası **17 məhəllədən ibarətdir**. Hər bir məhəllənin öz adı var. **M.Baharlı «Əhvalati-Qarabağ» adlı öz salnaməsində** qeyd edir ki, bir çox adam məndən xahiş etdilər ki, Şuşanın məhəllələrinin , hamam və karvansaraların adlarını yazım. Elə yeri gəlmişkən qeyd edim ki, M.Baharlı Qarabağın və Qarabağ xanlığının tarixindən daha çox onun memarlıq

abidələri, tarixi şəxsiyyətləri və etnoqrafik xüsusiyyətlərini qələmə almışdır. **O, yazırdı**:

**«Birinci məhəllə yuxarı məhəllədən xanlıq aradır. Bu məhəllənin əsl adı Mir (Mir dedikdə müəllif ola bilsin ki rəhbər və başçı nəzərdə tuturdu – Y.H.) adlanır. Ona görə ki, ona Xanlıq ara deyilir ki, İbrahim xanın imarətinin yanıdır».**

**İkinci məhəllə Saatlı məhəlləsidir.**
**Üçüncü məhəllə Köçərli məhəlləsidir.**
**Dördüncü məhəllə Mamayı məhəlləsidir.**
**Beşinci məhəllə Xoca Mərcanlı məhəlləsidir.**
**Altıncı məhəllə Dəmirçi məhəlləsidir.**
**Yeddinci məhəllə Hamam qabağı məhəlləsidir.**
**Səkkizinci məhəllə Təzə məhəlləsidir.**

**Aşağı məhəllələrin adları bunlardır:**

**Birinci məhəllə Qurdlar məhəlləsidir.**
**İkinci məhəllə Seyidli məhəlləsidir.**
**Üçüncü məhəllə Culfalar məhəlləsidir.**
**Dördüncü məhəllə Quyuluq məhəlləsidir.**
**Beşinci məhəllə Çuxur məhəlləsidir.**
**Altıncı məhəllə Dördlər Qurdu məhəlləsidir.**
**Yeddinci məhəllə Hacı Yusifli məhəlləsidir.**
**Səkkizinci məhəllə Dördçinar məhəlləsidir.**
**Doqquzuncu məhəllə Çölqala məhəlləsidir.**
[14, 277].

M.Baharlı Şuşa qalasının **hamamları və karvansarayları haqqında da ətraflı məlumat vermişdir**. Tarixçinin verdiyi məlumata görə, qalada **18 hamam olmuşdur. 1822-ci ildə Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən ləğv edildikdən sonra qalanın xaricində xristianlar üçün də bir hamam tikilmişdir. 17 hamam** müsəlmanlara xidmət

edirdi. İslam dininə görə ermənilər murdar olduqlarına görə onların hamamları qaladan xaricdə yerləşirdi, bu hamamın suyu Şuşadan xaric olan tullantı sulara da qarışa bilməzdi…

M.Baharlı Şuşa qalasında tikilən hamamları belə təsvir edirdi:

**«İlk hamamı Əbdüssəməd bəy tikdirmişdir. Bir hamam Uğurlu bəy, bir hamam Qazi Mirzəli, bir hamam Əli bəy Fuladov, bir hamam Rüstəm bəy, bir hamam Rəhim bəy, bir hamam Bəhmən Mirzə, iki hamam Məşədiqulu xanın qızı, iki hamam Hacı Rza Xanqızı ilə, iki hamam Ağakişi, bir hamam Hacı Əbdürrəhim, bir hamam Xeyrənsə, bir hamam Hacı Saleh, bir hamam Şahbaz, bir hamam Qaladan xaricdə xristianlar üçün tikilmişdir** [14, 277-278].

Şuşanın karvansaraylarını **M.Baharlı aşağıdakı kimi təsvir edir**:

**«Uğurlu bəyin, Hacı Əmiraslan bəyin karvansarayı idi, sonralar onu Məşədi Hüseyn Mirsəyab oğlu alıb təmir etdirmişdir. Hacı Hüseynin Karvansarayı, Timçəli Hacı Məhərrəmin kravansarayı, bir karvansarayı Hacı Böyük və Hacı İsgəndər, bir karvansaray Ağa Qəhrəman Mirsəyaf oğlu, bir karvansaray Abbas bəy, bir karvansaray Cavad Ağa, bir karvansaray Gövhər Ağa tikdirmişlər** [14, 278].

Şuşa qalasının **17 məhəlləsinin hər birinin ayrıca məscidi, iki cümə məscidi var. Bu iki məscid aşağı Gövhər Ağa və Yuxarı Gövhər Ağa məscidləridir.** Məhəllə məscidləri hər bir küçənin əhalisinin sayına uyğun olaraq inşa edilmişdir. Məhəllə məscidləri içərisində **Çuxur məhəllə** məscidi özünün arxitektura tikintisinə və həcminə görə fərqlənir. Bu məscidin qarşısında tikilən müqəddəs ocaqda (Şuşalılar onu Saqqaxana adlandırırlar) dini mərasimlər zamanı əhaliyə çay, gülab suyu və şirin şərbət paylanardı. Şuşanın yuxarı hissəsində inşa olunan Həzrət Abbas məscidi də yerli əhalinin və ətraf yerlərdən gələnlərin **izdihamlı ziyarət yeri idi**. Bir sözlə **Pənahabadın – Şuşanın hər bir qarış yeri müqəddəs və şəfalı idi**. Həqiqətən

də:

**Şuşa bir qaladır,**
**Torpağı Kərbəladır.**

Dövrün etibarlı mənbələri olan «**Qarabağnamələr**»**də** Pənah xanın və İbrahimxəlil xanın hakimiyyətləri dövründə tikilən bina və imarətlər haqqında da məlumat verilir. Bu barədə **Mirzə Camal bəy Cavanşir Qarabağinin, Mir Mehdi Xəzaninin, Baharlının, Əhməd bəy Cavanşirin salnamələrində ətraflı məlumat vardır**.

Mirzə Camal Cavanşir Qarabaği yazır:

Mərhum Pənah xanın tikdirdiyi bina və imarətlər aşağıdakılardır:

**Birinci - Bayat qalasıdır ki, orada bişmiş kərpicdən hasar, bazar, hamam və imarətlər tikdirmişdir. İndi xarabadır, yalnız xırda-para qalıqları görünür.**

**İkinci - Şahbulağı qalasıdır. Burada bulaq başında daş və əhənglə məscid, hamam tikilmiş, şəhər və bazar salınmışdır.**

**Üçüncü – Şuşa qalasının sabiq divarı və indi qoşunun taxıl anbarı olan bina.**

Mərhum **İbarhim xandan qalmış bina və imarətlər:**

**Birinci – müsəlman tarixi ilə 1182 (1768-69)-ci ildə tikilmiş böyük camaat məscididir. Bu məscid köhnəldikdən sonra onu möhtərəm qızı, rəhmətlik Gövhər Ağa təmir edib əvvəlkindən daha gözəl şəkilə salmışdır.**

**İkinci – Şuşa qalasının hasar divarıdır ki, müsəlman tarixi ilə 1198 (1783-84)-ci ildə binası qoyulmuş və üç il ərzində tikilib qurtarmışdır. İndi dövlət məmurları divarı yenidən tikdirmişlər və xanın tikdirdiyindən yalnız bəzi yerdə əsər görünür.**

**Üçüncüsü – Əsgəranın hər iki qalasıdır ki, müsəlman tarixi ilə 1203 (1788-1789)-cü ildə Şuşa qalasının üç ağaclığında Qarqar çayının keçdiyi iki dağın arasında tikdirmişdir. Müharibə zamanı bu qalalarda azacıq qoşun olsa düşmən oradan keçib Şuşa qalasına gedə bilməz.**

**Dördüncü – Dağ-daş arasında olan Xəzinə dərəsinin imarət və otaqlarıdır ki, mağaranın içərisində daş və əhənglə tikilmişdir. Oranın yalnız bircə yolu vardır.**

**Beşinci – Şuşa qalasının bir ağaclığında olan Xan bağının tikintiləridir.**

**Altıncı - Ağdam bağının hasarı, mərhum Pənah xanla başqa övladlarının qəbirləri üstündə tikilmiş uca günbəzlər və o yerlərin arxlardır** [4, 143].

Mirzə Camal bəy Cavanşir Qarabağinin oğlu **Rzaqulu bəy Mirzə Camal oğlu da öz salnaməsində atasının** məlumatlarını təkrar edir. Lakin **Baharlı Əsgəran qalasının inşa edilməsini Pənah xanın, Əhməd bəy Cavanşir isə Mehrəli bəyin adı ilə bağlayır**.

Hər-halda Mirzə Camal bəy Cavanşir Qarabağinin verdiyi tarixi məlumat, tarixi həqiqətə daha uyğundur. Əlbəttə, Pənah xan Əsgəran qalasını və digər müdafiə qurğularını tikdirməyi yaxşı dərk edirdi. Bu həmin dövrdə baş verən siyasi hadisələrlə sıx bağlı idi. Lakin onun başına gətirilən hadisələr buna imkan vermədi.

Bir həqiqəti də nəzərə almaq lazımdır ki, **XVIII əsrin** sonlarında və **XIX əsrin** əvvəllərində Şuşa-Pənahabadda və bütövlükdə Qarabağ xanlığının siyasi-ictimai həyatında baş verən hadisələrin canlı şahidi **Mirzə Camal bəy Cavanşir Qarabaği idi. Bundan əlavə M.P.Vaqifin öldürülməsindən sonra o, Qarabağ xanlığının vəziri olmuşdur**. Deməli, Mirzə Camal bəy xanlığın daxili və xarici həyatında fəal iştirak etmişdir. **Mehdiqulu xan dövründə də** xanlığın vəziri olmuşdur. Bu vəzifədə xanlıq Rusiya imperiyası tərəfindən ləğv edilənə qədər – **1822-ci ilə kimi qalmışdır**. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, o, **Şuşa-(bundan sonra Şuşa yazılacaq) Qarabağ xanlığı haqqında** bizə daha çox və dəqiq tarixi məlumatlar verə bilərdi və vermişdir.

Şuşa dəfələrlə xarici hücumlara məruz qalmış və bu sahədə öz qalib sözün demişdir.

## ŞUŞA XARİCİ MÜDAXİLƏYƏ QARŞI MÜBARİZƏDƏ

Şuşa qalasının şanlı və qəhrəmanlıq tarixi **XVIII əsrin** ikinci yarısı ilə bağlıdır. «**Qarabağnamələr**»də bu barədə ətraflı məlumatlar verilir. **Məhəmmədhəsən xan Qacar, Fətəli xan Əfşar və Ağa Məhəmməd xan Qacar kimi tarixi sərkərdələr** Şuşa qalasının divarları altında məğlub olmuşlar. Lakin Ağa Məhəmməd şah Qacar Şuşa qalasına **ikinci dəfə – 1797-ci ilin iyun ayında hücumu zamanı qalanı ələ keçirə bilmişdir**. Bu isə onun faciəli qətlinə səbəb olmuşdur. Şuşa qalasının möhkəm qala divarları və müdafiə qurğuları düşmən hücumlarının dəf olunmasında mühüm rol oynamışdır.

«Qarabağnamələr»də və dövrün digər tarixi qaynaq və mənbələrində deyildiyi kimi **Nadir şahın sui-qəsd nəticəsində öldürülməsindən sonra, İranda mərkəzi hakimiyyət uğrunda mübarizə gücləndi.** Bu mübarizədə **Qacarlar sülaləsinin nümayəndəsi Məhəmmədhəsən xan** əsas rəqibləri olan **Fətəli xan Əfşar və Kərim xan Zənd üzərində** müvəqqəti qələbədən sonra, şimaldakı Azərbaycan torpaqlarını da ələ keçirmək qərarına gəldi. Bəzi tarixi salnamələrdə deyilir ki, o, Qarabağ xanlığı üzərinə hücuma hazırlaşarkən, Azərbaycanın bir sıra xanlıqlarını da öz tərəfinə çəkmək istədisə də, buna nail ola bilmədi.

**Mirzə Adıgözəl bəy yazırdı:**

**«Ağa Məhəmməd şahın atası Məhəmmədhəsən xan Qacar İraq, Azərbaycan və Mazandaran hüdudlarında istiqlaliyyət qazandı… Şuşa şəhərini almaq məqsədilə saysız-hesabsız qoşunla qalaya hücum etdi** [3, 39-40].

Məhəmmədhəsən xan Qacarın Şuşa qalasına hücumundan bəhs edən **Mirzə Camal bəy Cavanşir Qarabaği qeyd edir ki, «Qalanın tikilişindən bir il keçdikdən sonra Ağa Məhəmməd şah Qacarın atası Məhəmməd xan Qacar İraq və Azərbaycan qoşunu ilə Şuşa qalasını almaq və Pənah xanı özünə tabe etmək məqsədilə Arazdan keçib qalanın dörd ağaclığında çadırlar qurdurdu»** [4, 116].

Burada bir məsələyə münasibət bildirmək yerinə düşərdi. Bəzi tarixçilər Məhəmmədhəsən xan Qacarın hücumunu **1751-ci ilə, bəziləri isə 1757-ci ilə aid edirlər**. Hətta deyilir ki, **1752-ci ildə qalada Pənahabad adı ilə bir misqal dəyərində gümüş pul da sikkə olunurdu. «Sikkənin bir tərəfində Pənahabad, o biri tərəfində isə «La ilahə illəllah və Məhəmmədun Rəsulillah» sözləri yazılmışdı** [7,18]. Əgər Şuşa qalasının inşa olunduğu tarixləri nəzərə alsaq, nə isə qaranlıq mənzərənin şahidi olarıq…

İranın daxilində baş verən siyasi hadisələrlə əlaqədar olaraq Məhəmmədhəsən xan Şuşanın mühasirəsindən əl çəkərək geri qayıdır. Bu zaman **Kərim xan Zənd** qoşun toplayıb İraqı və Mazandaranı tutmuşdur. Məhəmmədhəsən xan Qacar Kərim xan Zəndin zərərləşdirilməsi üçün fars torpaqlarına doğru hərəkət etdi. Lakin yolda o, yaxın adamları tərəfindən qətlə yetirildi.

Şuşa qalası ikinci dəfə Nadir şah Əfşarın sərkərdələrindən biri olan **Fətəli xan Əfşarın hücumuna məruz qaldı**.

Fətəli xan Əfşar **Urmiyanın hakimi idi**. O, Qaradağ, Mağara, Urmiya və Təbrizi ələ keçirərək Qarabağ xanlığını özünə tabe etmək üçün Şuşaya doğru hərəkət etdi. O, Pənah xanın yanına mahir elçilər göndərib, onu itaətə və ittifaqa dəvət etdi.

**«Lakin Pənah xan belə sərdarlara itaət etməyi haqlı olaraq, özü üçün əskiklik və ar bilib, elçiləri kobud cavablarla geri qaytardı»** [4, 117].

Fətəli xanın qoşunu ilə Pənah xanın qoşunu arasında gərgin mübarizə 6 aya qədər davam etdi. Bu müddət ərzində Fətəli xan heç bir uğur qazana bilmədi, onun vəziyyəti gündən-günə çətinləşirdi. Pənah xan və Qara Murtuza bəyin döyüşçüləri düşmənə ağır zərbələr endirirdilər. Döyüşlərdə Fətəli xan Əfşarın 2 minə qədər döyüşçüsü öldürüldü, yaralandı və əsir düşdü» **[**4, 117**].**

**Müharibə partizan müharibəsi xarakteri aldı** [1, 162]. Dövrün mənbələrində göstərilir ki, Fətəli xan Əfşar Şuşa qalasını ala bilməyəcəyini hiss edib, hiyləyə əl atır. Qış fəsli

yaxınlaşırdı, soyuqlar başlanmışdı. Düşmənin canlı qüvvəsinin itkiləri gündən-günə artmaqda davam edirdi, ərzaq ehtiyatı tükənirdi. Fətəli xan sülh və barışıq təklif edib, Pənah xanın yanına mahir elçilər göndərib belə bir yalan vədə verdi:

**«Əgər Pənah xan qoşunumdan aldığı əsirləri geri qaytarsa, mənimlə dostluq və ittifaq etsə, qızımın kəbinini onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm. Beləliklə də biz əbədi qohum və dost olacağıq. Bir şərtlə ki, İbrahimxəlil ağanı mənim yanıma göndərsin. O, isə orduda şirni içilib, kəbin kəsildikdən və iki-üç gün burada qonaq qaldıqdan sonra geri qayıtsın»** [4, 118].

Pənah xan Fətəli xanın hiyləsinə və yalan vədlərinə inanaraq, özünün gələcək varisini düşmən düşərgəsinə göndərir. Onunla birlikdə bir neçə kəndxudanı da Fətəli xanın yanına getməsini təşkil edir. Görünür, Qarabağ xanının ətrafında olan məsləhətçiləri də Əfşar xanının hiyləsini əvvəlcədən hiss edə bilməmişlər. Ola bilsin ki, Fətəli xanın öz adamlarından və övladlarından bir neçəsini Pənah xanın yanına, Şuşa qalasına göndərməsi, saray məmurlarında ona qarşı inam yaratmışdı. Lakin Fətəli xan öz məkrli niyyətlərinə nail olduqdan sonra, verdiyi sözə naxələf çıxaraq, İbrahim ağanı və onunla birlikdə onun düşərgəsinə gələn kəndxudaları əsir edərək, heç bir yerdə dayanmadan Urmiya qalasına apardı.

Yuxarıda dediyimiz kimi Fətəli xan Şuşa ətrafında gedən döyüşlərdə xeyli canlı qüvvə itirmişdir. Bu onun məğlubiyyətini və acizliyini sübut edir. Fətəli xan Şuşanı silah gücü ilə almasının mümkün olmamasını dərk edərək, Pənah xanı yalan vədlərlə aldatmasını təəccüblə qəbul etmək olar…

İbrahim xan və onun vəziri **M.P.Vaqif** Şuşa qalasının möhkəmləndirilməsi işini bir an da olsun təxirə salmır, qala divarlarını, bürcləri və müdafiə qurğularının yenidən inşasını davam etdirirdilər. **XVIII** əsrin **70-80-cı** illərində Şuşa qalası, sözün əsl mənasında alınmaz qala şəhərinə çevrilmişdir. **XVIII əsrin 90-cı** illərində Qarabağ xanlığına –Şuşa qalasına edilən basqınların uğurla dəf edilməsi, qalanın yüksək səviyyədə

möhkəmləndirilməsini əyani surətdə sübut edir.

Fətəli xan özünün layiqli cəzasını aldı. **Kərim xan Zəndin və Pənah xanın** birləşmiş qüvvələri onu məğlub edərək İranda hakimiyyəti ələ keçirməsinə imkan vermədilər. Lakin Pənah xan ikinci dəfə də aldanıldı. Kərim xan Fətəli xanı aradan götürdükdən sonra, özünün ən qorxulu və bacarıqlı rəqibi olan **Pənah xanı «qonaq» adı ilə Şiraza apardı**.

**Mirzə Camal bəy Cavanşir Qarabaği göstərir ki, Kərim xan Urmiyada həbsdə olan İbrahimxəlil ağanı zindandan buraxdırıb öz yanına çağırdı, ona at, qılınc, xələt və Qarabağ xanlığı və hakimiyyəti fərmanını verib, hörmət və təmtəraqla Qarabağa yola saldı. Pənah xana qarşı olan məhəbbətinə görə ona lütf və mehribanlıq göstərib dedi: - «Mənə qarşı göstərdiyin sədaqətli köməyin əvəzini çıxmaq üçün bir neçə müddət mənim yanımda qalmağını xahiş edirəm». Onu özü ilə bərabər Şiraza apardı** [4, 19-20].

Bu Pənah xanın siyasi fəaliyyətinin və hakimiyyətinin sonu demək idi. **O, 1763-cü ildə Şirazda dünyasını dəyişdi. Özünün vəsiyyətinə görə cənazəsi böyük hörmətlə Qarabağa gətirildi. Pənah xan Ağdamda özünün mülkü olan və hazırda İmarət adı ilə məşhur olan yerdə torpağa tapşırılmışdır.**

Pənah xan Azərbaycan tarixində görkəmli dövlət xadimi, məğrur sərkərdə kimi şərəfli yer tutur.

Şuşa qalası **XVIII əsrin ikinci dövründə də** xarici işğallara qarşı mübarizə aparmışdır. Bu tarixi dövr **İbrahim xanın (1759-1806-cı illər)** hakimiyyəti dövrünü əhatə edir. İbrahim xan alban xristian məliklərinin müqavimətini qırıb, onları özünə tabe etdirdi. Xanlıqda böyük quruculuq işləri apardı. Xanlıqda bu dövrdə iqtisadi, sosial və mədəni inkişaf yüksək mərhələyə çatmışdır.

Kərim xan Zəndin vəfatından **(1779-cu il) sonra İranda hakimiyyəti Azərbaycan türklərinin Qacarlar tayfasından olan Ağa Məhəmməd xan ələ keçirə bildi. O, Səfəvilər imperiyasının sərhədlərini bərpa etməyi qarşısına məqsəd**

**qoyaraq, bir çox yerləri, o cümlədən də Cənubi Qafqazı və Qarabağ xanlığını da öz dövlətinin ərazisinə qatmağı qət etdi**. Şuşa qalası bununla da qorxulu və güclü hücumlar qarşısında qaldı. Bütün Azərbaycan xanları öz dövlət müstəqilliklərini qoruyub saxlamaq məqsədi ilə yollar aramağa məcbur oldular.

Mənbələrdə göstərildiyi kimi Cənubi Qafqaz hakimləri və o cümlədən də Azərbaycan xanları, Ağa Məhəmməd xan Qacar tərəfindən ola biləcək hücumların qarşısını almaq üçün birləşməyə səy göstərirdilər. Bu siyasi məsələdə, Qarabağ xanı İbrahim xan xüsusi rol oynayırdı. Onun xahişi ilə qohumu, **Ümmə xan** öz silahlı qüvvələrinin bir hissəsini **Şuşa qalasına** göndərmişdir.

Bir sıra Azərbaycan xanları **- İrəvan, Lənkəran, Xoy və Urmiya** xanları da Ağa Məhəmməd xan Qacara qarşı birləşməkdə İbrahim xanla müttəfiq idilər.

Bu dövrdə baş verən siyasi hadisələrin canlı şahidi olan **«Qarabağ Tarixi» əsərinin müəllifi Mirzə Camal bəy Cavanşir Qarabaği yazırdı:**

**«Tiflis valisi...» İrakli xan, İrəvan hakimi Məhəmməd xan və Talış hakimi Mir Mustafa xan, Ağa Məhəmməd xanın itaətini qəbul etməyəcəkləri və bir-birinə kömək edib, müttəfiq olacaqları haqqında İbrahim xanla and içmişdilər** [4, 122].

Ağa Məhəmməd şah Qacar Şimali Azərbaycan xanlıqlarını müxtəlif yollarla özünə tabe etmək istəyirdi. Onun məqsədi bu işdə dinc və qeyri dinc yolların seçilməsi idi.

Ağa Məhəmməd şah Qacar Azərbaycanın Şimal xanlıqlarını könüllü surətdə özünə tabe etmək cəhdini **1793-cü ildə göstərdi**. Lakin Azərbaycan xanlıqlarının çoxu onunla danışıqlara razı olmadılar. Onlar Ağa Məhəmməd xan Qacarın məqsədini əvvəlcədən hiss etmişdilər. Bilirdilər ki, Qacar xanı onların varlığına tezliklə son qoyacaqdır. İbrahim xan, nəinki Ağa Məhəmməd xan Qacarın nümayəndəsi ilə danışığa razılıq verdi, hətta, onu hökmdar kimi tanımaqdan imtina etdi. Bu

Qacar xanının qəzəbinə səbəb oldu. O, vaxt itirmədən Şuşa qalasını ələ keçirmək üçün Qarabağa hücum haqqında göstəriş verdi. Qacar xanı çoxlu qoşunla Şuşa qalasının üzərinə yürüş edib, qalanın bir ağaclığında hərbi düşərgə saldı.

**«Deyirlər ki, Qacar xanı bu müharibəyə altmış min piyada və süvari, iyirmi beş topla gəlmişdi»** [6, 129].

Qacar xanı Şuşa qalasını **33 gün mühasirədə saxladı**. Mühasirə zamanı ona məlum oldu ki, qalada su mənbələri onun daxilindədir. Quyular və kəhrizlər müntəzəm olaraq əvvəlki kimi müdafiəçiləri və əhalini bol su ilə təmin edirdi. Toplardan atılan atəşlər qala divarlarına təsir etmirdi. İbrahim xan öz əsgərləri ilə birlikdə hərdən qaladan çıxıb, qızılbaşlara zərbələr endirirdi. Mühasirənin uzanması, Qacar xanını olduqca narahat edirdi. Məhz ona görə də İbrahim xanla dil tapmağa çalışırdı. Bu iş də Qacar xanının sarayında məmur olan, vaxtilə İbrahim xanla dostluq edən **Pirqulu xan** öz xidmətini təklif etdi. Ağa Məhəmməd xan Pirqulu xana icazə verdi ki, İbrahim xanla istədiyi kimi danışıb məsələni yoluna qoysun.

Pirqulu xan İbrahim xanla Şuşa qalasında görüşdülər. İbrahim xan köhnə dostunu olduqca mehribanlıqla qarşıladı. Söhbət əsnasında o, dostuna bildirdi ki, mən Ağa Məhəmməd xandan qorxmuram və Şuşa qalasına onu buraxmaq istəmirəm. Əgər mən döyüş meydanında öldürülməyimi bilsəm də, sağlığımda Ağa Məhəmməd xanı qalaya buraxmağa imkan verməərəm. Mən bunu özümə sığışdıra bilmərəm. Bu mənim nəslimə layiq iş deyil. Bu söhbətdən sonra Pirqulu xan bilirdi ki, sənin igidliyinə və cəsarətinə inanıram. Bilirəm ki, ölümdən qorxan deyilsən. Lakin qalanın əhalisini də fikirləşmək lazımdır. Gərək düşünəsən ki, günahsız xalqı Ağa Məhəmməd xanın qəzəbinə düçar etməyəsən.

Nəhayət Pirqulu xan İbrahim xanı razı sala bildi ki, müqaviməti dayandırmaq üçün şəhər əhalisi ilə söhbət et, onları inandır ki, bizi dəhşətli faciə gözləyir. Onları Kirman hadisələri ilə tanış et. Qacar xanı Kirmanda əhalinin başına müsibətlər açmışdı. Onun əsgərləri Kirmanda vəhşiliklər törətmiş, çoxlu

adam öldürmüş, qarətlər törətmiş, sağ qalan bütün kişilərin gözlərini çıxartdırıb kor etdirmişdir. Mən bunların canlı şahidiyəm.

**Jan Gevr qeyd edir ki, İbrahim xan şəhərin ruhaniləri ilə danışdıqdan sonra, onlar razılaşdılar ki, vəziyyətin ağır olması barədə şəhər əhalisinə məlumat versinlər**. Qala ruhaniləri İbrahim xanın bu fədakarlığına yüksək qiymət verərək, **onu Kərbəla şəhidlərinin göstərdikləri fədakarlıqla müqayisə etdilər.**

**Jan Gevr sözünə davam edərək yazır: "Şuşa ruhaniləri camaata dedilər ki, əgər Kərbala şahidləri din yolunda canlarını fəda etdilərsə, İbrahimxəlil xan sizin canınızın, malınızın və namusunuzun yolunda fədakarlıq edir. Bu hünərvər adam qərara gəlib ki, hamının gözü qarşısında Ağa Məhəmməd xan Qacara itaət izhar etsin ki, onun qəzəbini bu şəhərin camaatının başı üzərindən uzaqlaşdırsın. O, bunların hamısını siz şuşalıların xatirinə edir. 1795-ci ilin Məhərrəm ayında İbrahim xanın məktubu Ağa Məhəmməd xan Qacara çatır. İbrahim xan ağ kəfən geyərək qala hasarı üzərinə qalxır və hasarın xaricində dayanan Ağa Məhəmməd xana müraciət edir və onun itaətində olacağını bəyan edir"** [6, 135]

Bu fikirlər son zamanlar Təbrizdə və Tehranda yazılan tarixi əsərlərdə də səslənir.

Bu müraciətdən sonra Ağa Məhəmməd xan Şuşa qalasının mühasirəsindən əl çəkir və Tiflis üzərinə yürüş edir.

Ağa Məhəmməd xan **1796-cı ildə şah elan edildi**.

Ağa Məhəmməd şah Qacar Qarabağı, o cümlədən də Şuşa qalasını bir an da olsun yaddan çıxarmır və onlara sahib olmaq arzusu ilə yaşayırdı. **1795-ci il birinci hücum zamanı** Qacar şahı kənardan da olsa Şuşaya baxıb ona heyran olmuşdu. Qacar şahı Şuşanı uca dağ başında oturan qartala bənzədirdi. Qalanın əzəməti nəinki Ağa Məhəmməd şahı, onun qoşununu və sərkərdələrini də heyrətə salmışdı. O, nəyin bahasına olursa-olsun Şuşa qalasını ələ keçirmək qərarından əl çəkməyəcəyini

qət etmişdi.

**«Ağa Məhəmməd şah Qacar Şuşanın əzəməti və gözəlliyi qarşısında heyran qalmışdı. Şuşa o zaman Qacar imperiyasının baş kəndi olan Tehrandan daha böyük və şəhər mədəniyyəti baxımından daha çox inkişaf etmişdir. Bütün ordu mənsubları da dağların qoynunda və ormanlıqda yerləşən bu şəhərin gözəlliyinə heyran olmuşdular** [15, 17].

Ağa Məhəmməd şah Qacar Tiflisi qana qərq etdikdən sonra, yenidən Qarabağ xanlığına hücum etmək və Şuşa qalasını ələ keçirmək qərarına gəldi. O, ikinci dəfə Şuşa qalasına hücuma daha yaxşı hazırlaşmışdı. **1797-ci ilin yayında** Qacar şahı **Arpa çayı ilə Arazın** qovuşduğu yerə gəldi və orada hərbi düşərgə saldı.

Ağa Məhəmməd şah **Qacar 1795-ci il sentyabrın 12-də Tiflisi ələ keçirdikdən sonra** yeni qələbələrə inamı daha da artmışdır.

**Ağa Məhəmməd şah Qacar 1797-ci ilin baharında Qarabağ xanlığına hərbi yürüş etdi.** Qarabağ xanı İbrahim xan hiss edirdi ki, düşmən bu dəfə çox güclüdür. Qacar ordusuna qarşı aparılan hərbi əməliyyatlar İbrahim xanın nəzərdə tutduğu nəticələri vermədi. Bununla belə, Ağa Məhəmməd şah Qacar da başa düşürdü ki, İbrahim xanı aradan götürmək o qədər asan olmayacaq. **Ağa Məhəmməd şah Qacar Qarabağa ikinci dəfə hücum edən zaman diyarda üç yüz min əhali yaşayırdı»** [6, 165].

Qarabağ xanlığında əhali müxtəlif sənət növləri ilə məşğul idi. İqtisadi inkişaf Şuşanın hərtərəfli şöhrət qazanmasına təsir göstərmişdir. Qarabağ əhalisi qonaqpərvər, mərd və döyüşkən idilər. Şuşa da, o cümlədən də Qarabağ xanlığının digər yaşayış yerlərində hər il iki bayram olduqca yüksək səviyyədə keçirilirdi. Bunlar **Novruz bayramı və Həzrəti Məhəmməd peyğəmbərin mövlud günü bayramı idi. Novruz bayramı o dövrdə on üç gün qeyd olunurdu. Kərbəla şəhidlərinin yası elə yüksək səviyyədə qeyd olunurdu ki, bu**

**mərasimi İranda keçirilən mərasimlərlə müqayisə etmək olmazdı. İmam Hüseynin xatirəsi, indi olduğu kimi, əziz tutulurdu.**

**Şuşa qalasının birinci mühasirəsi İbrahim xana sübut etdi ki, Şuşa alınmazdır. Əgər qalanın əhalisi ərzağa qənaət etsələr, qızılbaşlar şəhəri ala bilməzlər. Ətraf yerlərdən ərzaq toplayıb qalaya gətirmək üçün xeyli iş görüldü. Ərzaq bol olardısa, Şuşa uzun müddət mühasirədə qala bilərdi. Ağa Məhəmməd şah Qacarın Şuşaya hücumunu mümkün qədər ləngitmək üçün tədbirlər görülürdü»** [6, 165-166].

Əsgəran qalası süqut etdikdən sonra Şuşa qalasına gedən yollardan biri qızılbaşların əlinə keçdi. Ağa Məhəmməd şah Qacara qarşı aparılan mübarizə tarixində Şuşa qalasının ikinci dəfə mühasirəsi, şuşalıların qəhrəmanlıq tarixində ən yadda qalan hadisə idi. Qala müdafiəçilərinin hamısı Azərbaycanlı türklərindən ibarət idi. Əsgəran qalası uğrunda aparılan mübarizədə qızılbaşlar xeyli canlı qüvvə itirdilər.

Şuşa qalası dörd gün idi ki, Ağa Məhəmməd şahın qoşunları tərəfindən mühasirəyə alınmışdı. Şəhərə çıxış və giriş yolları kəsilmişdi. Şuşalılar son damla qanları axana kimi müqəddəs saydıqları şəhəri müdafiə etməyə hazır idilər. Mühasirədə olan şəhərin bütün hərbi əməliyyatlarına İbrahim xan, M.P.Vaqif və başqa hərbiçilər rəhbərlik edirdilər. Şuşa ağır günlərini yaşayırdı. Eyni zamanda da Şuşa qalası uğrunda aparılan hərbi əməliyyatlar, Ağa Məhəmməd şah Qacarın son hərbi əməliyyatı idi.

Şuşada əli silah tutanların hamısı qızılbaşlara qarşı mübarizəyə qalxmışdı. Qadınlar, qocalar və uşaqlar, qala müdafiəçilərinə hərtərəfli köməklik göstərirdilər. Ağa Məhəmməd şah Qacar mühasirədə olan Şuşanı qəti hücumla, qısa müddətdə ələ keçirmək istəyirdi.

Qacar şahına qarşı mübarizənin çətinliklərindən biri də Qarabağ xanlığında üç il davam edən **(1794-1797-ci illər)** quraqlıq kənd təsərrüfatına ağır təsir göstərmişdir. Ərzaq qıtlığı yaranmışdı. Aclıq və xəstəlik başlanmışdır. Bütün bunlar Şuşa

qalasının müdafiəçilərini qorxutmur, əksinə, onlarda düşmənə qarşı kin və nifrəti artırır və mübarizə ruhunu gücləndirirdi.

Ağa Məhəmməd şah Qacar Şuşanın cənub-şərq tərəfində yerləşən **QIZIL QAYA ilə ÇAXMAQ meşəsi arasında yerləşən**, çox da böyük olmayan ərazidən Şuşanın qala divarlarını fasiləsiz olaraq top atəşinə tutmağı əmr etdi. Məqsəd divarları dağıtmaq və oradan şəhərə daxil olmaq idi. Ağa Məhəmməd şah Qacarın göstərişi ilə topçular qala divarlarının bir nöqtəsini top atəşinə tutdular, hasar yuxarıdan aşağıya doğru dağıdıldı. Topçular yalnız qalanın aşağı hissəsində, **Qırx pilləkən adlanan** ərazinin qarşısına baxan ərazidə tikilən hasarı vura bilirdilər. Bu işə hərbi təcrübəyə yaxşı bələd olan hərbçilər cəlb olunmuşdular. Həmin topçular arasında Həmid Ultein adlı bir nəfər hərbçi xüsusilə fərqlənirdi.

**Həmid Ultein** əvvəllər Bağdad hakiminə xidmət edirdi. Ağa Məhəmməd şah Qacar Təbrizə gələrkən Təbriz hakimi Həmidi tərifləyib, onun peşəkar topçu olduğunu Qacar şahına bildirmişdir. Həmid özünün ixtiyarında **olan dörd ağır topla Şuşa qalasının hasarlarını atəşə tutdu**. Toplardan atılan mərmilər qala hasarlarına təsir etmirdi. Ona görə də Həmidin göstərişi ilə iki top mərmisini möhkəm dəmir millərlə dəmirçilər və çilingərlər bir-birinə möhkəm bağlayaraq topların lülələrinə qoydular. Bununla da toplar atəş açarkən, onların lülələrindən iki mərmi çaxmağa başladı. Beləliklə də toplardan atılan mərmilərin təsir dairəsi iki dəfə artdı. Atəş nəticəsində qala divarları yuxarı hissədən uçub töküldü. Həmid bu üsulu Osmanlı topçularından öyrənmişdi. Qalanın müdafiəçiləri gecə vaxtı divarları təmir edib, əvvəlki formasına salırdılar.

İbrahim xan bilirdi ki, topların açdığı atəş nəticəsində dağılan divarlardan qızılbaş qoşunu şəhərə girə biləcəklər. O, qərara gəldi ki, topları və topçuları məhv etmək lazımdır. İbrahim xanın bu fikri Qacar şahına məlum idi. Ağa Məhəmməd şah Qacar çox yaxşı bilirdi ki, **İbrahim xan qorxmaz və eyni zamanda da bacarıqlı bir hərbiçidir**.

İbrahim xan Şuşanın müdafiəçilərinə lazımi tapşırıqlar

verdikdən sonra, düşmən toplarını məhv etmək üçün şəhərdən çıxdı. O, özü ilə birlikdə bir neçə igidlərlə bərabər, topların atəş açdıqları yerə çatdı və topları zərərsizləşdirə bildi. İbrahim xanın göstərişi ilə barıt doldurulmuş çələngləri topların altında partlatmaqla, onların lülələrini topun gövdəsindən ayıra bildilər.

**İbrahim xan və onun döyüşçüləri Ağa Məhəmməd şah Qacarın toplarını sıradan çıxarıb, qalaya qayıdarkən, qalaya gedən bütün yolların düşmən qoşunları tərəfindən tutulduğunu gördülər**. Ona görə də onlar şimala doğru getmək məcburiyyətində qaldılar. Beləliklə də, Ağa Məhəmməd şah Qacarın topları sıradan çıxarıldısa da, əvəzində uğrunda fədakarlıqla mübarizə aparılan Şuşa qalası əldən getdi. İbrahim xanın Topxanaya hücumu qəhrəmanlıq nümunəsi idi.

Ağa Məhəmməd şaha məlumat verdilər ki, İbrahim xan Şuşadan çıxıb. Onun tutulması haqqında düşünməyən Qacar şahı, Şuşanı ələ keçirməyə üstünlük verdi.

İbrahim xan göstərdiyi cəhdlərə baxmayaraq, yolunda ölümünə razı olan doğma və müqəddəs Qala-şəhər olan **Şuşaya** qayıda bilmədi. Bu müvəqqəti ayrılıq idi…

İbrahim xanın Şuşaya qayıda bilməməsi, qala müdafiəçilərinə mənəvi cəhətdən ağır təsir göstərdi. İbrahim xan yaxın adamları ilə birlikdə Dağıstana, qohumu Ümmə xanın yanına getdi.

Bu hadisədən sonra Ağa Məhəmməd şah Qacar qala müdafiəçilərinə xəbər göndərdi ki, əgər müdafiədən əl çəksələr, təslim olsalar cəzadan qurtaracaqlar. **Can, mal və namus amanda olacaqdır**. Əksinə, müqavimət göstərilsə, şəhər silah gücünə tutulsa, **Kirman və Tiflis faciələri onları da gözləyir**.

Şuşalılar yaxşı bilirdilər ki, Ağa Məhəmməd şahın vədinə inanmaq olmaz. O, olduqca qəzəbli və rəhimsizdir. Buna görə də qala müdafiəçiləri müşavirə keçirmək qərarına gəldilər. Şuşanın ali ruhani təbəqəsi Şuşanın təslim olmasının tərəfdarları idilər. Bir qrup isə, sona kimi müqavimət göstərmək təklifini irəli sürürdülər.

Müşavirə Şuşa ruhanilərinin başçısı **Hacı Babəkin**

**evində keçirildi**. Müşavirəyə şəhərin digər sosial təbəqələrinin nümayəndələri də dəvət olunmuşdular. Müşavirədə bir məsələ: - **«Şəhər təslim edilsin, ya yox?»** İbrahim xanın sərdarlarından biri olan **İbrahim Şamaxi** müşavirədə çıxış edib dedi:

**Ümüdsüzlüyə qapılmaq lazım deyil. Biz Ağa Məhəmməd şah Qacarın topxanasını dağıtdıq, qoşunundan xeyli əsgər və başçı məhv etdik. Hökmdarımız İbrahim xan azadlıqdadır. Biz təslim olsaq ona nə cavab verə bilərik, onun üzünə baxa bilərikmi? Qacar şahının sözünə inanmaq olmaz. Müşavirədə iştirak edənlərə İsmayıl Şamaxinin sözləri təsir göstərdi. Onlar Kirman və Tiflis faciələrindən xəbərdar idilər. İsmayıl Şamaxi daha sonra bildirdi ki, Ağa Məhəmməd şah Qacara silahlı müqavimət göstərən, ona böyük zərbələr vuran şuşalıları heç cür bağışlamaz…**

Hacı Babək bir qədər mübahisədən sonra bildirdi ki, mən Ağa Məhəmməd şahla görüşüb onu razı sala bilərəm ki, şəhər əhalisinə toxunmasın. Nəhayət Hacı Babək Ağa Məhəmməd şah Qacarla görüşüb onu razı sala bildi ki, şəhər əhalisinə toxunmasın. Hacı Babək evə qayıdandan sonra, müşavirə iştirakçılarına bildirdi ki, **Ağa Məhəmməd şah Qacar şuşalılardan iki yüz min əşrəfi istəyir. Qurani-Kərimə də and içdi ki, şəhər əhalisinə toxunmayacaq. Lakin o, öz andına əməl etmədi… Ağır cəzasını da aldı**.

Ağa Məhəmməd şah Qacar Şuşaya varid olub, İbrahim xanın böyük oğlu **Məhəmmədhəsən ağanın imarətində yerləşdi**. Vəd olunmuş bacı aldıqdan sonra, göstəriş verdi ki, İbrahim xanın bütün əmlakının siyahısını ona gətirsinlər. Qarabağ xanının bütün varı, mülkü zəbt edildi.

İbrahim xanın Qarabağ xanlığının ərazisində olan bütün mülkü Ağa Məhəmməd şah Qacara çatdı…

Qarabağın və Qarabağ xanlığının tarixinə həsr edilən etibarlı mənbə olan «**Qarabağnamlər**»**də** İbrahim xanın Şuşadan çıxması müxtəlif mənalarda şərh olunur.

**Mirzə Adıgözəl bəy yazırdı:**

**“Qızılbaş qoşunu Ağa Məhəmməd şah Qacarla**

**bərabər Araz kənarına gəldi. Buna görə, Şuşa qalasında dayanıb, əldə olan qüvvə ilə, qaniçən bir düşmənlə vuruşmaq mümkün deyildi. Uca mərtəbəli xan, əhl-əyal, övlad və nəvələrini, canlarından keçən bəylərin əhl-əyanlarını götürüb Car və Talaya hərəkət etdi. İbrahim xanın kürəkəni Nəsir xan, Şahsevən Əta xan, kürəkəni Səlim xan və Qarabağın sair məşhur bəyləri də İbrahim xanla birlikdə səfər etdilər** [3, 57].

Mirzə Camal bəy Cavanşir Qarabaği də Ağa Məhəmməd şah Qacarın Şuşaya ikinci hücumunu və İbrahim xanın Şuşadan çıxmasını yuxarıda göstərildiyi kimi qeyd edir.

**Əhməd bəy Cavanşir qeyd edir ki: - "Ağa Məhəmməd şah Qacar, bu bakirə qalaya (şərqdə bütün alınmaz qalalar belə adlandırılırdı) – Şuşaya döyüşsüz daxil oldu. Qəzəbli şaha elə gəlirdi ki, bunlar hamısı yuxudur. Lakin o, özünə gəldikdən sonra şadlığının həddi yox idi** [1, 167].

Təəssüflə deməliyik ki, Qarabağın və Qarabağ xanlığının tarixinə həsr edilən salnamələrin müəllifləri də İbrahim xanın, Qacar şahla döyüşə girmədən, Şuşanı tərk edərək Car və Balakənə getdiyini qeyd edirlər. Bu düzgün deyil.

Ağa Məhəmməd şah Qacarın Qarabağa hər iki hücumu Azərbaycan tarixində, özünəməxsus yer tutur. İbrahim xan başda olmaqla bütün qarabağlılar bu hücumlar zamanı əsl qəhrəmanlıqlar göstərmiş və düşmənə ağır zərbələr vurmuşlar. Qacar şahına qarşı aparılan mübarizədə **1797-ci il Şuşanın müdafiəsi də** unudulmazdır. İbrahim xan başda olmaqla qızılbaşların toplarının sıradan çıxarılması və onlardan minlərlə əsgər və hərbiçinin öldürülməsi və yaralanması bir daha parlaq sürətdə göstərir ki, Şuşa heç də döyüşsüz Ağa Məhəmməd şah Qacarın əlinə keçməmişdir. Bunu tarixi qaynaqlar və mənbələr də sübut edir.

Ağa Məhəmməd şah Qacarın toplarının məhv edildiyi **ərazi şuşalılar tərəfindən Topxana adlandırılır.**

**Borodino ruslara nə qədər əziz və şərəflidirsə,**

**Şuşanın Topxanası da bütün Azərbaycan xalqı və şuşalılar üçün bir o qədər əziz və şərəflidir. Bu Şuşanın unudulmaz tarixidir. Şuşanın qəhrəmanlıq salnaməsidir**.

Şuşa qalasının qapıları, **Topxana hadisəsindən iki gün** sonra Ağa Məhəmməd şah Qacarın üzünə açıldı. Amma o, verdiyi sözə, **Qurani-Kərimə** and içib öhdəsinə götürdüyü vədlərə əməl etmədi. **Müqəddəs kitab** onu bağışlamadı. O, tezliklə öz adamları tərəfindən qətlə yetirildi. Vahiməyə düşən İran ordusu tələsik Şuşanı tərk etdi. Şuşada hökmranlıq etmək xəyalında olan Ağa Məhəmməd şah Qacar burada həyatını itirdi.

Ağa Məhəmməd şah Qacarın Şuşada qətlə yetirilməsi xəbəri İbrahim xana çatdı. Əhali onu gözləyirdi.

Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra, İbrahim xanın Şuşada olmamasından istifadə edən, xanın qardaşı oğlu, igidliyi ilə şöhrət qazanan **Məhəmməd bəy Cavanşir hakimiyyəti ələ keçirdi**.

**«... İbrahim xan Dağıstan qoşunu və sərkərdələri, habelə Şahsevən və Qarabağ camaatı ilə birlikdə Balakəndən Qarabağa tərəf hərəkət etdi. İlk növbədə Məhəmməd bəy Cavanşiri (Batman qılıncı) zərərsizləşdirmək lazım idi. Bu məqsədlə oğlu Mehdiqulu ağanı Qarabağ bəylərinin bir neçə övladı ilə oraya göndərdi** [4, 128].

Mənbələrdə deyildiyi kimi Məhəmməd bəy Mehdiqulu ağanın və onun silahdaşlarının Qarabağa gəlişindən sonra, səmimiyyətdən və xanın itaətindən çıxmayacağını bildirdisə də, ürəyində hakimiyyət həvəsi var idi. İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağanın Qarabağa gəlişi Məhəmməd bəyin bütün iddialarına son qoydu. **Nəhayət, İbrahim xan qoşun əhli, yaxın adamları – Nəsir xan və Əta xan Şahsevənlə Qarabağa – Şuşaya gəldi** [4, 129].

**Qarabağa gələn xan keçmişdə olduğu kimi, yenə hökumət taxtında oturdu** [3, 59].

## ŞUŞANIN ƏHALİSİ

Bünövrəsi Sarıcalı Pənah xan tərəfindən qoyulan, siyasi, iqtisadi, sosial və mədəni sahələrdə sürətlə inkişaf edən Şuşa – Pənahabad Qarabağ xanlığının mərkəz şəhərinə çevrilirdi. Bu inkişaf **1753-cü ildə başa çatdı**. Pənah xan **Şuşanın qədim Azərbaycan memarlıq abidələri ənənələri əsasında tikmək üçün adamlar göndərib Təbriz, Ərdəbil və başqa şəhərlərdən ustalar gətirmişdir. Sonralar həmin ustaların özləri də ailələri ilə birlikdə Şuşanın sakini oldular [9, s. 316].**

Pənah xan Pənahabad tikildikdən sonra burada zərbxana açdırıb pul kəsdirdi. Pənahabadın əhalisi azərbaycanlı türklərindən ibarət idi. Pənahabad qalası **1750-ci ilin** sonlarında tikilib başa çatdıqdan sonra Pənah xan **Şahbulağı qalasının sakinləri olan bütün rəiyyətləri – əyanların mülazimlərin, ellərin və birpara kəndlərin kəndxudalarının ailələrini köçürüb bu qalanın içində yerləşdirdi. O vaxta qədər burada yaşayış evləri yox idi** [4, 116].

Pənahabada köçürülüb yerləşdirilən ailələrin xeyli hissəsi, ilk qala mərkəz olan **(1748-ci il) Bayat qalasının sakinləri idilər**. Deməli yuxarıda göstərildiyi kimi Pənahabada köçüb gələnlər **Bayat, Şahbulaq və Qarabağın digər ərazilərindən gələnlər idilər. Pənahabad Azərbaycanın – türk şəhəri idi. Qalada Azərbaycan türklərindən başqa, heç bir millətin nümayəndəsi olmamışdır**. Şuşada salınan məhəllə adları – **Təbrizli, Culfalar, Hacı Yusifli, Merdinli, Saatlı, Köçərli, Xoca-Mərcanlı, Çuxur məhəllə, Qurdlar, Çölqala, Qazançalı adları bunu** bir daha sübut edir. Tarixi faktlar sübut edir ki, rus işğalına kimi Şuşa qalasının sosial tərkibi dəyişilməz qalmışdır.

**1805-ci il 14 may Kürəkçay traktatına** qədər, Ağa Məhəmməd şah Qacarın qoşunlarından başqa Şuşa qalasına heç bir xarici ölkənin qoşununun ayağı dəyməmişdir. Qarabağın dağlıq ərazisində isə xristian albanların əcdadları yaşayırdılar.

Pənahabad qalası siyasi iqtisadi və mədəni cəhətdən inkişaf etdikcə onun əhalisi artırdı. **XVIII əsrin son rübündə və XIX əsrin əvvəllərində Şuşa şəhərində iki minə qədər ailə yaşayırdı** [16, 50]. Nəzərə alsaq ki, 2000 ailənin hər birinin **beş nəfər üzvü olardısa, onda qala əhalisinin 10 min nəfər olduğunu qəbul edə bilərik**.

**XIX əsrin əvvəllərinə aid olan məlumatların təhlili göstərir ki, xristianlığı qəbul edən albanların sayı Qarabağda olduqca az idi. Bunu 1823-cü ildə tərtib edilən (əlbəttə dəqiq olmayan) «Qarabağ əyalətinin təsviri»ndə aydın görmək olar**. Həmin mənbədə qeyd edilir ki, **1823-cü ildə Qarabağ xanlığında yaşayan 20035 ailədən 15729-u azərbaycanlı, 4306-sı isə mənbədə səhv olaraq xristian albanları əvəzinə «erməni» kimi göstərilmişdir**.

Bu onunla əlaqədar idi ki, Rusiya imperiyası həmin dövrdə, vətəni, torpağı olmayan, torpaqlarımıza kənardan gətirilib yerləşdirilən və bu günə kimi mənşəyi dəqiqləşdirilməyən ermənilərdən ibarət, özünə siyasi dayaq yaratmaq niyyətinin nəticəsi idi.

Onu da nəzərə almaq lazımdır ki, **1804-1813-cü illər Rusiya-İran müharibələri dövründə Qarabağ xanlığının, o cümlədən də xanlığın şöhrəti olan Şuşa qalasının əhalisinin sayı xeyli azalmışdı**. Cənubi Qafqaz uğrunda aparılan bu mübarizədə Qarabağın azərbaycanlı əhalisinin bir hissəsi öldürülmüş, bir hissəsi isə ailəsini və canını qoruyub saxlamaq üçün qonşu ölkələrə mühacirət etmişlər. **1805-ci ildən keçən 7 il ərzində Qarabağ xanlığından 4845 azərbaycanlı ailəsi öz yaşayış yerini tərk edib, İrana getməyə məcbur olmuşlar»** [17, 579].

Sonuncu Qarabağ xanı **Mehdiqulu xan da** Rusiyanın işğalçılıq siyasətinə və amansız təqiblərə dözməyərək **1822-ci ildə** İrana qaçarkən özü ilə bərabər xeyli sayda Qarabağ sakini olan azərbaycanlını da ora aparmışdır. Əlbəttə onların içərisində Şuşa əhalisinin də xeyli hissəsi var idi.

Mənbələrdə göstərilir ki, **1823-cü ildə Şuşa qalasında**

**1532 ailə yaşayırdı. Onlardan min nəfərdən çoxu Azərbaycan ailəsi idi. Qalan az hissəsi erməniləşmiş albanlardan və digər millətlərin nümayəndələri idilər.** Sonuncular **Rusiya ilə İran arasında 1813-cü il 12 oktyabrında imzalanmış Gülüstan sülh müqaviləsindən sonra Rusiya imperiyası tərəfindən kənardan gətirilən ailələr idi**.

**XVIII əsrin sonuna və XIX əsrin əvvəllərinə aid olan qaynaqlarda və mənbələrdə göstərilir ki, bu dövrlərdə Qarabağ xanlığında və onun mərkəzi şəhəri olan Şuşa qalasında əhalinin 90-95 faizini Azərbaycan türkləri təşkil edirdi.**

**1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə sülh müqavilələrindən sonra Rusiya imperiyası cənubi Qafqazda İranının və Osmanlı Türkiyəsinin mövqelərinə siyasi və iqtisadi cəhətdən ağır zərbə vurdu.** İrandan və Osmanlı Türkiyəsindən **1828-1830-cu illərdə Cənubi Qafqaza erməni ünsürlərinin kütləvi sürətdə köçürülüb gətirilməsi başlandı. O dövrə aid olan sənədlərdə göstərilir ki, 1830-cu ildə İran ərazisində yaşayan 40 min və Osmanlı ərazisindən isə 84 min erməni ailəsi Cənubi Qafqaza köçürülüb gətirilmişdir** [19, 59].

Yuxarıda göstərilən rəqəmlərlə razılaşmaq olmaz, ona görə ki, Cənubi Qafqaza köçürülüb gətirilən erməni ailələrinin sayı **iki yüz əlli mindən çox idi**. Bu köçürmələrin nəticəsi olaraq **XIX əsrin 80 ili ərzində Cənubi Qafqazda erməni ünsürlərinin sayı təxminən 4,5 dəfə artmışdı. N.N.Şavrov yazırdı: «Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər ermənınin 1 milyondan çoxu yerli deyildir. Onlar bu vilayətə bizim tərəfimizdən köçürülüb gətirilmişdir»** [19, 64].

Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən ləğv edildikdən sonra burada, mərkəzi **Şuşa şəhəri olmaqla Müsəlman Hərbi Dairəsi yaradıldı. Bu hərbi dairə, Şəki, Şirvan, Qarabağ və Lənkəran əyalətlərini əhatə edirdi**.

Rusiya İmperiyası tərəfindən **1840-cı il 10 aprel tarixli**

**inzibati-ərazi islahatına əsasən, 1841-ci il yanvar ayının 1-də Kaspi vilayətinin tərkibində Şuşa qəzası yaradıldı. Şuşa qəzası Cavanşir, Göyçay, Cavad, Cəbrayıl, Zəngəzur qəzaları ilə həmsərhəd idi. Şuşa qəzası 1846-cı ildən 1867-ci ilə kimi Bakı, 1867-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyalarının tərkibində olmuşdur. Şuşa qəzası Mığri, Kəbirli, Cavanşir, Vərəndə məntəqələrinə bölünürdü. 1867-ci ilin dekabr ayında verilən fərmana əsasən Zəngəzur və Cavanşir məntəqələri Şuşa qəzasından ayrıldı və müstəqil qəzalara çevrildilər. Şuşa qəzası 1929-cu ildə ləğv edilmişdir** [20, 579].

**1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra Şuşa şəhərinin əhalisi hiss ediləcək dərəcədə artmışdır.**

**Şuşanın əhalisinin sosial tərkibi haqqında dövrün sənədlərində məlumat verilir.**

**1830-cu ilin məlumatına görə Şuşada 56 bəy, 64 müsəlman ruhanisi, 200 tacir və emalatxanası olan 266 sənətkar yaşayırdı. 1897-ci ildə keçirilən ümumrusiya siyahıyaalınmasına görə Şuşada 2272 nəfər zadəgan, 270 nəfər din xadimi, 1416 nəfər tacir, 2738 nəfər sənətkar, 97 nəfər dövlət məmuru, 334 nəfər hərbiçi qeydə alınmışdır** [13, 70].

**2013-cü il yanvar ayının 1-nə kimi Şuşa şəhərinin əhalisinin sayı təxminən 31 min nəfərə çatmışdır.**

## ŞUŞANIN İQTİSADİ HƏYATI

Şuşa şəhəri Qarabağ xanlığının paytaxtı olmaqla bərabər, onun iqtisadi həyatında da aparıcı yer tuturdu. Şuşa şəhəri Qarabağ xanlığında kustar sənayesinin mərkəzi idi. Şəhərdə yüzlərlə sənətkar yaşayırdı.

Şuşa şəhərində toxunan xalçalar, nəinki Yaxın və Orta Şərqdə, habelə dünya bazarlarında böyük şöhrət qazanmışdı. Şuşa xalçaları keyfiyyətinə, xarici görünüşünə görə başqalarından fərqlənirdi. Şuşa xalçaları bir qayda olaraq, azad bazar üçün, eyni zamanda da sifarişlə toxunurdu.

Şuşada ipək toxuculuğu da inkişaf etmişdir. **1832-ci ildə** Şuşada **324** usta və fəhləsi, **132** dəzgahı olan **42** ipək toxuculuq müəssisəsi vardı. Bu müəssisələrdə **dəsmal, örpək, dama-dama parçalar, şalvar və köynək tikmək üçün qırmızı parçalar toxunurdu** [11, 65].

**1829-cu ildə** Şuşada fəaliyyət göstərən ipək toxuculuq müəssisələrində **740 ədəd dəsmal, 6100 metr qırmızı parça və 360 ədəd müxtəlif məhsullar istehsal olunmuşdur** [18, 120]. Şuşada **16** nəfərin işlədiyi **7** kələfaçan emalatxana var idi. Şuşa toxucuları yüksək keyfiyyətli kişi və qadın corabları toxuyurdular. Şuşa tacirləri həmin corabları satmaq üçün Tiflis şəhərinə aparırdılar.

Şuşa papaqçıları, dərisi Buxara, Şiraz və yerli quzu dərilərindən qiymətli papaqlar tikirdilər.

Şuşanın toxuculuq müəssisələrində pambıqdan bez hazırlanırdı. Həmin müəssisələrdə **80 dəzgah var idi ki, burada da 28 sənətkarlıq müəssisəsi fəaliyyət göstərirdi**. Bu müəssisələrin illik məhsulu orta hesabla **80 000 xan arşını (rus arşını ilə 12000)** təşkil edirdi. İstehsal olunan toxuculuq məhsullarını boyamaq üçün, şəhərdə 3 boyaqçı emalatxanaları var idi ki, burada **6 nəfər çalışırdı** [18, 120-121].

Şuşada **40 nəfər adamın** işlədiyi **19 dəri** zavodu fəaliyyət göstərirdi. Zavodların illik məhsul istehsalı **2 min ayaqqabı altlığı, 1400-ə qədər keçi, təxminən 1600 qoyun**

**dərisi** təşkil edirdi. Şuşa şəhərində bir kustar tipli sabunbişirmə zavodu da vardır [18, 121].

Şuşa şəhərində **barıt da** istehsal olunurdu.

Şuşa şəhərində **22 nəfər adamın** işlədiyi 2 kərpic zavodu fəaliyyət göstərirdi.

Şuşa şəhərində **qızıl və gümüşdən zərgərlər bilərzik, qızılla bəzədilmiş toqqalar, bəzək sancaqları, sırğalar, paltar üçün bəzək əşyaları və sairə düzəldirdilər**. Pənah xanın dövründə Şuşada sikkəxana da tikilmişdi.

Şuşada hər bir evdə çörək bişirmək üçün təndir var idi. Yerli əhali onlara təndirxana deyirdilər. Bunlardan əlavə məhəllələrin mərkəzində də xüsusi çörəkbişirmə təndirləri də var idi.

Sənətkarlığın və ticarətin inkişafı Şuşa şəhərində və onun ətrafında yerləşən kəndlərdə əmtəə-pul münasibətlərinin inkişafında təsir göstərirdi.

Şuşa tacirləri əzmkarlıqları və əməksevərlikləri ilə fərqlənirdilər. Siyasi və iqtisadi inkişafın nəticəsi olaraq **Şuşa şəhəri XVIII əsrin sonu – XX əsrin əvvəllərində ticarət mərkəzi kimi Cənubi Qafqazda Tiflis şəhərindən sonra ikinci yerdə dururdu**. Şuşadan ticarət karvanları Azərbaycan xanlıqlarının mərkəzlərinə və xarici ölkələrə gedirdi. Xarici ticarətdə **Rusiya və İran xüsusi yer tuturdu**.

**Tiflisdən Şuşaya** müxtəlif çit, bəzəkli paltarlar, mahud, müxtəlif rəngli kolenkor **(pambıq parça növü), sarı rəngli pambıq parçalar olan nankalar**, qırmızı boyaq, çay, müxtəlif rənglər və digər məhsullar gətirilirdi. **Bakı xanlığından Şuşaya dəmir, yazı kağızı, saxsı qablar, zəfəran və mazut gətirilirdi. Dərbənddən Şuşaya qızıl boya, Şəki xanlığından silah, evdə toxunan mahud, şal, yapıncı, xalça, Gəncə xanlığından zəy, Naxçıvan xanlığından qalın pambıq parçalar və duz, Ərdəbil xanlığından müxtəlif parçalar, Təbrizdən parçalar, istiot, darçın, mixək, badam, qurudulmuş meyvə, İran qəndi, tumaç, Şirazdan tütün, Xoy və Urmiyadan qumaş, bez, çit, Ərdəbildən qalın pambıq parça gətirilirdi** [18, 129].

Yaxın və Orta Şərqin şəhərlərində olduğu kimi Şuşada da sənətkarların peşələrinə uyğun olaraq birlikləri var idi. Həmin birliklərə Şuşada **əsnaflar deyilirdi. XVIII əsrin sonunda Şuşada qalayçıları, çəkməçiləri, papaqçıları, dabbaqları, dulusçuları, zərgərləri, dərziləri, sərracları, çörəkçiləri** və digər sənətkarları öz ətrafında birləşdirən əsnaflar mövcud idi. Bu əsnafların hər birinin **on nəfərdən iyirmi beş nəfərə qədər üzvü var idi** [13, 88].

Şuşa əsnaflarının fəaliyyətini tənzimləyən ümumi qaydalar mövcud idi.

## ŞUŞA SOVET HAKİMİYYƏTİ DÖVRÜNDƏ

**1920-ci il aprel ayının 28-də Azərbaycanda** qanlı bolşevik rejimi qurulduqdan sonra, respublikamızın hər yerində olduğu kimi, Şuşanın da qara günləri başlandı. Qisasçılıq hissi ilə yaşayan ermənilər, sovet rejimindən istifadə edərək, Şuşada əhalinin müxtəlif sosial təbəqələrinə divan tutmağa başladılar. Moskvanın fəal köməyi ilə Qarabağda rəhbər vəzifələrə soxulan erməni ünsürləri **«sinfi düşmən»** pərdəsi altında şuşalılara qarşı soyqırımı, sürgünlər və müxtəlif cəza tədbirləri həyata keçirirdilər. Xüsusilə, Şuşa ziyalılarına amansız divan tutulurdu.

Keçmiş mənşəyi ilə əlaqədar olaraq, heç bir günahı olmayan adlı-sanlı insanlar istintaqsız və mühakiməsiz güllələnirdilər. Onların əmlakı müsadirə olunurdu. Dəhşətli təqiblərdən yaxa qurtarmaq üçün şuşalıların xeyli **hissəsi İrana, Türkiyəyə, Şimali Qafqaza və Orta Asiya respublikalarına qaçırdılar**. Şuşanın yaşlı nümayəndələri söyləyirdilər ki, heç bir günahı olmayan, vətəninə, xalqına və ailəsinə sadiq olan yüzlərlə şuşalı günün-günorta çağı güllələnir, onların cəsədləri şəhərin yuxarı hissəsində yerləşən su anbarlarına doldurularaq üzərlərinə daş töküb, torpaqla örtürdülər.

**1920-1938-ci illər** Şuşanın qanlı və qara günləri idi. Yüzlərlə şuşalı **Müsavatçı, Sovet hakimiyyətinin düşməni, varlı nəsillərin nümayəndələri** elan edilərək fiziki və mənəvi cəhətdən məhv edilirdilər.

Şuşanın nəinki sakinləri, şəhərin özü də **repressiyalara** məruz qaldı. Sovet hakimiyyəti illərində Şuşanın inzibati-ərazi bölgüsü dəfələrlə dəyişdirildi. Erməni daşnakları Şuşa və onun sakinləri üçün cəllada çevrilmişdilər. Yerli şuşalılar kütləvi surətdə şəhəri tərk edir, onların evləri isə kənardan gətirilən ermənilərə hədiyyə edilirdi. Beləliklə də azərbaycanlıların sayı azalırdı.

**1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yarandıqdan sonra, Şuşa, 1750-ci ildən 1920-ci ilə kimi, yəni 170 ilə yaxın yerinə yetirdiyi ənənəvi statusdan – bütün**

**Qarabağın inzibati mərkəzi statusundan məhrum edildi** [13, 91].

**1920-ci ildən 1960-cı ilə kimi** Şuşada heç bir abadlıq işi aparılmamışdır. Ermənilər şəhərinin qədim memarlıq abidələrini yerlə yeksan edirdilər. Pənah xan və İbrahim xanın hakimiyyətləri dövrlərində inşa olunmuş memarlıq abidələrinə xüsusi divan tuturdular. Əsgəran, «Xəzinə qayası» ilə üz-üzə kəmənddə tikilən istirahət memarlıq kompleksi dağıdıldı. Şuşanın mərkəzində yerləşən karvansaraylar, hamamlar, xanlara və onların nəsillərinə məxsus olan saray və malikanələr, müqəddəs yerlər dağıdılırdı. Mən bütün bunları şəxsən görmüşəm.

Moskvanın həyata keçirdiyi qeyri-qanuni tədbirlərdən Xankəndində partiya və sovet rəhbərliyini ələ keçirən ermənilər, **1963-cü il yanvarın 4-də** Şuşa rayonunu ləğv edərək onu Xankəndinin tərkibinə qatdılar. Bu bədnam qərar, **1965-ci il yanvarın 6-da ləğv edildi və Şuşanın rayon statusu yenidən bərpa olundu**.

**Mən, 1963-cü ildə hazırkı Bakı Dövlət Universitetinin əyani tarix fakültəsinin üçüncü kursunda oxuyurdum**. Doğma Şuşaya qış tətilinə getmişdim. Həmişə məğrur, əzəmətli görünən **Şuşa** ah-vay edib ağlayırdı, adama elə gəlirdi ki, şəhər **Allahı köməyə çağırırdı…**

Ermənilər ləğv edilmiş idarə və müəssisələrin dəmir seyflərindən tutmuş bütün avadanlıqlarını maşınlara yığıb Xankəndinə aparırdılar. Şuşa qarət edilirdi.

Şuşanı düçar olduğu fəlakətlərdən xilas etmək üçün xalqımızın cəsarətli və uzaqgörən siyasi liderə böyük ehtiyacı var idi. **Belə bir lider Heydər Əliyev oldu**.

**1969-cu il iyulun 14-də Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi**, Şuşanı düçar olduğu fəlakətlərdən xilas etdi. **1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti «Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında» qərar qəbul etdi**. Şuşanın iqtisadi, sosial və mədəni həyatında çox mühüm

irəliləyiş başlandı.

Şuşada, bütün Azərbaycanda yeganə fabrik – **Şərq Milli Musiqi Alətləri Fabriki açıldı. Fabrik tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edirdi. Fabrikin istehsal etdiyi məhsullar Gürcüstana, Orta Asiya respublikalarına, Qazaxıstana, Hindistana, Orta və Yaxın Şərq ölkələrinə ixrac edilirdi.**

**Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan mili mədəniyyətinin və incəsənətinin inciləri olan Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşudbanu Natəvanın, M.M.Nəvvabın Şuşada ev muzeyləri yaradıldı. 1982-ci ildə isə Şuşada M.P.Vaqifin məqbərəsi açıldı.**

Şuşa şəhərində və onun ətraf ərazisində **beş yüzdən artıq qədim tarixi memarlıq abidələri var idi. Həmin memarlıq abidələrinin 250-ə qədəri beynəlxalq əhəmiyyətli idi**.

Şuşa şəhərində və bütövlükdə Qarabağda erməni deyilən ünsürə aid heç bir tarixi memarlıq abidəsi yoxdur.

Erməni faşistləri Şuşanı **1992-ci il mayın 8-də işğal etdikdən sonra, milli-memarlıq abidələrimizi dağıtmışlar**. Şuşanın işğalı zamanı döyüşlərdə **195 nəfər** soydaşımız şəhid olmuş, **165 nəfər** yaralanmış, **58 nəfər əsir** düşmüş və girov götürülmüşdü.

Sözsüz ki, qisas yerdə qalmayacaq, son sözü **şanlı Azərbaycan əsgəri deyəcəkdir**.

# ŞUŞA MƏDƏNİYYƏTİMİZİN MƏRKƏZİDİR

**XIX əsrin ikinci yarısından başlayaraq** Qarabağ xanlığının mərkəzi şəhəri Şuşa elm, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində sürətlə inkişaf etməyə başladı. Bu inkişaf Azərbaycan xalqının milli ruhunu əks etdirirdi. Şəhərdə fəaliyyət göstərən mollaxanaların və mədrəsələrin sayı genişlənir, şagirdlərin sayı artırdı.

Yuxarıda Şuşanın memarlıq abidələrindən ətraflı söhbət açmışıq. Şuşa şəhəri özünün quruluşuna görə Azərbaycan və ümumilikdə Şərq memarlıq nümunəsində inşa edilmişdir. **Şəhərin Bazarbaşı, Rastabazar, Meydan, Aşağıbazar, Şeytanbazar və başqa memarlıq abidələri Şuşanın fəxridir**. Rastabazar – **daşlarla döşənən, ətraflarında tacir dükanları və müxtəlif sənətkar müəssisələri olan səkilər idi. Bazarbaşından başlayaraq Şeytanbazarın qurtaracağına qədər küçənin sol və sağ tərəfləri üstü örtülü idi**. Qar və yağış yağanda həmin sahələrə düşmürdü.

Şuşanın mədəni həyatı onun məhəllələrindən və küçələrindən başlayırdı. Bütün küçələr xüsusi yonulmuş daşlarla döşənmişdi. **XX əsrin 50-ci illərinə kimi Şuşa küçələrinlə palçıq olmazdı. Gecələr ay işığında yollara döşənən daşlar işıq saçırdı. Bu təbii işıq idi. 1960-cı ildən başlayaraq Rastabazarlar, küçələrin bəziləri** qara asfaltla döşənildi, mərmər daşlar qara asfaltın altında qaldı.

Mənim yaxşı yadımdadır, şəhərin mərkəzi küçəsi asfaltla örtülərkən adama elə gəlirdi ki, tarixin yaddaşı olan həmin daşlar sanki ağlayırdı, qoymayın bizi məhv etsinlər deyə **fəryad qoparırdılar. Rastabazarlara döşənən iri həcmli hamar daşları Xankəndində yaşayan erməni məmurları söküb aparır, orada özlərinə ev tikirdilər. Tarixi abidələrimiz anbarlara çevrilirdi…**

**Şuşa Allahın** bütün Azərbaycan xalqına əbədi bəxş etdiyi və yaratdığı əvəzolunmaz **təbii abidədir**. Çünki bu şəhərin bütün dünyada rəqibi yoxdur.

**Şuşa elm** mərkəzi kimi də yaddaşlara həkk olunmuşdur. Tarixşünaslığımızın mənbələri olan **«Qarabağnamələr»in** müəlliflərinin hamısı Şuşada yaşamışlar. Onların bizə miras qoyub getdikləri əsərlər, **Azərbaycan tarixini öyrənməkdə əvəzolunmaz mənbədir.**

Şuşa alimləri özlərinin elmi yaradıcılıqları ilə, dünya elmlərinin müxtəlif sahələrinə dəyərli töhfələr vermişlər. **Həmyerlilərimizdən Azərbaycan Milli Elmlər Akademiyasının (keçmiş Azərbaycan SSR Elmlər Akademiyası) akademiklərindən Əsədov Səttar Məcid oğlu biologiya elmləri sahəsində, Tutayuk Validə Xaspolad qızı biologiya elmləri sahəsində, Rüstəmov Paşa Həbib oğlu kimya elmləri sahəsində, İmanov Lətif Muxtar oğlu fizika elmləri sahəsində, Allahverdiyev Cəlal Eyvaz oğlu riyaziyyat elmləri sahəsində əldə etdikləri nailiyyətlərə görə akademik adına layiq görülmüşlər**.

Şuşa torpağının yetirmələri olan, müxtəlif elm sahələri üzrə fəlsəfə doktorlarının, elmlər doktorlarının, professorların adlarını saymaqla qurtarmaq olmaz. Hazırda onların böyük əksəriyyəti milli elmlərimizin hərtərəfli inkişafı naminə səy və bacarıqlarını əsirgəmirlər.

Şuşalı müəllimlərin və tibb işçilərinin bir qismi yüksək fəxri adlara layiq görülmüşlər.

Şuşanın təhsil sahəsindəki dəyərləri tariximizin aparıcı mövqelərində öz sözünü demişdir. Şuşanın mədəni inkişafı burada təhsilə olan ehtiyacı ön plana çəkirdi.

**Rusiya imperiyası 1829-cu il avqustun 2-də Zaqafqaziyada dövlət məktəblərinin açılması haqqında Nizamnamə təsdiq etdi**. Bu nizamnaməyə görə Azərbaycanın bir neçə qəzalarında dövlət məktəbləri açılması nəzərdə tutulurdu. Açılacaq məktəblərin yerləri də müəyyənləşdirilmişdir. Yeni açılacaq məktəblər – **Gəncədə, Şuşada, Nuxada, Şamaxıda, Bakıda, Naxçıvanda, Ordubadda və Qazax nahiyəsində açılması nəzərdə tutulurdu. 1829-cu il Nizamnaməsinin nəzərdə tutduğu şəhərlərdən birincisi Şuşa qəza məktəbinin**

**təntənəli açılışı oldu** [21, 12].

**1835-ci ilin may ayının 12-də Zaqafqaziya məktəblərinin ikinci nizamnaməsi qəbul olundu**. Yeni nizamnaməyə əsasən ibtidai təhsili inkişaf etdirmək və Tiflis gimnaziyasında təhsil ala biləcək şagirdlər hazırlamaq idi. Şuşa qəza məktəbi də öz təhsil sistemini yeni nizamnamənin tələbləri əsasında qurmağa və yüksək biliyə malik şagirdlər hazırlamağa başladı.

Yuxarı siniflərdə **(II-III siniflərdə) şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsədən başlanğıc, hüsnxət, rəsm, milli dil tədris olunurdu. Lakin yenə də dərslər rus dilində aparılırdı. Bununla birlikdə, onu da deyək ki, Azərbaycan dili rus şagirdləri üçün məcburi idi. 1830-cu ildə** Şuşa qəza məktəbində **3, 1835-ci ildə 4, 1845-ci ildə 5, 1856-cı ildə 7 nəfər müəllim,** qeyd edilən illərə uyğun olaraq, **30, 44, 187 və 223 nəfər şagird var idi** [21, 15].

Şuşa qəza məktəbinin kitabxanasında, **1845-ci ilin məlumatına görə 301 adda kitab və digər tədris ləvazimatı olmuşdu** [21, 15].

Şuşa qəza məktəbində tədris işlərinin yüksək səviyyədə qurulması nəticəsində **1847-ci ildə həmin məktəb şəhər məktəbinə çevrildi**. Yerli müsəlman əhalisi təhsilə böyük maraq göstərirdi. Ona görə də məktəbdə təhsil alan şagirdlərin sayı sürətlə artırdı.

Şuşa şəhər məktəbinin ilk buraxılışından bir neçə nəfər – **Əlibəy Tahirov, Firudin bəy Köçərli və Səfərəli bəy Vəlibəyov, 1879-cu ildə Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şöbəsinin ilk məzunları olmuşlar**.

**1881-ci il noyabr ayının 20-də Şuşada 6 sinifli realnı məktəbi – təcrübi bilik verən orta ümumtəhsil müəssisəsi açıldı.**

**XIX əsrin ikinci yarısında Şuşada təşkil olunan və dövrün yüksək intellektinə malik olan yerli ziyalıları özündə birləşdirən ədəbi məclislərin şəhərin mədəni həyatında xüsusi yeri olmuşdur.** Belə ədəbi məclislərdən biri, **1864-cü**

**ildə Xan qızı Xurşudbanu Natəvanın yaratdığı «Məclisi-üns» idi.** «Məclisi-üns»ün yaradılmasında **«Qarabağnamələr»in** müəlliflərindən biri olan **Mirzə Rəhim Fəna yaxından iştirak etmişdir**. «Məclisi-üns» (**Dostluq məclisi**) özünün yığıncaqlarında hər bir iştirakçıya hörmətlə yanaşır, ehtiyacı olanlara maddi cəhətdənköməklik göstərirdi. «Məclisi-üns»ün məşğələlərində – **Mirzə Sadıq Piran, Mirzə bəy Məxfi, Məmo bəy Məman, Mirzə Məhəmməd Katib, Mirzə Ələsgər Növrəs, Hacı Abbas Agah, İsmayıl bəy Darucə və başqaları fəal iştirak edirdilər**. Onlar Azərbaycan milli qəzəl janrının inkişafına böyük tövhələr vermişlər.

Şuşanın mədəni həyatında özünəməxsus yer tutan ədəbi məclislərdən biri də **1872-ci ildə M.M.Nəvvabın təşəbbüsü ilə yaradılan və onun evində fəaliyyət göstərən «Məclisi-fəramuşan» idi. M.M.Nəvvab başda olmaqla** məclisin işində **Abdulla bəy Asi, Fatma xanım Kəminə, Həsənəli xan Qarabaği, Məşədi Əyyub Baki, Xan Qaradaqi. Əbülhəsən Şəhid və başqaları iştirak edirdilər. «Unudulanlar»** mənasını verən «Məclisi-fəramuşan» **1910-cu ilə kimi özünün məşğələlərini** yüksək səviyyədə davam etdirmişdir. Hər iki ədəbi məclisin üzvləri bir-biri ilə ədəbi təcrübə mübadiləsi aparmış, **Azərbaycan mili şerinin müxtəlif janrlarının zənginləşdirilməsinə xidmət göstərmişlər** [22, 4].

Şuşanın mədəni həyatında **M.P.Vaqifin, Q.B.Zakirin, Xurşudbanu Natəvanın, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Ə.Ə.Haqverdiyevin, Y.B.Çəminzəminlinin, F.B.Köçərlinin və başqalarının ədəbi yaradıcılıqları olduqca böyük yer tuturdu.**

**Əbəs yerə deyildir ki, F.B.Köçərli Şuşanı «Şairlər yuvası» adlandırırdı.**

Yuxarıda adları qeyd olunan qələm sahiblərinin həyat və fəaliyyətləri haqqında qısa məlumat verilməsi məqsədəmüvafiq olardı.

**Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Salahlı kəndində anadan olmuş, 1797-ci ildə Şuşada qətlə**

**yetirilmişdir**. M.P.Vaqif öz zamanında bir çox ülum və fününa **(fənn və elmlər) vaqif** olduğu üçün özünə «Vaqif» təxəllüsü ittixaz **(qəbul)** etmişdir [23, 159].

M.P.Vaqif fars və ərəb dillərini də mükəmməl bilirmiş. Xalq arasında onun böyük hörmətə malik olması: **- «Hər oxuyan Molla Pənah olmaz!»** ifadəsində tapmışdı. Vaqif Şuşanın **Saatlı məhəlləsində məktəb açmış və uşaqlara dərs demişdir**. Az müddət ərzində Vaqifin şöhrəti artmış və o, Qarabağın şərəfli və şövkətli adamlarından birinə çevrilmişdir. Ona görə də Qarabağ xanı Vaqifi saraya dəvət etmiş və onu özünə vəzir təyin etmişdir. Vaqif Şuşa qalasının tikintisində və müdafiə qabiliyyətinin möhkəmləndirilməsində, xanlığın idarə olunmasında İbrahim xanın ən yaxın köməkçisi olmuşdur. Vaqif **1769-cu ildən 1797-ci ilə kimi** İbrahim xana baş vəzir kimi sədaqətlə xidmət etmişdir. O, Azərbaycan poeziyası tarixində özünün yaradıcılığı ilə böyük yer tutur. Klassik Şərq şerini dərindən bilən Vaqif **qəzəl, müxəmməs, müstəzad** və başqa formalarda əsərlər yazmışdır. Bununla yanaşı Vaqif xalq ədəbiyyatı, aşıq şerinə də bağlı olmuş, **təcnis, xüsusilə qoşmaları ilə milli poeziyamızı zənginləşdirmişdir.** Nikbinlik, həyatsevərlik Vaqif poeziyasının əsas xüsusiyyətidir. Milli dilimizin təkmilləşdirilməsində Vaqifin xidməti böyükdür.

M.P.Vaqif heca vəznində yazdığı şerlərdə **xalq dilinin zəngin xəzinəsindən sənətkarlıqla istifadə etmiş, onun ədəbi-bədii dil səviyyəsinə qaldırmışdır. Vaqif yaradıcılıq məktəbi, Şuşada və bütövlükdə Qarabağda görkəmli şairlərin yetişməsində mühüm rol oynamışdır** [24, 383-384].

**Qasım bəy Zakir (Qasım bəy Əlibəy oğlu Cavanşir) 1784-cü ildə Şuşada bəy ailəsində anadan olmuş, 1857-ci ildə orada vəfat etmişdir.** Qasım bəy Zakir Şuşada mollaxanada təhsil almış, ərəb və fars dillərini öyrənmişdir. Q.B.Zakir Şərq ədəbiyyatını dərindən bilirdi. O, **XIX əsrin birinci yarısında Azərbaycan ədəbiyyatının formalaşmasında başlayan tənqidi realizmin aparıcı nümayəndələrindən biri idi. Vaqif ənənələrinin davamçısı olan Zakir yaradıcılığında xalq**

**poeziyasının təsviri olduqca güclüdür.** Q.B.Zakirin ədəbi yaradıcılığı olduqca zəngindir. O, **qəzəl, müxəmməs, müstəzad, təcrübənd və tərkibbənd formalarında əsərlər yazmışdı** [25, 292-293].

Qasım bəy Zakirin ədəbi yaradıcılıqlarında tənqidi realizm olduqca güclüdür.

Qasım bəy Zakir Cavanşir Türkmənçay sülh müqavi-ləsindən sonra, **1828-ci il 15 mart tarixində çar fərmanına əsasən «İran müharibəsinə görə» gümüş medalla təltif olunmuşdur.**

**Xurşudbanu Natəvan Mehdiqulu xan qızı 1832-ci ildə Şuşada anadan olmuş və 1897-ci ildə orada dünyasını dəyişmişdir. Məzarı Ağdam şəhərində İmarət adlanan qəbiristanlıqdadır**.

**Natəvan «təxəllüsü» Xurşudbanuya 1864-cü ildə «Məclisi-ünsün» qərarı ilə verilmişdir. Natəvan fars mənşəli söz olub mənası qüvvətsiz, gücsüz, iqtidarsız, zəif və aciz deməkdir**. Lakin bu sözləri Natəvan kimi məğrur, cəsarətli, geniş dünyagörüşünə malik olan ziyalı-şair qadına aid etmək olmaz. Bu sadəcə olaraq təxəllüs kimi qəbul edilə bilər.

**X.B.Natəvan 65 illik** həyatı dövründə bir çox haqsızlıqlarla qarşılaşmasına baxmayaraq, ədəbi yaradıcılıqla məşğul olmuşdur. Bu sahədə Şuşanın ədəbi mühiti də Natəvana böyük təsir göstərmişdir. Natəvan qəlblərə hakim kəsilən şeir və qəzəllər yazmışdır.

Fransız yazıçısı Aleksandr Düma (Ata) **1858-ci ildə Bakıda olarkən** Natəvanla görüşmüş və bu görüşün təəssüratla-rını Düma **«Qafqaz»** əsərində qələmə almışdır. A.Düma yazırdı:

**«Mənim dəvət olunduğum evdəki məclisdə iki tatar (Azərbaycanlı) knyaz qadını və kiçiyinin əri iştirak edirdilər… Onlar gəlişimizi səbirsizliklə gözlədiklərindən bizi sevinclə qarşıladılar. Knyaz qadınlarından biri Qarabağın son hakimi Mehdiqulu xanın arvadı və o biri onun qızı idi…. A.Düma Natəvanın yadigar olaraq ona bağışladığı əl işini yüksək qiymətləndirərək göstərir ki,**

**başqa yerə getməyimlə əlaqədar olaraq bu gözəl hədiyyələri götürdüm»**.

Natəvan şerlərini mili ruhda, olduqca sadə və səmimi tərzdə yazmışdı. Onun qəzəllərində Şərq musiqi alətlərinin – **kamançanın, setarın, udun, tənurun, tarın səsi eşidilir və nəfəsi gəlir.** Natəvanın yaradıcılığında həyatın özünü, gücünü görürük. Natəvan yaradıcılığı öz dövrünün və özündən sonrakı bədii yaradıcılığa gələn şairlərin yetişməsinə böyük təsir göstərmişdir.

Xan qızı Natəvan öz xalqını dərin məhəbbətlə sevirdi. O, Şuşaya şirin su xətti çəkdirmiş, körpülər tikdirmiş və xeyriyyəçiliklə məşğul olmuşdur. Natəvan **1873-cü ildə Şuşaya saxsı borularda «Xan qızı» bulağı ilə məşhur olan bulaq çəkdirmişdir** [26].

**Mir Möhsün Nəvvab Hacı Məhəmməd oğlu 1833-cü ildə Şuşada anadan olmuş, 1918-ci ildə Şuşada dünyasını dəyişmişdir. M.M.Nəvvab geniş dünyagörüşünə malik şəxsiyyət idi.** Yaxşı təhsil almış, ərəb və fars dillərini dərindən bilirdi. M.M.Nəvvab şair, ədəbiyyatçı, rəssam, xəttat və musiqişünas idi. O, **1872-ci ildə** yaradılan **«Məclisi-fəramuşan» ədəbi** məclisinə rəhbərlik etmişdir. M.M.Nəvvab Şuşada **qiraətxana, «üsuli-cədid» məktəbi, mətbəə və cildxana açmışdır**. Eyni zamanda o, Qarabağ şairlərinin yaradıcılıqlarından bəhs edən **«Təzkireyi-Nəvvab»** əsərinin müəllifidir. **Nucumdan bəhs edən «Kifayətüt-ətfal»** əsəri onun dəqiq elmlərə bələd olduğunu sübut edir. M.M.Nəvvabın çoxlu rəsm əsərləri var.

M.M.Nəvvabın klassik musiqi haqqındakı **«Dər elmi musiqi vüzuh-ül-ərqam» («Musiqi elmində rəqəmlərin aydınlaşdırılması»)** əsəri Azərbaycanda musiqiyə həsr olunmuş ilk əsərdir. Müəllif bu əsərdə orta əsrlər müsəlman şərqinin **(Fərabi, İbn Sina, Səfiəddin Urməvi, Əbdülqadir Maraği) və antik dövrünün (Platon, Aristotel)** görkəmli filosof musiqişünaslarının ideyalarını əsas tutaraq, **musiqinin mənşəyi, musiqi estetikası, ifaçılıq problemlərini, musiqinin**

**dinləyicilərə emosional təsiri, onun şəfaverici xüsusiyyətləri haqqında ətraflı məlumat vermişdir** [29, 217-218].

**Haqverdiyev Əbdürrəhim bəy Əsəd bəy oğlu 1870-ci ildə Şuşada anadan olmuş, 1933-cü ildə Bakıda dünyasını dəyişdirmişdir.** O, yazıçı, dramaturq və ictimai xadim idi. Ə.B.Haqverdiyev bədii yaradıcılıqda əldə etdiyi yüksək nailiyyətlərə görə, **1928-ci ildə Azərbaycan SSR Əməkdar İncəsənət xadimi adına layiq görülmüşdür**. İlk təhsilini Şuşada almışdır. Bundan sonra Ə.B.Haqverdiyev Tiflisdə realnı məktəbində oxumuş, **1891-ci ildə Peterburq Yol Mühəndisləri İnstitutunun Şərq fakültəsində oxumuşdur. Peterburqda təhsilini başa çatdıran Ə.B.Haqverdiyev doğma Şuşaya qayıtmış və yaradıcılıqla məşğul olmuşdur. 1905-ci ildə Rusiyanın I Dövlət Dumasına deputat seçilmişdir.** Ə.B.Haqverdiyev yazdığı əsərlərdə tarixi hadisələrə üstünlük vermişdir. Ə.B.Haqverdiyevin yazdığı dram əsərləri, mili dramaturgiyamızın inkişafında böyük yer tutur [27, 124-125].

**Axundov Süleyman Rzaqulu bəy oğlu (təxəllüsü Süleyman Sani) 1875-ci ildə Şuşada anadan olmuş, 1939-cu ildə Bakıda dünyasını dəyişmişdir. O, 1894-cü ildə Zaqafqaziya Qori Müəllimlər Seminariyasını bitirmiş və pedaqoji işlə məşğul olmuşdur.**

**S.S.Axundov 1906-cı ildə** çağırılmış Azərbaycan müəllimlərinin birinci qurultayına nümayəndə seçilmişdir. O, **1920-1921-ci illərdə Qarabağ Vilayəti Maarif Şöbəsinin müdiri vəzifəsində işləmiş və 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir.** Ədəbi-pedaqoji sahələrdə səmərəli fəaliyyətinə görə S.S.Axundov, **1932-ci ildə Əmək Qəhrəmanı adına layiq görülmüşdür.** Ədibin çoxlu komediyaları, pyesləri və hekayələri var [28, 500].

**Vəzirov Yusif Mirbaba oğlu (təxəllüsü Çəminzəminli) 1887-ci ildə Şuşada anadan olmuş, 1943-cü ildə Qorki vilayətinin Suxobezvodnoye kəndində dünyasını dəyişmişdir.** Y.B.Çəminzəminli Şuşada və Bakıda təhsil almışdır. O, **1910-cu ildə Kiyev Universitetinin hüquq fakültəsinə daxil olmuş və**

**1915-ci ildə oranı yüksək qiymətlərlə bitirmişdir. «Molla Nəsrəddin» jurnalı ilə əməkdaşlıq edən** Y.V.Çəmənzəminli, jurnalın səhifələrində müxtəlif mövzularda məqalələrlə çıxış etmişdir. Azərbaycan ədəbiyyatı tarixində tənqidi-realizmin nümayəndələrindən biri kimi də fəaliyyəti çox qiymətlidir. Y.V.Çəmənzəminli milli ədəbiyyatımızın roman janrında tarixi-fəlsəfi romanın ilk nümunəsi olan, **1934-cü ildə yazdığı «Qızlar bulağı»** romanında müəllif Azərbaycan tarixi, filologiyası və folklor materialları əsasında ulu babalarımızın həyat təcrübəsini mənəvi-əxlaqi, fəlsəfi görüşlərini, yaşayış tərzini, xalq ənənələrini real boyalarla təsvir etmişdir. Ədib **«İki od arasında» romanında Qarabağ xanlığını Azərbaycanın rəmzi kimi göstərmişdir.** Bu roman milli tarixi roman janrımızın klassik nümunəsidir.

Y.B.Çəmənzəminlinin ədəbi yaradıcılığı olduqca rəngarəngdir. [27, 339].

**Vəzirov Nəcəf bəy Fərhad bəy oğlu 1854-cü ildə Şuşada anadan olmuş, 1926-cı ildə Bakıda dünyasını dəyişmişdir.** İlk təhsilini Şuşada alan N.B.Vəzirov, Bakıya getmiş və orada realnı gimnaziyasında oxumuşdur. **«Əkinçi» qəzeti ilə** əməkdaşlıq etmiş, **1874-cü ildə** Moskva şəhərindəki **Əkinçilik Akademiyasına daxil olub, oranı bitirmişdir. O, rejissor kimi də fəaliyyət göstərmişdir.**

**N.B.Vəzirov milli pyeslər, komediyalar və dram əsərlərinin müəllifidir.** Onun meşə təsərrüfatı sahəsində böyük təcrübəsi var idi [30, 495].

**Köçərli Firudin bəy Əhməd bəy oğlu 1963-cü ildə Şuşada anadan olmuş, 1920-ci ildə Gəncədə dünyasını dəyişmişdir**. O, ilk təhsilini Şuşada Mirzə Kərim Münşüzadənin məktəbində almışdır. F.B.Köçərli sonra təhsilini Şuşa şəhər məktəbində davam etdirmiş, **1879-cu ildə Zaqafqaziya Qori Müəllimlər Seminariyasına daxil olaraq oranı 1885-ci ildə qurtarmışdır**. Seminariyanı qurtardıqdan sonra o, Qərbi Azərbaycanın, yəni İrəvan gimnaziyasında, sonra isə Zaqafqaziya Qori Müəllimlər Seminariyasında dərs demişdir.

F.B.Köçərli **1908-ci ildə «Azərbaycan türk ədəbiyyatı» əsərini yazıb başa çatdırmışdır**. Daha sonra bu tədqiqat **«Azərbaycan ədəbiyyatı tarixi materialları»** adı ilə nəşr olunmuşdur. Kitabda Azərbaycan dilinin, ədəbiyyatının mənşəyi haqqında məlumat verilir. F.B.Köçərli Azərbaycan dilinin saflığı uğrunda fəal mübarizə aparmışdır. Azərbaycan uşaq ədəbiyyatının inkişafında da F.B.Köçərlinin xidmətləri diqqətəlayiqdir.

**1918-1920-ci illərdə** F.B.Köçərlinin şəxsi təşəbbüsü ilə, Zaqafqaziya Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi əsasında açılmış **Qazax Müəllimlər Seminariyasının** müdiri işləmişdir [31, 554].

F.B.Köçərli ədəbiyyatşünas, pedaqoq və publisist kimi Azərbaycan tarixində özünəməxsus layiqli yer tutur.

**XIX əsrdə Şuşada anadan olmuş və orada təhsil alan xeyli** şairlər vardı. Onlar **qəzəl janrında çoxlu qəzəllər yazmışlar**.

Şuşa **XVIII əsrin** ikinci yarısından başlayaraq müsiqi mərkəzinə çevrilmiş və Azərbaycan milli musiqisinin mərkəzi olmuşdur. Bu inkişaf **Qarabağ xanlığının xanı İbrahim xanın hakimiyyəti (1759-1806-cı illər)** dövründə özünün inkişaf mərhələsinə çatmışdır. İbrahim xan musiqi, muğam həvəskarı idi. Onun sarayında mahir musiqiçilər və xanəndələr toplaşmışdı. Onlar mili bayram olan - **Novruz bayramında, dini mərasimlərdə, əlamətdar günlərdə və qonaqlıqlarda çalıb-oxuyurdular**.

**Səttar bəy, Həsənçə, Yusif, Turkverdi Həsən, Mirzə Hüseyn, Əli Şirazi, Qaraçı Əsəd, Pərinaz oğlu Məhəmməd, Mirzə İsmayıl, Qaraçı Hacı bəy, Kosa Məhəmməd kimi xanəndə və çalğıçılar Şuşanın musiqi şöhrətini yüksəklərə qaldırırdılar** [36].

Bu ənənə sonrakı illərdə də davam etdirilmişdir. Yaxın və Orta Şərqdə məlahətli səsləri və sənətləri ilə məşhur olan – **Hacı Hüsü, Məşədi İsi, Məşədi Məhəmməd, Fərzəliyev, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdı oğlu, Seyid**

**Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Mütəllim Mütəllimov** Şuşada doğulub sənət zirvəsinə yüksəlmişlər.

**“Şuşalı musiqiçilər Azərbaycanın musiqi tarixini yaratmış, onu yalnız öz vətənlərində deyil, eyni zamanda da Şərqin başqa ölkələrində də təmsil etmişlər” [**32, 9].

**Azərbaycanın demək olar ki, bütün məşhur musiqiçi və müğənniləri Şuşanın yetirmələridir. Təsadüfi deyildir ki, Şuşanı musiqi və poeziyanın beşiyi adlandırırlar** [33].

**Hacı Hüsü Niftalı oğlu** Şuşanın Çölqala məhəlləsində papaqçı ailəsində anadan olmuşdur. O, ilk musiqi təhsilini **Xarrat Qulunun musiqi məktəbində almışdır** [34, 257].

**Yusif Vəzir Çəmənzəminli «Bir gəncin dəftəri»** əsərində yazırdı ki, **«Hacı Hüsünün müəllimlərindən biri də mənim atam, Şərq muğamlarını dərindən bilən Mirbaba Mirabdulla oğlu olmuşdur»** [35, 84].

Hacı Hüsü özünün muğam sənəti ilə müasirlərinin dərin hörmətini qazanmışdır. Hacı Hüsü Yaxın və Orta Şərqdə Rusiyada da məşhur idi. O, bu ölkələrdə təşkil olunan toy mərasimlərində iştirak edirdi.

**1880-cı ildə İran şahı Nəsrəddin şah Hacı Hüsünü oğlu şahzadə Müzəfərəddinin toy məclisinə dəvət etmiş və toydan sonra, birinci mükafat Hacı Hüsüyə verilmişdir. Toy məclisində xanəndəni məşhur tarzən Sadıqcan müşahidə etmişdir. Xarrat Qulunun** sənətini uğurla davam etdirən Hacı Hüsü, M.M.Nəvvabla birlikdə, **1883-cü ildə onun vəfatından sonra, Qarabağ xanəndələrindən ibarət «Musiqişünaslar məclisi» yaratdılar** [34, 119].

**Məşədi İsi də Xarrat Qulunun məktəbinin** yetirməsi idi. O, muğam sənətini mükəmməl mənimsəmişdi. Məşədi İsi Sadıqcanla birlikdə **Orta Asiyanın Aşqabad, Daşkənd, Səmərqənd şəhərlərində, respublikamızın bir çox şəhərlərində, İranda musiqi məclislərində iştirak etmişdir**.

**O, İranın mərkəzi Tehran şəhərində keçirilən muğam müsabiqəsində əldə etdiyi qələbəyə görə «Şiri Xurşid» ordeni ilə təltif olunmuşdur [34, 261].**

**Məşədi Məhəmməd Fərzəliyev də Şuşanın yetişdirdiyi mahir muğam ustası idi.** O, özünəməxsus xanəndəlik yolu getmiş, məlahətli səsi ilə dinləyicilərin dərin hörmətini qazanmışdır. Məşədi Məhəmməd 60 il Azərbaycanın milli muğam sənətində fəaliyyət göstərmişdir.

**1864-cü ildə Şuşada anadan olan Keçəçi oğlu Məhəmməd,** muğam sənətini Xarat Quludan və Məşədi İsidən öyrənmişdir. O, atasının sənətini özü üçün təxəllüs götürmüşdür. Keçəçi oğlu Məhəmmədin bir xanəndə kimi, musiqi mədəniyyətimizin inkişafı tarixində böyük xidməti vardır.

**Cabbar Qaryağdı oğlu (1861-1944-cü illər)** muğam ifaçılığı sahəsində şöhrət qazanan xanəndə idi. O, mürəkkəb muğamları məharətlə ifa edirdi. C.Qaryağdı oğlu yüksək səhnə mədəniyyətinə malik idi. Sənət dostları onun ifaçılıq sənətinə birmənalı olaraq yüksək qiymət verirdilər.

**Cabbar Qaryağdı oğlunun orijinal sənət yolu - məktəbi olmuşdur... O, xanəndəlikdən başqa mahir musiqişünas və tədqiqatçı** idi [34, 283].

Şuşanın muğam ifaçıları içərisində xüsusi yeri olan, **Mir Möhsün Ağa Seyid İbrahim oğlu Şuşinskinin** adı milli muğamlarımızın çoxsaylı dinləyicilərinə yaxşı məlumdur. Deyirlər ki, Cabbar Qaryağdı oğlu, Azərbaycan xalq musiqisinin düşünən beyni idisə, Seyid Şuşinski bu musiqinin çırpınan ürəyi idi.

Seyid Şuşinski bütün ömrü boyu **(1889-1965-ci illər)** vətəninə, xalqına sədaqətlə xidmət etmişdir.

Şuşa şəhərinin muğam dünyasına bəxş etdiyi nadir incilərdən biri də, əvəzolunmaz muğam ustası **Xan Şuşinski (1901-1979-cu illər)** idi. O, sözün əsl mənasında el məclis-lərinin, səhnəmizin yaraşığı və bəzəyi idi. Xan Şuşinski həyatın bütün sahələrində – **xanəndəlikdə, mədəniyyətdə, davranış və danışıqda da xan idi**. Biz şuşalılar onu görəndə, dərin mənalı söhbətlərini eşitdikdə valeh olurduq. Şəxsiyyət kimi, onda bütün gözəlliklər var idi. Oxuduğu muğamlar, xüsusilə də «**Qarabağ şikəstəsi**» dinləyicilərə xüsusi əhval-ruhiyyə bəxş edərdi.

Xan Şuşinski **40 il** öz xalqına mənəvi xidmət göstərmişdir. O, İlahinin yaratdığı qiymətli varlıq idi.

**Zülfü Adıgözəlov (1898-1963-cü illər)** Qarabağ muğam məktəbinin yetirmələrindən biri idi. O, **1936-cı ildən** ömrünün sonuna kimi Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. O, klassik muğamlarımızı özünəməxsus tərzdə ifa edirdi. Azərbaycanın muğam xadimləri onun sənətinə yüksək qiymət vermişlər.

Milli muğam ifaçılarımızdan biri də **Mütəllim Mütəllimovdur (1908-1980-cı illər)**. Onun məlahətli səsi insan qəlbini riqqətə gətirirdi. M.Mütəllimov muğamlarla yanaşı, təsnifləri də böyük məharətlə ifa edirdi. Seyid Şuşinski onun haqqında demişdir:

**«Mütəllim musiqini yaxşı qavrayır. Oxuduğu muğamlarda mürəkkəb gəzişmələr edir, çətin zəngulələr vurur, onun səsində insan qəlbinə təsir edən xoş ahənglər daha çoxdur» [**34, 371].

**Murtuza Məşədi Rza oğlu (təxəllüsü Bülbül) 1897-ci ildə Şuşada Çuxur məhəllədə anadan olmuş, 1961-ci ildə Bakıda dünyasını dəyişmişdir. Bülbül yüksək dövlət mükafatlarına layiq görülmüşdür.** O, Azərbaycan xalq mahnıları və təsniflərini yüksək səviyyədə ifa edirdi. Şuşa musiqi məktəbinin yetirməsi olan Bülbül, Şuşada təşkil olunan xalq məclislərində iştirak etməklə, özünə hörmət qazandırırdı. **1927-1931-ci illərdə Bülbül İtaliyanın Milan şəhərində musiqi təhsili almışdır. O, Azərbaycan Konservatoriyasını da qurtarmışdır. Bülbülün yaradıcılığının ən yüksək zirvəsi, dahi Üzeyir bəy Hacıbəylinin «Koroğlu» operasında Koroğlu surətidir. Bu surət indi də yaddaşlarda qalır.** O, musiqimizin, səhnəmizin əsl Koroğlusu idi, əvəzolunmaz Koroğlusu.

Azərbaycan **vokal sənətinin** inkişafında **Bülbülün** xidmətləri tükənməzdir [30, 376].

**Behdudov Rəşid Məcid oğlu 1915-ci ildə Tiflisdə anadan olmuş, 1989-cu ildə Moskvada xəstəxanada**

**dünyasını dəyişmişdir**. Rəşid Behbudov da yüksək dövlət mükafatlarına layiq görülmüş, Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş, Azərbaycan milli kinofilmlərində baş rollarda çəkilmişdir. O, Azərbaycan xalq mahnılarının və Azərbaycan bəstəkarlarının yazdıqları vokal əsərlərini məharətlə ifa etmişdir. Rəşid Behbudovun musiqi yaradıcılığı olduqca zəngin və yadda qalandır [30, 129].

**Fikrət Əmirov, Zülfuqar Hacıbəyli, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Süleyman Ələsgərov, Zakir Bağırov və başqaları Şuşa musiqi məktəbinin yetirmələri idilər**.

Dünyanın musiqi tarixində elə şəhərlər mövcuddur ki, musiqi onun hər bir daşına, dumanına, çiskininə, dağına, dərəsinə, meşəsinə, ormanlarına, buz bulaqlarına, nəğməkar quşlarına sirayət etmişdir.

**Bu şəhərlərin sayı çox deyil. Biri Avstriyanın paytaxtı VYANA, ikincisi İtaliyanın NEAPOL və üçüncüsü isə Günəşli Azərbaycanımızın qeyrət qalası olan ŞUŞA şəhəridir**.

Şəkililər öz şəhərlərini – **Şəkini** qayalardan asılan şəhər adlandırırlar. Biz şuşalılar isə **Şuşanı** səmadan asılan şəhər adlandırırıq. Bunların hər ikisi həqiqətən də belədir.

**Şuşa işğal olunanda rayonda 7 məktəbəqədər tərbiyə, 22 ümumtəhsil (onlardan biri ibtidai) müəssisəsi, orta texniki peşə məktəbi, 2 (orta və yeddi illik) musiqi məktəbi, mədəni –maarif məktəbi, kənd təsərrüfatı texnikumu, 6 mədəniyyət evi, 12 klub, 20 kitabxana, 20 kino qurğusu var idi**.

Əlverişli iqlimə malik olan Şuşada **2 xəstəxana müəssisəsi, 11 feldşer –mama məntəqəsi, sanatoriya, istirahət evləri fəaliyyət göstərirdi**.

Şuşa rayonunun iqtisadiyyatında heyvandarlıq əsas yer tutur. Şəhərin özündə **musiqi alətləri fabriki, istehsal kombinatı, çörəkbişirmə müəssisəsi, Bakı radioqayırma müəssisəsi birliyinin filialı da** şəhərin iqtisadi həyatında əhəmiyyətli yer

tuturdu.

**XX əsrin 70 və 80-ci illərində Şuşa təhsilinin yüksəliş illəri idi. Mirzə Xosrov Axundovun, Ağa Kazımovun, Keymah Bəhmənovun, Keykavuz Bəhmənovun, Mərdan Əliyevin, Tofiq Əliyevin, Rüstəm Zeynalovun, Həbib Allahverdiyevin, Tovuz Abbasovanın, Diliş Mehdiyevanın, Zəhra Məmmədovanın, Yaqub Quliyevin və başqalarının pedaqoji ənənələrini layiqincə davam etdirən gənc müəllimlər ordusu formalaşmışdır**.

Öz üzərində daim çalışan, elmi, siyasi, pedaqoji bilik səviyyələrini təkmilləşdirən, valideynlərin və dərs dedikləri şagirdlərin dərin hörmətini qazanan - **filologiya üzrə fəlsəfə doktoru Namiq Babayev, Tariyel Kazımov, Saleh Heydərov, Rəfayıl Məmmədov, Fərazəndə Əşrəfova, Tamella Kazımova, Maya Əliyeva, Tamella Hüseynova, Məlahət Babayeva, Aidə Zeynalova, İslam Əhmədov, Zahid Cəfərov və başqaları təlim-tərbiyə sahəsində olduqca böyük dəyərlər qazanmışdılar**.

**1991-1992-ci tədris illərinə qədər Şuşa məktəblərini xeyli saylı şagird qızıl və gümüş medallarla qurtarırdılar. Onlar respublikamızın ali məktəblərinin istənilən fakültələrinə qəbul olunurdular.** Onu da deyim ki, **orta məktəblərin X siniflərini qızıl və gümüş medallarla qurtaran şagirdlərin böyük əksəriyyəti, şəhər 4 saylı məktəbin payına düşürdü**. Bu məktəbdə zəngin fənn kabinetləri də var idi.

Erməni faşistləri Şuşanı işğal etdikdən sonra, şəhərdə olan idarə və müəssisələr kimi, şəhərdə və kəndlərdə olan bütün təhsil müəssisələrini də vəhşicəsinə qarət və talan etmişlər. Bu vəhşilik, onların vəhşi təbiətindədir. Bunun bir sıra səbəbləri var.

**Birinci səbəb. Xarici ölkələrdə güclü erməni diasporunun olmasıdır**. Mən ona görə erməni diasporunu güclü adlandırıram ki, erməni ünsürlərinin tarixən **torpağı olmamışdır**. Ona görə də bu ünsür başqa xalqların hesabına sərvət toplamağa məcbur olmuşdur. Onlar torpağı və vətəni

oğurluq yolu ilə topladığı sərvətdə görürlər.

**İkinci səbəb.** Erməni ünsürünün folkloru yoxdur. **Saylar, bayatılar, dastanlar, çoxsaylı bahar, məişət və zəhmətlə əlaqədar olan mərasimlər və əfsanələr** erməni üçün olduqca yad və qəbuledilməzdir. Bütün bunlar sübut edir ki, erməni tarix boyu başqa xalqların yaratdığı mənəvi sərvətləri oğurlamaq yolunu tutmuş və onları özününküləşdirmək istəmişdir. Lakin buna nail ola bilməmişlər. Əgər erməni ünsürünün folkloru olsaydı uydurma və tarixdə heç bir iz qoymayan **«Dənizdən-dənizə Böyük Ermənistan»** barədə orada, heç olmazsa bir fikir söylənərdi.

**Üçüncü səbəb.** Erməni ünsürləri həmişə başqa xalqlara qarşı həsəd aparmış və onlara paxıllıq etmişlər. **Paxıllıq isə sağalmaz xəstəlikdir**. Bu xəstəlik erməni ünsürünün **iliyindədir**. Onu sağaltmaq mümkün deyildir. Ermənilər tülküdən də bicdirlər. Tülkünün qurduğu kələkdən baş açmaq mümkün olmadığı kimi, ermənininin də kələyindən dünya xalqları hələ də baş aça bilmir…

***

**Mən ömrümün 56 ilini doğma Şuşada keçirmişəm**. Boya, başa bu şəhərdə çatmışam. Həyatımda əldə etdiyim bütün uğurlar **ŞUŞANIN adı ilə bağlıdır**. Mənim mənsub olduğum şəcərə Qarabağ xanlığının tarixi ilə bağlıdır. Mənim ata-baba nəslim **Şuşada Daşçılar adı ilə məşhurdur. Şəhərin hasar və bürclərinin, küçələrin daş döşəmələrində, Rastabazarların, bazar və karvansarayların və digər tikintilərdə onların əməyi xüsusilə böyükdür.** Bunlar yaşlı şuşalıların xatirəsində dərin iz qoymuşlar. Mən, bununla fəxr edirəm.

Evimiz **Çuxur məhəllədə yerləşir. Geniş və yaraşıqlı həyətimiz var idi. Həyətimizdə tut, alma, armud, alça, gavalı, heyva, gilənar** və müxtəlif bəzək ağacları var idi.

Ailədə **doqquz uşaq olmuşuq, altı qardaş və üç bacı**. Hamımız zəhmətlə boya-başa çatmışıq. **Altımız ali təhsilli, ikisi orta ixtisas və bir nəfəri isə orta təhsillidir.**

**Atam Hüseynov Rza Əşrəf oğlu və anam Hüseynova**

**Əziz Məhəmməd qızı bizim** bütün qayğılarımızı çəkmiş, sağlam, ədəbli, yüksək əxlaqi keyfiyyətlərə yiyələnməyimizə həmişə ciddi fikir verərdilər. Bunun dəyərli nəticələri bizi xoşbəxt həyata qovuşdurmuşdur.

Şuşa, onun təbii gözəlliyi, mehriban və qayğıkeş insanları mənim yadımdan çıxmaz.

Orta məktəbdə və ali məktəbdə oxuduğum illər, xatirimdə dərin iz buraxmışdı. Boş vaxtlarımı çox sevdiyim yerlərdə - **Məhəmmədhəsən ağanın imarətinin** divarları qarşısında yerləşən, hündür və təbii qaya olan **Leyli Qayasının üstündə, Qırxpilləkan ərazisində, Cıdır düzündə, İbrahim xanın kəmənd imarətində, Əli kahasında və başqa tarixi yerlərdə keçirərdim**.

Ən çox sevdiyim istirahət yeri **Leyli qayası idi. Günortadan sonra, Şuşanın** səmasını öz ağuşuna alan **qara və ağ buludları yarıb açıq** səmaya çıxan dağ qartallarının çıxardığı əzəmətli səslər mənə xüsusi ilham verərdi. **Hüseyn Arif demişkən:**

**«Yarıb buludları dinəndə qartal,**
**Bu səsə bərabər bir səs harda var».**

Şuşanın təbii gözəlliyini heç bir bədii sözlə təsvir etmək qeyri-mümkündür. Şəhərin üzərində ağ və qara buludlardan ibarət, elə mənzərə həkk olunurdu ki, heç bir rəssam fırçası bu mənzərəni yarada bilməzdi. Şuşanın özündə və onun ətraf ərazilərini qarış-qarış gəzmişəm. **Topxana və Çaxmaq meşələri, Böyük və Kiçik Kurs dağlarını gəzib dolaşmışam. 1938-ci ildə alpinistlər V.İ.Leninin büstünü Böyük Kirs dağının zirvəsində, qayanı oyaraq, orada yerləşdirmişlər**.

Şuşa ətrafında yerləşən meşələrdə **zoğal, cır armud, alma, böyürtkən, göcə, fıstıq və başqa qiymətli ağaclar var idi**. Meşələrimiz heyvanlar aləmi ilə də zəngin idi. Zəngin meşələrin və çoxlu dağların olması, təbii yem ehtiyatlarının bolluğu burada heyvan və quşların yaşamasına hərtərəfli şərait yaradır. Meşədə və dağlarda Qafqaz **maralının, sığının,**

**cüyürün, dağkeçisinin, ayının, canavarın, vəhşi qabanın, çaqqalın, tülkünün, dovşanın** yaşamasına əlverişli şərait yaradır. Bunlardan əlavə Şuşa ərazisində **kəklik, bülbül, bildirçin, dağlarda isə dağ qartalı, qızılquş da yaşayırdı**. Bir sözlə Şuşanın flora və faunası olduqca müxtəlif və zəngin idi.

Şuşanın hər daşı bir tarix idi. Təbiət sanki bu müqəddəs şəhərə ana laylası oxuyurdu. Təbii ponarama olan Şuşa, özü kimi mərd, cəsur insanlar məskəni idi. Şəhərin sakinləri mehriban və qonaqpərvər idi.

Milli bayramımız xüsusilə əzəmətli və yaddaqalan idi. Bahar mərasimləri yüksək səviyyədə keçirilərdi. Şuşalılar bu mərasimə ilin son çərşənbəsinə **40 gün** qalmış hazırlıq görməyə başlayardılar.

Şuşanın bütün məhəllələrində, həyət və evlərdə təmizlik işləri aparılır və bu işdə sakinlər bir-birinə köməklik göstərirdilər. Novruz bayramı milli vətəndaşlıq hüququ aldıqdan sonra, şuşalılar bu sahədə qədim ənənələri yüksək səviyyədə icra edirdilər.

Şuşada Novruz mərasimləri **«kosa-kosa»** adı ilə başlayırdı. Hər bir məhəllədə bu mərasimi yüksək səviyyədə bilən, insanları özünə cəlb edən cavanlar icra edirdilər. **Keçəl** və **Kosa** rolunda da məharətli cavanlar çıxış edirdilər. Onların hər ikisi oynadıqları rollara uyğun geyimlər geyərdilər. Keçəl və Kosa məhəllələri gəzir, uşaqlarla əylənir və onlara bayram hədiyyələri verirdilər.

**Novruzun** əsas atributlarından biri və əsası **«Səməni»** göyərtmək idi. Şuşalılar səməniyə **dərdlərə əlac edən məlhəm kimi baxırdılar**. Şuşanın bütün evlərində səməni göyərdilirdi. Bayram axşamı **qapıpusma da xüsusi yer tuturdu**. Ona görə də həmin axşam, hər bir ailə xoş sözlər danışır, qapıpusmaya gələni xoş əhval-ruhiyyə ilə geri qayıtmasına şərait yaradırdılar.

**Şuşanın hər məhəlləsində Novruz tonqalı** xüsusi yer tuturdu. Tonqallar üçün təbii bitkilərin qurumuş qalıqlarından, xüsusilə qanqallardan istifadə olunardı. Məhəllə cavanları bu sahədə yarışa girərdilər. Tonqallar yandıqca adama elə gəlirdi ki,

onların üzərinə **barıt tökülmüşdü**. Bu mərasimdə başqa məhəllələrin nümayəndələri də iştirak edərdilər.

Daha qədim dövrlərlə səsləşən, tonqal üzərindən tullanmaq da şən əhval-ruhiyyə yaradırdı.

Məhəllə uşaqları **torba** atmaq üçün evləri əvvəlcədən müəyyən edərdilər. Şər işləri olan evlərə torba atmazdılar. Yaxın adamları və qonşular onlara bayram sovqatı aparardılar. Onlara mənəvi dayaq olardılar.

**Novruz axşamı «İsak-Musak»**, yəni el arasında deyildiyi kimi **Gecəquşunun** oxuması insanlara, xüsusi ovqat bəxş edirdi. **Ustad Seyid Məhəmmədhüseyn Şəhriyarın dediyi kimi**:

**Bayram idi, gecəquşu oxurdu,**
**Adaxlı qız bəy corabın toxurdu,**
**Hər kəs torbasın bir "qapıdan" salırdı,**
**Ay nə gözəl qaydadı torba atmaq,**
**Bəy torbasına bayramlığı bağlamaq.**

**Torba istədim mən də evdə ağladım,**
**Bir torba alıb tez belimə bağladım,**
**Qulamgilə qaşdım, torba salladım,**
**Fatma xala mənə corab bağladı,**
**Xan nənəmi yada salıb ağladı.**

Bayramda yumurta boyamaq, yumurta döyüşdürmək də adət idi. Bu işlə məşğul olanlar, yumurtaların möhkəmliyinə xüsusi fikir verərdilər. Sağlam toyuqların yumurtalarının əldə olunması dəb idi.

Bayram axşamı ailə üzvləri mütləq bir yerdə olmalı və bayram süfrəsinin ətrafında əyləşməli idilər. İl təzələnəndə, səhər tezdən təmiz axar su başında uşaqların çilləsi kəsilərdi. Uşaqların sol və sağ əllərinin baş barmaqlarını qırmızı iplə bir-birinə bağlayırdı. Çillə kəsən yaşlı qadın dua oxuyar, sonra ipləri kəsər, uşaqlara su içirdər və onlara xeyir-dua verərdi. Çillə

kəsilən çeşmələr təmiz və saf sulu idi.

Qonşular çalışırdılar ki, hamının Novruz süfrəsi zəngin və bol olsun.

Şuşada bayram günləri olduqca şən və təmtəraqlı keçərdi. Mənim Şuşa günlərim belə idi. Mən dağam, dumanlı zirvəyəm, Şuşadır Vətənim, çünki şərəfdir, şöhrətdir zirvə dağ üçün. Şuşa mənim son yuvam, son binəmdir. Ömrümün son çağlarında əyilərəm ona, əyilər torpağa gün batmaq üçün.

**ŞUŞA!** Bu ad nə qədər əziz, doğma, munis və sevimli bir ad, nə qədər dilnəvaz və mehriban bir ana – **VƏTƏNDİR**. Şuşa o qədər gözəl bir məkandır ki, onun adı qarşısında diz çökərək xakipayini hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan, candan, maldan, həyatdan və sairədən keçmək, al-qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır [9, 311].

# ƏDƏBİYYAT


1. Əhməd bəy Cavanşir.Qarabağ xanlığının 1747-1805-ci illər siyasi vəziyyətinə dair. Qarabağnamələr. I kitab. Bakı., 1989.
2. M.H.Həkimov. Xalqımızın deyimləri və duyumları. Bakı., 1988, 384 s.
3. Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr. I kitab. Bakı., 1989.
4. Mirzə Camal bəy Cavanşir Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. Bakı., 1989.
5. Yaqub Mahmudov. Kərim Şükürov. Qarabağ. Real tarix. Faktlar. Sənədlər. Bakı., 2009, 144 s.
6. Jan Kevr. Xacə şah. (Tarixi roman). II kitab, B.1994, 220 s.
7. Mirzə Yusif Qarabaği. Tarixi-Safi. Qarabağnamələr. II kitab. Bakı. 1991.
8. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Qarabağnamələr. II kitab. Bakı., 1991.
9. Həsən İxfa Əlizadə. Şuşa şəhərin tarixi. Qarabağnamələr. II kitab, Bakı., 1991.
10. Həsənəli Qaradaği. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət övzaları. Qarabağnamlər. II kitab, Bakı., 1991.
11. M.İ.Mustafayev. Qarabağ xanlığının iqtisadiyyatı. Berlin, 1949.
12. Qarabağnamələr. I kitvab, Bakı., 1989
13. Y.Mahmudov., C.Mustafayev. Şuşa-Pənahabad. Bakı., 2012, 152 s.
14. M.Baharlı. Əhvalati-Qarabağ. Qarabağnamələr. II kitab. Bakı., 1991.
15. Əminə Pakrəvan. Abbas Mirzə və Azərbaycan. Bakı., 2010.
16. F.M.Əliyev Şimali Azərbaycan şəhərləri. Bakı., 1960.
17. AKAK. T.V, II c., Tiflis, 1875.
18. Y.R.Hüseynov. Qarabağ tarixi mənbələrdə. Bakı., 2012.
19. Н.Н.Шавров. Новая угроза русскому делу в Закавзазье.

Баку., 1990.
20. ASE. X c., 1987.
21. Ə.A.Ağayev. 150 yaşlı Şuşa məktəbi. B., 1982.
22. Y.R.Hüseynov. Şuşa Azərbaycan mədəniyyətinin mərkəzidir. Şuşa qəzeti, 15 dekabr, №23, 2010.
23. F.B.Köçərli. Azərbaycan ədəbiyyatı. II clddə. I cild, Bakı., 1978.
24. ASE. II c., Bakı, 1978.
25. ASE. IV c. Bakı, 1980.
26. Y.R.Hüseynov. Qarabağ xanının yeganə övladı. Şuşa qəzeti, 15 iyun, №11, 2012-ci il.
27. ASE, I c., Bakı, 1976.
28. ASE. VII c., Bakı., 1983.
29. ASE. V c., Bakı., 1981.
30. В.Виноградов. Узеир Гаджибеков и Азербайджанская музыка. М., 1938.
31. S.Vurğun. Xurşudbanu Natəvan. «Pravda» qəzeti, 1940, 23 may.
32. F.M.Şuşinski. Şuşa kitabı, Bakı., Gənclik. 1998, 428 s.
33. Y.V.Çəmənzəminli. Bir gəncin dəftəri. Əsərləri, üç clddə, III c., Bakı., 2005.
34. V.X.Quliyev. İbrahimxəlil xan Cavanşir. «Şuşa» qəzeti, 30 aprel, №8, 2012.

**Yunis HÜSEYNOV,**
**tarix üzrə fəlsəfə doktoru**

# TƏVAZÖKARLIQ VƏ BİLİK

(«Qabusnamə»nin altıncı fəslinin motivləri əsasında işlənilmişdir)

**Belə bir el məsəli var: «Ləyaqət əql və ədəbdədir, əsil-nəsəbdə deyil». Böyüklük və ucalıq mərifət və bilikdədir, haralı və kimlərdən olmaqda deyil. Biliyi və kamil sənəti olmayan adamlar gövdəli olarlar, kölgəli olmazlar. Belələri nə başqalarına, nə də özlərinə xeyir verməzlər. Çox haqlı olaraq onları Ərəbistan çöllərində bitən tikanlı bitki kollarına bənzədirlər.**

Həyatda ən şərəfli və uca ad ona deyirlər ki, onu öz əməlin və istedadınla qazanasan, şöhrət tapıb, şaxələnəsən. Onda el arasında insanın hörməti və nüfuzu özünün həqiqi qiymətini və dəyərini tapar.

İnsan ləyaqətinin ən yüksək dəyəri sözdür. İnsan Yer üzünün əşrəfidir. İnsan bütün canlıların şərəflisidir. Məhz ona görə insan bir çox xüsusiyyətlərinə görə digər canlılardan fərqlənir. Həmin xüsusiyyətlər təfəkkür, hafizə, təxəyyül, təsəvvür və danışıqdır. Bu beş daxili xüsusiyyətlə yanaşı, beş xarici xüsusiyyəti - eşitmə, görmə, qoxubilmə, toxunma və dadbilmə xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Bütün bu xüsusiyyətlərə malik olan insan onu əhatə edən aləm üzərində özünün hökmranlığını təmin edə bilmişdir.

Hər bir adam dilini gözəl danışığa və yaxşı şeylər söyləməyə öyrətməlidir. Ona görə ki, dilə nə öyrətmisən, nəyə adət etdirmisənsə, həmişə onu da deyəcək. **«Söz ağlın çeşməsidir», «Söz insanın görən gözü, vuran əli, döyünən ürəyidir», «Sözü müdrik olanın özü də müdrik olar», «Sözü demək asandır, arxasında durmaq çətin» və sair kəlamlar tarixin sınaqlarından keçərək günümüzə gəlib-çıxmışdır.**

**Deməli, söz sirlər xəzinəsinin açarıdır. Ulu babalarımız bütün dövrlərdə yaşayış tərzləri, inam və etiqadları, hünər və qeyrətləri, alp-ərlikləri, yadelli düşmənlərə qənim kəsilmələri, sözün işləmək məqamında gah hədəfə dartılmış ox-yay, gah sivrilmiş kəsərli Misri qılınc, gah qalxan, gah nizami ordunu döyüşə səsləyən zəfər himni, gah da qədirbilən nəsillərin yaddaşına nəsihətlər vasitəsilə həkk etdirmişlər.**

**Söz mənalı və yığcam olmalıdır. Müdriklərimiz çox gözəl demişlər: «Çox danışmaq gümüşdürsə, az danışmaq qızıldır», «Az danış ki, sözünün qədri bilinsin».**

**Böyük Nizami deyir:**
**Az sözün inci tək mənası solmaz,**
**Çox sözün kərpic tək qiyməti olmaz.**

**Xalq arasında da sözün təsiri haqqında olduqca tutarlı duyumlar daha çoxdur. Məsələn, «Yersiz söz baş ağrıdar», «Dilini işə salmazdan əvvəl başını işə sal», «Dil başa bəladır», «Söz yıxmayan evi fələk də yıxmaz», «Söz ağlın cövhəridir» və sair atalar sözünün qabağında nə demək olar? Sözün böyüklüyü onun yerli-yerində deyilməsidir, sözü ağızdan çiy çıxarmazlar, haqq söz heç vaxt ləkə götürməz, cavan gözlə, qoca sözlə tanınar. Yalan haqq və ədalətə düşmən, yaltaqlıq və qorxaqlıq əlamətidir. Bunlar sözün dəyərini aşağı salır, adamı cılızlaşdırır.**

**Füzuli də Nizami kimi sözə yüksək qiymət verir. O yazır:**
**Sözdür gühəri-xəzaneyi dil,**
**İzharı sifati-zatə qabil.**
**Can sözdür əgər bilirsə insan,**
**Sözdür ki, deyirlər özgədir can.**

**Sözün dəyərlərindən biri də onun ictimai xarakter daşımasıdır. Sözün qədir-qiyməti Azərbaycan yazıçılarının, şairlərinin yaradıcılığında, xalqımızın əsatirlərində, əfsanə-**

**lərində, bayatılarında, nağıllarında, lətifələrində, dastanlarında, atalar sözlərində və məsəllərində özünün dəyərini tapmışdır. Bütün bunlar xalqımızın mənəvi süfrəsidir. Yuxarıda deyilənlər haqqında məqalədə ətraflı söhbət açmaq, onların mənəvi dərinliklərinə varmaq imkan xaricindədir. Həmin problemlərin hamısı ayrı-ayrı əsərlərə möhtacdır.**

**«Qabusnamə»də deyilir ki, «Dili xoş olanın havadarı çox olar». Əsərin qəhrəmanı oğluna nəsihət edir ki, nə sənətin sahibi olursan ol, ancaq sözü yerində de, yerində deyilməyən söz heç bir xeyir verməz. Camaat arasında heç kəsə nəsihət etmə, ona görə ki, belə hərəkət məzəmmətə bərabərdir.**

**Təvazökarlıq insanın bəzəyi və ləyaqətidir. Təvazökarlıq sadəlikdir, belə adamlar lovğalıqdan, təkəbbürlükdən, özü haqqında cılız, mənasız, insana yaraşmayan ləyaqətsizlikdən uzaq olanlardır. İctimaiyyət içərisində, rəsmi yerlərdə, mənasız və qeyri-humanist fikirlər söyləmək, həm «şəxs»in özünə, həm də milli sərvətimiz olan sözə xələl gətirir. Belə addımlar ictimai qınaqdan kənarda qaldıqlarına görə öz hərəkət və davranışlarını bir qədər də artırırlar. Respublikamızda demokratiyanın və söz azadlığının bərqərar olmasından heç kəs sui-istifadə etməməlidir, buna hər hansı bir ünsürün də hüququ yoxdur.**

**Keykavus oğlu Gilanşaha məsləhət görür ki, bilmədiklərini öyrənməyə çalış, bildiklərinlə öyünmə. Bunların sənə hər zaman xeyri dəyər. Xoşxasiyyət ol. Ata oğula deyir: Sokrat demişdir: «Bilikdən daha zəngin xəzinə, pis xasiyyətdən daha rəzil düşmən ola bilməz, bilikdən daha böyük izzət, həyatdan daha qəşəng zinət ola bilməz».** Göründüyü kimi, ata oğula biliyə yiyələnməyin yollarını məsləhət görür, hər an yeni biliklərə yiyələnməyi vacib sayır. Hətta biliyi nadanlardan da öyrənməyi mümkün sayır.

**Makedoniyalı İsgəndərin kəlamını ata oğluna misal**

**gətirir: «Mən xeyri yalnız dostlardan deyil, düşmənlərdən də götürürəm. Məndən kiçik bir xəta baş verdikdə dostlar dostluq xatirinə onu ört-basdır edirlər ki, mən bilməyim, düşmənlər isə əksinə, düşmənçilik üzündən açıb deyirlər, mən də ondan xəbərdar olub, həmin pis işi bir daha təkrar etmirəm. Deməli, mən bu xeyri dostdan yox, düşməndən görürəm...»**

Elm və bilik öyrənmək hamıya vacibdir. Elmli və kamil sənətə malik olan hər kəs bununla öyünməməlidir. El arasında belə hal yaxşı qarşılanmaz. Ağac çox bar gətirdikdə başını aşağı əyər. Bu isə ucalıqdır.

İnsanın yüksək əxlaqi keyfiyyətlərindən biri də onun həyalı olmasıdır. Bu isə imandan doğur. Nadan adamla oturub-durmaq sənin də nadanlığına işarədir. Müdrik, xeyirxah adamlarla əlaqə saxla, onlardan ən yaxşı işləri öyrənməkdən həzz al. Atanın oğluna arzu etdiyi bunlar idi. Ata deyir: **«Oğul, cəhd et ki, səni xalq tərifləsin, cahillər tərifləməsinlər». Həyalı və ləyaqətli o kəslərdir ki, hər yerdə özlərini ləyaqətlə aparır, yersiz hərəkətlərə yol vermirlər.**

**Ata oğluna belə bir hekayət danışır: «Qədim yunan filosofu Əflatun şəhərin (Afinanın) adlı-sanlı adamları ilə bir yerdə oturub, söhbət edir... Bir nəfər ona yaxınlaşaraq deyir: «Ey filosof, bu gün bir nəfər səni tərifləyərək deyirdi: «Əflatun (Platon) çox böyük filosofdur, indiyə kimi onun kimisi nə olub, nə də olacaq». «Filosof bu sözü eşidən kimi başını aşağı salıb, ağlamağa başlayır». Bunu görən həmin adam deyir: «Ey filosof, mən sənə nə ağır bir söz dedim ki, halın belə pozuldu?» Filosof Əflatun deyir: «Ey xacə, şəxsən sən mənə elə ağır bir söz demədin, lakin bundan daha ağır müsibət olarmı ki, nadanın biri məni tərifləsin, mənim gördüyüm iş ona xoş gəlsin? Bilsəydim nə nadanlıq etmişəm ki, onun təbiətinə yaxın olmuş, xoşuna gəlmiş və məni tərifləmişdir, tövbə edib, o işdən əl çəkərdim. Halımın pozulması ondadır ki, mən hələ də nadanam, çünki nadanların təriflədikləri adamlar yalnız nadanlar olar».**

**Bilik elmli olmaq deməkdir. Bunu isə oxumaqla, təcrübə ilə əldə etmək olar. Bilik ən böyük sərvət mənbəyidir. Buna sahib olanlar dünyanın ən xoşbəxt insanlarıdır. Ən kamil, mənəviyyatlı insan odur ki, bilmədiklərini dərk edə bilsin.**

**Mənəvi kamilliyə yiyələnən insan sözgəzdirən, sözgüləşdirən olmaz, buna divanəlik deyirlər. Deyirlər ki, sənin haqqında pis danışanı bu xəbəri sənə gətirəndən tez bağışla. Ona görə ki, sən bilməlisən ki, xəbər gətirən sənin haqqında ona nə deyibsə, o da səni pisləyib.**

Kamil adam həyatdan dərs almağı bacarmalıdır. Bu qəbildən olanlar başqalarının qədrini bilir, başqaları da onun qədrini bilir. İstedadı olmayandan sənə dost ola bilməz, belələri söz gəzdirən, ara vuran olar.

Çox təəssüflər olsun ki, həyatda hələ də mənəvi cəhətdən şikəst olanlarla qarşılaşırıq. Belələri nəinki başqalarının, hətta özlərinin də qədrini bilmirlər. Onlar cəmiyyətin tör-töküntülü ünsürləridir. Qoy onlar arxaya baxıb, xəcalət təri töksünlər.

O adam həyatda xoşbəxtdir ki, elinin, obasının qədrini bilir, bütün varlığı ilə vətəninə, xalqına bağlıdır. Bacardığı qədər onlara xidmət edir. Belə insanlar ürəklərdə özünə əbədi yurd salır və sevilir.

**Təvazökar və bilikli insanlar böyük bağın meyvəsidir, insanın qiyməti onun faydalı əməyi ilə ölçülür. Bu, unudulmamalıdır.**

**Yunis HÜSEYNOV,**
**tarix üzrə fəlsəfə doktoru**

## QARABAĞIN KEÇMİŞİNƏ SƏYAHƏT

Qarabağın tarixi qədim dövrlərlə sıx bağlıdır. Kür və Araz çaylan arası ərazilər tarixi inkişafın ən qədim məskənlərindən biridir. Azərbaycanın əlverişli təbii şəraiti ən qədim dövrlərdən insanın burda məskunlaşmasına hərtərəfli şərait yaratmışdı. Dünya arxeoloji abidələri içərisində özünəməxsus yer tutan **Azıx** mağarası nadir insan məskənidir. Mağaranın mədəni təbəqəsi sübut edir ki, Qarabağ ərazisində ibtidai insanlar 1,5-2 milyon il bundan əvvəl yaşamışlar. Maddi-mədəni əşyalarsa təsdiqləyir ki, Azərbaycanda həyat on minlərlə nəsil qədər qədimləşmişdir. Saysız-hesabsız daş məmulatı və istehsal tullantıları burda əmək alətlərinin hazırlandığını göstərir. Azıxantrop ovçuluq və yığıcılıqla məşğul olmuşdur. Mağarada olan 10 mədəni təbəqə inkişafın mərhələli dövrlərini ardıcıllıqla əvəz edir.

Azıx mağarasında ibtidai insanın alt çənə sümüyünün bir hissəsinin tapılması onun 18-22 yaşlı oğlan olmasını sübut edir. Qədim insan qalıqları içərisində Azıx adamı (azıxantrop) xüsusi yer tutur. Azıxantrop ibtidai incəsənətə, tikinti vərdişlərinə də malik olmuşdur. Paleolit dövrünün ən mühüm tapıntıları Azıx mağarasında olduqca çoxdur.

Mustye dövrü mədəniyyəti Azıx və Tağlar mağaralarında nisbətən daha yaxşı saxlanılmışdır. Tağlar və Şuşa mağaraları mustye dövrünə aid əşyalarla zəngindir.

Qarabağda Neolit, Tunc, Dəmir dövrlərinə aid də çoxlu maddi əşyalar əldə edilmişdir. Burda xeyli miqdarda kurqan da var. Xocalı qəbiristanlığı Tunc və Dəmir dövrlərinə aid arxeoloji abidə kimi qədim dövrün nadir əşyalarını özündə birləşdirir. Burda daş qutular və kurqanlardan əlavə, müxtəlif tipli saxsı qablar, qılınc, xəncər, nizə, ox ucları, balta-təbərzin, qızıl, tunc bilərziklik, balıqqulağı, əqiq, şüşə, pasta, tuncdan

hazırlanmış əmək alətləri, at əsləhətləri və sair aşkar olunmuşdur. 11 nömrəli kurqandan tapılan muncuğun üzərində Assuriya çarı Adadniraninin adı həkk olunmuşdur. Bunu akademik İ.İ.Meşşaninov oxumuşdur. Bu yazı Qarabağın deyil, bütün Azərbaycanın siyasi tarixinin öyrənilməsində olduqca böyük dəyərə malikdir.

Ağdam yaxınlığındakı Üzərliktəpə orta tunc dövrünə aid maddi abidələrdən biridir. Burda abadlıq işləri aparılarkən təpə-abidə dağıdılmışdır. Həmin dağılan ərazidə üç-dörd min il bundan əvvələ aid xeyli maddi-mədəniyyət qalıqları aşkar olunmuşdur. Aparılan arxeoloji qazıntılar zamanı çoxlu əmək alətləri, məişət əşyaları, təsərrüfat quyuları tapılmışdır. Bu yaşayış məntəqəsində əhalinin əkinçilik, maldarlıqla məşğul olmaları da müəyyən olunmuşdur. Üzərliktəpədə yaşayış arasıkəsilmədən təxminən iki min il davam etmişdir.

Tariximizin qədim dövrünün müəyyən hissəsini özündə əks etdirən yaşayış məskənlərindən biri də Xındırıstan kəndi yaxınlığındakı Rəsultəpədir. Arxeoloji qazıntılar zamanı müxtəlif dövrlərə aid təsərrüfat küpləri, bardaq,  bəmi, xeyrə, cam və digər əşyalar tapılmışdır.

Respublikamızda genotaflardan ibarət qəbiristanlıq Xocavənd bölgəsinin Ağoğlan məbədinin ərazisindədir. Ağoğlan məbədinin ətrafında hələ eramızdan əvvəl kahinlər yaşamışlar. Burda böyük təsərrüfat sahələri kahinlərə məxsus olmuş və qul əməyindən də istifadə olunmuşdur.

Bütün bunlar bir daha sübut edir ki, həmin dövrlərdə Qarabağda erməni olmamışdır. Burda tarixi səhifələmədən antik və orta əsr mənbələrindən Ermənistan haqqında qısaca söhbət açmaq istərdim.

"Ermənistan" coğrafi adı antik və orta əsr mənbələrində Fərat və Dəclə çaylarının yuxan axarlarını əhatə edən ərazilərə aid edilirdi. Müxtəlif miqrasiyalar, xüsusilə, XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində ermənilər Cənubi Qafqazda yayılmağa başlamışlar. 1918-ci ilin may ayında ermənipərəst qüvvələrin fəal köməyi

ilə Azərbaycanın qərb ərazisində Ermənistan dövləti yaradıldı. Bu isə tarixi ədalətsizlik və cinayət idi.

Məlum olduğu kimi, Qarabağ antik dövrdə və erkən orta əsrlərdə qədim Azərbaycan dövləti Albaniyanın ayrılmaz tərkib hissəsi olmuşdur. Qədim tarixi mənbələrdə göstərilir ki, Qarabağ Albaniyanın Uti və Arsax vilayətlərinin ərazilərini təşkil edirdi. Sonralar, yəni, ərəb işğalı zamanı, düzənliklərdə yerləşən Uti, Aran, Arsax birlikdə Aqvan adlandırılmışdı. Albaniya dövlətinin Kür çayının cənubunda yerləşən ərazisi dörd iri vilayətə Arsax, Uti, Paytakaran və Sünik vilayətlərinə bölünürdü. Qeyd olunan bu vilayətlər haqqında bir qədər ətraflı məlumat verilməsi məqsədəuyğun olar.

**Arsax türkmənşəli sözüdür. "Dünyanın qərb hissəsi" deməkdir**. Bu məfhum erməni mənşəli deyil və ola da bilməz. Bu, uydurmadır və heç bir elmi əsası yoxdur. Həmin dövrdə və XIX əsrin əvvəllərinə kimi burda bir nəfər də olsun, erməni yaşamamışdır. Qarabağın dağlıq və Mil düzünün bir hissəsini əhatə edir, 12 kiçik inzibati vahidə bölünürdü. **Yerli əhalisi – qarqarlar, utilər, xəzərlər, barsilər, hardmanlar, savdeylər idi.** Arsax I-IV əsrlərdə alban arşakilərinə, VI-VIII əsrlərdə isə mehranilərə tabe olmuş, Albaniyanın ictimai və siyasi həyatında mühüm rol oynamış, 705-ci ildən ərəb xilafətinin tərkibinə daxil edilmişdi.

Paytakaran Mil və Muğan düzlərinin cənubundan başlayaraq Xəzər dənizinə qədər uzanan ərazini əhatə edirdi.

Sünik Albaniyanın cənub-qərb hissəsində, Arsaxdan cənub-qərbdə yerləşirdi. Onun ərazisinə Zəngəzur və ondan qərbdəki torpaqlar daxil idi.

Uti Paytakarandan qərbdə, Arsaxdan şimalda İberiya sərhədinə qədər uzanan ərazini əhatə edirdi, inzibati cəhətdən kiçik ərazilərə (qavarlara) bölünürdü. Uyi vilayətində qarqar və savd tayfaları yaşayırdılar. I-VI əsrlərdə alban arşaki sülaləsinin, VI-VIII əsrlərdə mehranilər alban sülaləsinin hakimiyyəti altında olmuşdur.

Aparılan elmi araşdırmalar sübut edir ki, Qərbi Azərbaycan ərazisində yerləşən "Ermənistan" ermənilərin vətəni deyil, bu etnos gəlmədir. Ermənilər Fərat çayının yuxarı axarlarında kiçik tayfa halında yaşamış, sonralar səyyar həyat keçirərək dünyanın bir çox ərazilərinə səpələnmişlər.

Özlərini Qarabağa aid edən ermənilər tarix qarşısında oğru və ləkəli olduqlarını həmişə gizlətmişlər. İndi də belədir. Qədim Albaniyanın sosial tərkibində ermənilərin olmaması bir daha sübut edir ki, onlar Azərbaycanda da yaşamamışlar.

**Tarixi arayış**. I əsr Ermənistanın siyasi taleyi haqqında numizmatika materialı olduqca böyük maraq kəsb edir. Bu material çarlığın devrilməsindən, Ermənistanın işğal edilməsindən xəbər verir, Ermənistan üzərində Romanın qələbələrini təsvir edir. Qeyd olunan dövrün pullarının üzərində Ermənistan alleqorik, alçaldılmış və təhqir olunmuş şəkildə Roma imperatorun ayaqları altında oturmuş erməni qadını simasında, itaətə gətirilən vəhşi öküz şəkildə, aman diləyən erməni döyüşçüsü obrazında təsvir edilmişdir. 387-ci ildə Ermənistan İran və Roma arasında bölüşdürüldükdən sonra siyasi bir qurum kimi tarix səhnəsindən silinmişdir.

Qarabağ adının meydana çıxması XII əsrə aiddir. Alimlər Qarabağ toponimini peçeneq-kəngərlərin bir qolu olan Qarabay (Qarabağ) tayfasının adı ilə bağlayırlar. Hələ lap qədimdən Qarabağda çoxsaylı türk tayfaları – barsilər, sabirlər, hunlar yaşayırdılar.

İki türk mənşəli sözün birləşməsindən əmələ gələn Qarabağ toponiminə biz ilk dəfə 1284-cü ildə Fəzlullah Rəşidəddinin (1247-1318-ci illər arasında yaşamışdır) "Cami-ət Təvarix" əsərindən məlumat əldə edirik. O, qeyd edir ki, **"Qazan xan bu qış Qarabağda qışlamaq haqqında qərara gəldi". Tarixçi eyni zamanda vergi verən əyalətlər içərisində Qarabağın da adını çəkir.**

Qarabağ toponimi türk mənşəlidir. Rəng bildirən söz və istilahlardan düzəlmiş toponimlər siyahısına aid edilən Qarabağ ifadəsi bir çox mənbələrdə "geniş bağ" (qara bağ)

mənası kimi açıqlanır. Belə güman olunur ki, adın birinci hissəsi, yəni, "qara" sözü qədim türkdilli xalqlarda rəng mənasında deyil, "çox", "böyük", "geniş" mənasında işlənmiş, ikinci hissə "bağ" sözü isə fars sözü olub, təsərrüfatda bağçılığın geniş inkişafı ilə əlaqədar yaranmışdı. Deməli, Qarabağ qədimdir, türkdilli xalqların vətənidir.

Qarabağ Azərbaycanda olan doqquz iqlim qurşağının altısını özündə birləşdirir. Diyar mülayim iqlimə, zəngin və nadir bitki və heyvanlar aləminə, həyat üçün misilsiz su mənbələrinə malikdir. Əlverişli təbii-coğrafi mövqedə yerləşən, qərblə şərq, şimalla cənub arasında körpü rolu oynayan Azərbaycanın bu ərazisi tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Albaniya dövlətinin, VII əsrdən bütün Azərbaycanla birlikdə ərəb xilafətinin tərkibinə daxil olmuşdur. IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Cəlairlər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy-Eldəgizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. 1501-ci ildə isə Şah İsmayıl Xətainin yaratdığı Azərbaycan Səfəvilər dövlətinin 13 vilayətinin biri kimi şah tərəfindən təyin edilən bəylərbəyi tərəfindən idarə edilmişdir.

1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsi dövründə Qarabağ müvəqqəti olaraq osmanlılar tərəfindən işğal edilmiş, XVII əsrdə I Şah Abbas Azərbaycan torpaqlarını geri qaytarmaq uğrunda osmanlılarla apardığı müharibələr zamanı azad olunaraq yenidən Ziyadoğluların idarəçiliyinə verilmişdir. 1727-ci ildə Qarabağ bəylərbəyiliyinin ərazisi Beyləqandan başlayaraq Tiflisə qədər geniş bir ərazini əhatə edirdi.

XVII əsrin əvvəllərinə kimi xristianlar Qarabağın inzibati hakimiyyətində heç bir zaman təmsil olunmamışlar. Burda mövcud olan xristian alban məliklərindən dördü kənardan gələn, biri isə yerli olmuşdur. Şah Abbas həmin alban xristian məliklərə müəyyən hüquqlar vermişdir. "Xəmsə" adlanan məliklərin təsiri bir kənddən kənara

çıxmırdı. Eyni zamanda yeri gəlmişkən deyək ki, alban xristian məliklərin əhalisi ümumi Qarabağ əhalisinin cüzi bir hissəsini – 8,4 faizini təşkil edirdi. Qarabağ məlikləri diyarın siyasi, ictimai həyatında yadda qalan mövqe tutmamışlar.

.... Nadir şahın qətlindən sonra iyirmiyə qədər kiçik feodal dövləti – xanlıqlar yarandı. Onlardan biri də Qarabağ xanlığı idi. Xanlığın tarixi bu yazının müəllifi tərəfindən respublikamızda və xarici ölkələrdə nəşr olunan elmi jurnallarda, "Şuşa" qəzetində işıqlandırıldığı və onun elmi əsərində geniş şərh olunduğu üçün həmin problemlərin geniş izahına ehtiyac yoxdur. Lakin bəzi problemlərin nəzərə çatdırılması yerinə düşərdi.

Əvvəla, Qarabağdan, Qarabağ xalçasından, Qarabağın milli geyimlərindən, əl-tikmə işlərindən danışarkən deməliyik ki, bu mənəvi mədəniyyətin hamısı Azərbaycan xalqına məxsusdur. Burda heç bir gəlmə elementi yoxdur və ola da bilməz. Bunların hamısı Yaxın və Orta Şərq ölkələrində yüksək səviyyədə dəyərləndirilmişdir. Qarabağ atı, Qarabağ qoyunu, Qarabağ inəyi hər yerdə tanınırdı.

**HAŞİYƏ.** Əgər ermənilər Qarabağın sakinləri olsaydılar, onda Qarabağ donuzu, Qarabağ eşşəyi də olardı. Bunlar bir daha sübut edir ki, ermənilər Qarabağa çox-çox sonralar gəlmişlər.

Cənubi Qafqazda ilk dünyəvi qəza məktəbi 1830-cu ildə Şuşada açılmışdı. "Məclisi-üns" və ‘‘Məclisi-fəramuşan" öz məzmun və üslubları ilə seçilirdi. Qarabağ musiqi məktəbi Şərq aləmində məşhur idi. Görkəmli rus musiqişünası V.Vinoqradov yazırdı: "Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmış və onu yalnız öz vətənlərində deyil, həm də Şərqin başqa Ölkələrində təmsil etmişlər". Qarabağın tacı olan Şuşa "Zaqafqaziyanın konservatoriyası" adını şərəflə daşımışdır. Yaxın və Orta Şərq ölkələrinin nadir memarlıq abidələri Qarabagda inşa edilmişdir. Şuşada yüzlərlə elm, mədəniyyət və incəsənət xadimi doğulub boya-başa çatmışdır. M.P.Vaqifin ədəbi yaradıcılığı Şuşa mühiti ilə sıx

bağlı olmuşdur. Belə dühaları və dəyərli şəxsiyyətləri isə yalnız və yalnız Şuşa mühiti yetişdirə bilərdi.

Qarabağ xanlığı rus işğalına kimi müstəqil olaraq 75 il mövcud olmuşdur. 1822-ci ildə ləğv edilərək Rusiya imperiyasının əyalətinə çevrilmişdir.

1920-ci il Aprel çevrilişindən sonra Qarabağ problemi meydana çıxdı. Qarabağ birdir, onun dağı da var, aram da. Bu isə təbiidir. Bu qondarma ərazi bölgüsündən it sümükdən yapışan kimi ermənilər də möhkəm yapışmaq qərarına gəldilər. Sovet hökuməti və bu işdə onların arxasında dayanırdı. Nəhayət, Dağlıq Qarabağ problemi dövlət səviyyəsində həll olunma müstəvisinə keçirildi.

Dağlıq Qarabağ məsələsi dəfələrlə RK(b)P-nin Qafqaz bürosunda, partiyanın Zaqafqaziya diyar Komitəsində, eyni zamanda AK(b)P-nin MK-da müzakirə olundu. Kremldə özlərinə yuva salan daşnakların fəal köməyi ilə ermənilər getdikcə azğınlaşır və qədim tarixi ərazimizin bir hissəsinin Ermənistana verilməsini tələb edirdilər. Onların tələbinin arxasında yalnız bir məsələ dururdu. Burda ermənilərin yaşamaları məsələsi. Mərkəz yaxşı bilirdi ki, Ermənistan SSR Azərbaycanın qərb torpaqlarında – İrəvan xanlığı ərazisində yaranmışdır. N.Nərimanovun tutduğu qətiyyətli mövqe ermənilərin bu arzusuna son qoydu. Geniş izahata ehtiyac olmadığından onu qeyd edək ki, mərkəzin tələbi ilə Qarabağın dağlıq ərazisinin muxtariyyəti ideyası ortaya atıldı. Məsələnin qızğın dövründə Qarabağ xanlığının ərazisi olan Zəngəzur ermənilərə hədiyyə verildi... Uzun sürən qızğın mübahisələrdən sonra 1923-cü il iyulun 7-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi “Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında” dekreti imzaladı. Dekret Kremlin kobud təzyiqi altında verilmişdi. Tarixin bu ədalətsiz qanunu torpaqlarımızın sinəsinə sancılan qılınc idi. Azərbaycan SSR-in tərkibində yaradılmış bu qondarma qurum mövcud olduğu (1991-ci il noyabrın 26-na kimi) illərdə qan çanağı rolunu oynamışdı. Hazırda baş verən siyasi hadisələr

deyilənləri sübut edir.

SSRİ dağılandan sonra ermənilər başa düşdülər ki, müstəqilliyə nail olan müttəfiq respublikalar tarixi torpaqların geri qaytaracaqlar. O cümlədən də, Azərbaycan Respublikası da özünün qədim ərazisini bərpa edəcək, ermənilərə verilən torpaqlarımız geri qaytarılacaq. Qorxuya düşən erməni quldurları himayədarlarının köməyi ilə silaha əl atdılar, Qarabağda günahsız qan axıtdılar.

Haqq, ədalət bizim tərəfimizdədir. Qarabağ bizim qədim torpağımızdır. Heç vaxt, heç zaman Azərbaycan xalqı və onun müstəqil dövləti bu ərazinin bir qarışını da yağı düşmənə verməyəcək.

*Şuşa qəzeti,*
***oktyabr, 2011, №19***

**Yunis HÜSEYNOV,**
**Tarix üzrə fəlsəfə doktoru**

# ƏMİR TEYMURUN AZƏRBAYCANA HƏRBİ YÜRÜŞLƏRİ

XIV əsrin əvvəlləri tariximiz tarixşünaslığımızda mürəkkəb dövr kimi səciyyələndirilir. Dövrün hadisələri zənginliyi ilə bir-birindən fərqlənirdi və bu hadisələr bütün Şərqi lərzəyə salan Əmir Teymurun siyasi həyata başlaması ilə sıx bağlı idi. Azərbaycan Makedoniyalı İsgəndər, Yuli Sezar, Napoleon Bonapart kimi sərkərdələrlə eyniləşdirilən, dünyanın görkəmli sərkərdəsi və dövlət xadimi, "İkinci Çingiz" adlandırılan və Avropa ölkələrində Tamerlan adı ilə də tanınan Əmir Teymurun əsas fəaliyyət meydanına çevrilmişdi.

**Əmir Teymur 1336-cı ildə Amu-Dərya ilə Sır-Dərya çayları arasındakı Mavəraünnəhrdə, Xacə İlqar adlı kənddə anadan olmuşdur**. Atası Turcay Barlas bəylərindən idi. O, yaşıdları arasında çevikliyi, mərdliyi, cəsurluğu ilə fərqlənirdi. At çapmaqda, ox atmaqda ad çıxarmışdı. Gənc yaşlarından hərbi yürüşlərdə iştirak edər, döyüş meydanında istədiyinə nail olmaq üçün bütün maneələri dəf edərdi. Öz gələcəyinə də daxilən inanırdı. Əmir Teymur taleyinin zirvəsinə çatdığı dövrdə fərəh hissi ilə deyirdi: "**Mən on iki yaşımda olarkən özümdə fövqəladə fərasət və əzəmət hiss etdim. On səkkiz yaşımda at çapmaq və ovçuluqda olan məharətim barədə hərtərəfli düşünməyə və nəticələr çıxarmağa başladım. Əksər vaxtımı Qurani-Kərimi oxumağa, şahmat oynamağa və at çapmağa həsr etdim".**

Monqol xanı Tucluq Teymur Mavəraünnəhri ələ keçirdikdən sonra 25 yaşlı Teymuru Keş vilayətinə hakim təyin etmişdi. O, nüfuzlu bir türk əmirinin qızı ilə evlənmiş, Mavəraünnəhrin hakimi İlyas Xocaya qulluq etmişdir. Lakin ona qulluq etməyi özünə sığışdırmayan Əmir Teymur qaynı Hüseynlə birlikdə İlyas Xocaya qarşı mübarizəyə başladı. Ancaq

Hüseyn Teymura xəyanət etdi. O, başa düşdü ki, Hüseynə etibar etmək olmaz, çünki qaynı özü üçün əsas rəqib olan Teymuru aradan götürmək istəyirdi.

İlyas Xoca monqol xanlarının hakimiyyətinə qarşı çıxan sərbadilərin ("sərbadi" fars sözüdür, mənası "dara çəkilənlər" deməkdir) müqaviməti ilə qarşılaşdı. 1366-cı ilin yazında Teymur və Hüseyn Səmərqənd ətrafında sərbadilərin başçısı Mövlanzadəni tutdular. Lakin Teymur Mövlanzadəni azad etdirdi. Teymur və Hüseyn Səmərqəndi tutub, şəhərə daxil oldular. Hakimiyyət uğrunda aparılan mübarizə torpaq sahiblərinin, tacirlərin, din xadimlərinin narazılığına səbəb olurdu. Bunu Teymur da yaxşı dərk edirdi. Ona görə də vəd edirdi ki, hakimiyyətə gəlsə, vahid dövlət yaradacaq və ölkədə hərc-mərcliyə son qoyacaq. Eyni zamanda hökmdar taxtında əyləşməyə də tələsmirdi. Çünki Çingiz xanın soyundan deyildi. Ona görə də Teymur hökmdar taxtına həmin soydan olan Soyurqatmış xanı əyləşdirdi.

Teymurun övladı öləndən sonra onun Hüseynə qarşı münasibəti düşmənçiliyə çevrildi. Hüseyn Bəlx qalasına köçdü, xəzinəni də bura gətirib, qalanın müdafiəsini gücləndirdi. Belə şəraitdə Teymur Hüseynin güclənməsinə dözə bilməzdi. Teymur Bəlx qalasına hücum etmək və rəqibini aradan götürmək qərarına gəldi.

Tarixçilərin yazdığına görə Bəlxə hücum ərəfəsində Teymurun mötəbər adamı - məkkəli üləma Seyid Bərkə bu döyüşün Teymur üçün uğurlu olacağını demiş və ona öz əli ilə hakimiyyət rəmzi olan təbil və bayraq vermişdi. 1370-ci il aprel ayının 9-da Bəlxə toplaşan minbaşıların və tümən başçılarının qurultayında Teymur türk ənənələrinə uyğun ağ keçə üzərində yuxarıya qaldırıldı və üləma Seyid Bərkənin oxuduğu Quran ayəsindən sonra Məvərünnəhr ölkəsinin əmiri elan olundu. Beləliklə də, dərin zəkaya və möhkəm iradəyə malik olan Əmir Teymur istək və arzularına çatdı və Səmərqəndi ölkəsinin paytaxtı elan etdi. Dərhal da tənəzzülə uğramış ölkəni inkişaf etdirməyə və qayda-qanun yaratmağa başladı.

Yuxarıda dediyimiz kimi, Əmir Teymur Çingiz xan nəslindən olmadığı üçün “xan” titulu qəbul etmədi. Əmir Teymur kimi də qaldı. O, ömrünün 57 ilini at belində hərbi səfərlərdə keçirdi və 27 ölkənin xaqanı oldu.

Əmir Teymur Azərbaycana üç dəfə - 1386-1387-ci, 1392-1395-ci və 1399-1405-ci illərdə hərbi yürüş etmişdir. Yalnız belə bir tarixi faktı göstərmək kifayət edər ki, onun birinci yürüşü ilə ikinci yürüşü arasındakı dövrlərdə Azərbaycanın paytaxtı Təbriz şəhəri feodal ara müharibələrinin qanlı meydanına çevrilmişdi. Bu mübarizəni Əmir Teymurun Təbrizdəki əmirləri ilə yanaşı, Cəlairi Sultan Əhməd və onun Əlincə qalasındakı əmirləri, Təbrizin daxili əmirləri, Marağa hakimi Yadigar şah, Mahmud Xalxali, Qara Yusif Qaraqoyunlu və başqaları aparırdılar. 1485-1492-ci illərdə Təbrizə 22 dəfə dağıdıcı hücum edilmişdi.

XIV əsrin 80-90-cı illəri tarixdə Azərbaycan üçün daha ağır dövr kimi qalmışdır. Bu dövr Əmir Teymurla Qızıl Orda xanı Toxtamışın Azərbaycana yürüşləri ilə xarakterizə olunur. 1386-cı ildə Əmir Teymur İran ərazisinə daxil oldu. Onun qoşunları Sultaniyyəni tutub Təbrizə tərəf irəlilədi və şəhəri tutdu. Bu hadisədən sonra Əmir Teymur Uçandan Həştrud yolu ilə Təbrizə gələrək Şənbi-Qazanda düşərgə saldı. Sultan Əhməd bundan sonra Naxçıvana gedərək oradan da Bağdada qayıtdı.

Təbrizi ələ keçirən Əmir Teymur şəhərdə olan görkəmli sənətkarları və elm adamlarını Səmərqəndə göndərilməsi haqqında göstəriş verdi. Təbrizdən qaçan cəlairli Sultan Əhmədlə İlyas Xoca arasında qanlı döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə yaralanması Sultan Əhmədi ölümdən qurtardı. Şərəf əd-Din Əli Yəzdi yuxarıda qeyd olunan döyüş haqqında yazmışdır: **“Əmir Şeyx Əli Bahadırın oğlu İlyas Xoca qoşundan bir neçə nəfərlə Naxçıvandan keçib, Nəməkzar ərazisində Sultan Əhmədə çatdı. Onunla çoxlu döyüşçü var idi... Bu döyüşdə İlyas Xoca yaralandı və döyüşdən qaldı. Bu səbəbdən Sultan Əhməd xilas olub canını qurtardı” (Bax: - iqtibas göstərilən müəllifin**

**"Zəfərnamə" əsərindən götürülən Azərbaycan tarixinə dair qeydlər. B., 1996, səh. 31).**

Əmir Teymurun Azərbaycana yürüşləri içərisində Əlincə qalasının müdafiəsi xüsusi yer tutur. Qala 14 il teymurilərə inadlı müqavimət göstərməklə tarixdə özünə şərəfli ad qazandırmışdır. Əlincə qalası 1387-ci ildən 1400-cü ilə kimi mühasirədə qalmışdır. Hücumlara cavab verə bilməyən cəlairli əmirləri Əlincə qalasında sığınacaq taparaq burda gizlənmişdilər.

Əmir Teymur Azərbaycanın cənub torpaqlarının böyük hissəsini tutduqdan sonra, 1387-ci ilin payızında Naxçıvanın əzəmətli Əlincə qalasına yaxınlaşdı. İlyas Xocanın başçılıq etdiyi qoşun naxçıvanlıların müqavimətini çətinliklə qıra bildi. Naxçıvanın Gərni və Sürməli adlı istehkamları dağıdıldı. Qala uzun illər müdafiə şəraitində, içərisində olan adamları ərzaq və su ilə təmin etmək imkanına malik idi.

Sultan Əhməd xəzinəsini, ailəsini və yaxın adamlarını qalada yerləşdirib, müdafiə işlərini Əmir Altuna tapşırmışdı. Onun sərəncamında 300-ə yaxın qorçu (döyüşçü) var idi. Şəki hakimi Seyid Əli də Əlincə qalasının müdafiəçilərinə kömək edirdi. Ümumiyyətlə, Əmir Teymur Əlincə qalasına dörd dəfə - **1387-ci, 1393-cü, 1397-ci və 1400-cü illərdə** yürüş etmiş və heç birində məqsədinə nail ola bilməmişdi. Qalanın müdafiəsinə başçılıq edən Sultan Tahir ilə Əmir Altun arasında ailə zəminində baş verən münaqişə nəticəsində qalanın müdafiəsi zəifləyirdi. Bu dövrdə Əmir Teymur Azərbaycanda deyildi. Sultan Tahir xəzinəni və yaxın adamlarını götürüb, Bağdada atası Sultan Əhmədin yanına getdi. Beləliklə də, 14 il Əmir Teymura tabe olmayan Əlincə qalası 1400-cü ildə müdafiəsiz qaldığına görə süqut etdi.

**Ərəb tarixçisi İbn Ərəbşah yazır ki, Əmir Teymur qalanı ələ keçirdikdən sonra öz əzəmətilə onu heyrətə gətirən bu qalanı xüsusi ziyarət etmiş və ona heyran olduğunu bildirmişdir...**

Azərbaycanın cənub ərazilərinin və Əlincə qalasının

mühasirəsi Şirvanı da böyük təhlükə qarşısında qoydu. **1382-ci ildə Huşəngin vəfatından sonra Şirvan feodalları onun əmisi oğlu İbrahim İbn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçdilər. O, Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndi Şirvanşahları sülaləsinin ilk nümayəndəsi idi. Şimaldan Şirvanı Qızıl Orda xanı Toxtamış təhlükə altında saxlayırdı. Əmir Teymur da Şirvanı təhlükə altına salmışdı. Toxtamışla onun düşmənçilik münasibətindən Şeyx I İbrahim məharətlə istifadə edərək Əmir Teymura tabe olmağı üstün tutub, ona itaət etdiyini bildirdi.**

Tarixi mənbələr də qeyd edilir ki, 1386-cı ildə Qarabağa, Şirvanşahın ərazisinə daxil olan Dərbənddən keçərək Dəşti-Qıpçağa Əmir Teymurun görüşünə gedən I İbrahim Şirvanşah adını qoruyub-saxlamağa müvəffəq oldu. Qaynaqlar xəbər verir ki, I İbrahim Əmir Teymurun görüşünə getməzdən əvvəl ən inandığı böyük vəziri Qazi Əbu Yəzidlə məsləhətləşmiş və Şirvanşaha qaçıb, dağlarda gizlənməyi məsləhət görmüşdü. Lakin I İbrahim həyatını təhlükə qarşısına qoyaraq Əmir Teymurun adına xütbə oxunmasını və sikkə kəsilməsini əmr etdi və itaətini bildirmək üçün bahalı hədiyyələrlə onun qərargahına yollandı. I İbrahim monqol hökmdarlarında dəbdə olduğu kimi, hər hədiyyədən doqquz ədəd təqdim etmişdi. Qulların sayı isə səkkiz idi. Əmir Teymurun vəziri qulların sayının nə üçün səkkiz olduğunu soruşduqda I İbrahim dərhal cavab vermişdi ki, doqquzuncu qul mən özüməm. Onun bu hərəkəti Əmir Teymurun xoşuna gəlmiş, onu oğlu adlandırmış və ona fəxri hərbi paltar bağışlamışdı. Onu Şirvan və Şamaxının hakimi təyin edərək öz torpaqlarına qayıtmağa icazə vermişdi. Beləliklə də, I İbrahimin çevik və düşünülmüş siyasəti Şirvanı viran olmaqdan və fəlakətdən xilas etdi. Əmir Teymur bəzi torpaq mülklərini də I İbrahimin torpaqlarına qatdı və öz xələflərinə Şirvanşahın övladlarının (əhalisinin) əmin-amanlığının təmin olunmasını vəsiyyət edən fərman verdi. Qızıl Orda xanı Toxtamışın bütövlüklə zərərsizləşdirilməsində Əmir Teymurun ən etibarlı köməkçisi I İbrahimin böyük xidmətləri tarixi mənbələrdə

özünün parlaq təcəssümünü tapmışdır. Şirvanşah I İbrahim Azərbaycan torpaqlarını vahid dövlət halında birləşdirmək üçün Əmir Teymurla olan münasibətlərindən məharətlə istifadə edirdi. Belə ki, o öz təsirini **Qarabağ, Şəki, Dərbənd və Qəbələyə qədər yaymağa müvəffəq oldu.**

Əmir Teymur İslam dininin ən böyük müdafiəçisi idi. Bunu mənbələr tutarlı dəlillərlə sübut edir. **"Zəfərnamə" müəllifi Şərəf əd-Din Əli Yəzdi yazırdı: "Sahibqıran (Əmir Teymur - Y.H.) Kür çayını keçib, sədaqətli qoşunun üzəngisini Bərdəyə tərəf çəkdi. Əhali ona tabe oldu, itaət göstərdi. Qarabağda həbsdə olan Boqrat Tiflisini hüzuruna çağırtdırdı və onu... Məhəmməd dininə dəvət etdi... Boqrat tohidi dilinə gətirdi... Sahibqıran həzrətləri mərhəmət və hörmət bəsləyib Boqrata məxsus olan ölkənin (Gürcüstanın) hakimiyyətini özünə qaytardı... Sahibqıran həzrətləri həmin qışda səadət və iqballa Araz çayının sahilində qışladı.**

**Əmir Teymur 1387-ci il yanvarın 1-də Bərdəyə tərəf üz tutdu. Muğan səhrasında və Ağdamda ov etdi, Araz çayının kənarında məskən saldı. Çayın üzərində qayıqlardan körpü saldılar və sağ-salamat çayı keçdi və Arran Qarabağını özünə məskən seçdi (Bax: "Zəfərnamə", səh. 60).**

**Əmir Teymur 1399-1400-cü ilin qışında - Qarabağ qələbə əzmli ordunun iqamətgahına çevrildiyi vaxt Gürcüstana hərbi yürüş planlaşdırdı... Bu zaman Gürcüstana gedən mühəssil (vergi toplayan) geri qayıtdı. Məlik Georgi (Gürcüstan hakimi - Y.H.) öz qardaşını çoxlu mal-dövlət və vəsaitlə, hər cür töhfə, hədiyyə, ov heyvanları, ərəb atları ilə İslam pənahı olan dərgaha göndərmişdi. Məlik Georginin qardaşı əmirlərin köməyi ilə ətək öpməyə nail oldu, hədiyyələr verib, qardaşının xahişini çatdırdı. Sahibqıran Məlik Georginin günahlarını bağışlayaraq buyurdu: "Qardaşına çatdır ki, aman verdim və bu ölkədən yürüş üzəngisini geri çəkirəm, o şərtlə ki, bundan sonra öz həddini bilsin, müsəlmanlarla ədəblə davransın, onların qanunlarına əməl etsin, heç bir vəchlə islam əhlini təşvişə**

**salmağı ağlına gətirməsin...” (“Zəfərnamə”, səh. 67.)**

**Əmir Teymur 1402-ci il fevral ayının 16-da Qarabağa gələrək burda məskən salmış və həmin ilin mart ayının 12-də Şəmkirə getmişdi. “Zəfərnamə”də deyilir: “İnşa etmək, qurmaq dünyanın böyük tədbirlərindən, bəni-Adəmin mühüm işlərindən sayılır. Sahibqıranın ali məqsədi dünyanın və aləm əhlinin xeyrinə cəhd göstərmək olduğundan istər məskən saldığı və istərsə də səfərdə olduğu vaxtlarda hardasa az müddətdə düşərgə salıb qaldıqda məmləkətlər bəzəyinin (Əmir Teymurun) fikri xeyirli binaların inşasına cəlb olunurdu. O cümlədən, günəş sayəli düşərgənin zəfərli cəmşidi payız bürcünə tərəf dönəndə və günəş şöləli (Sahibqıran) Qarabağ qışlağına gələndə Beyləqanın təmir olunması arzusu mübarək qəlbində baş qaldırdı. Şəhər uzun müddətdən bəri elə viran hala düşmüşdü ki, nə binalarından əsər qalmışdı və nə də orda həşəratdan başqa canlı gözə dəyirdi.**

**...Soyuq mövsüm olmasına baxmayaraq, yarlıq verildi, mahir mühəndislər, işbilən memarlar şəhərin xəndək, qala divarları, dörd bazar, çoxlu evlər, hamam, saray, bostan yerləri və sahələrinin planını hazırladılar. Plana əsasən ərazini böldülər, iplə işarə etdilər və onları şahzadələr və əmirlər arasında payladılar. Qoşun əhli böyük həvəslə işə başladı. Həmin binaların hamısını bişmiş kərpicdən tikib, bir ay müddətində başa çatdırdılar. Şəhər barısının uzunluğu böyük arşın ilə 2400 arşın, divarın eni 11 arşın, hündürlüyü 15 arşına yaxın, xəndəyin eni 30 arşın, onun dərinliyi 20 arşına yaxın idi. Hasarın dörd tərəfindən hər birində mötəbər bürclər qaldırdılar, ortalarında isə başqa bürclər tikdilər. İki tərəfində iki darvaza qoydular. Hər yerində şərəfə (əzan yeri), deşik (divar üstü) və mazğal (səngəndaz) düzəltdilər. Əmir Teymurun göstərişi bir ay müddətində həyata keçirildi. İlahinin köməyi ilə Sahibqıranın zəkası olmadan bu qədər işləri qısa müddət ərzində yerinə yetirmək mümkün deyildi. Bir ay ərzində**

**Beyləqan orta əsr şəhərləri içərisində özünəlayiq yaşayış məskəninə çevrildi.**

Sözsüz ki, Əmir Teymur olduqca qəzəbli şəxsiyyət idi. O, bəzən məhəbbətin üzərinə qəzəb və kin çiləyib, cahanı alt-üst edərdi, razılıq vaxtı rəhm etmək üçün lütflə danışdıqda aləm onun sözlərindən və əməllərindən bəzənərdi (səh.74). Beyləqan bərpa edilib gözəlləşdirildikdən sonra Əmir Teymur etibar etdiyi Bəhram şahı Beyləqanın mühafizi vəzifəsinə təyin etmişdi. Sahibqıranın şəxsi göstərişi ilə Beyləqandan keçməklə Araz çayından arx çəkilməsi həyata keçirildi. Arx bir ay müddətində çəkilib, başa çatdırıldı.

**Qarabağ qışlağında baş verən hadisələrdən biri də Əmir Teymurun ən əziz və sevimli adamı olan Seyid Bərkənin gözlənilmədən xəstələnməsi və vəfat etməsi idi. Əmir Teymurun göstərişi ilə onun cənazəsi Səmərqəndə aparıldı. O, bu ağır itkinin təsiri altına düşdü, qəm-qüssə ona hakim kəsildi. Onun əhvali-ruhiyyəsini aradan qaldırmaq üçün ov məşğuliyyəti keçirmək qərara alındı. Bu məqsədlə Əmir Teymur Ağdaş ərazisinə gedərək ov etməklə məşğul oldu.**

Tarixi mənbələrdə qeyd olunur ki, Əmir Teymur 1404-cü il iyulun 19-da Rum və Şam yürüşlərini başa çatdırıb, Səmərqəndə qayıtdı. Onun paytaxta gəlişi böyük bayram şənliklərinə səbəb oldu.

Əmir Teymur uğurlu hərbi yürüşlərdən vəcdə gələrək düşünürdü ki, göydə Allah tək olduğu kimi yerdə də hakim tək olmalıdır. O, Allaha dərindən inanırdı, həmişə yanında Quran gəzdirirdi. Ustadı Seyid Bərkə Əmir Teymurun ən yaxın məsləhətçisi idi. O, hərbi yürüşlərdən əvvəl və ya yazdığı məktublarda ilk olaraq “Mən, Allahın qulu Teymur” sözləri ilə başlayardı. İşğal etdiyi ölkələrdə alimlərə, sənətkarlara və tacirlərə toxunmazdı.

Əmir Teymur Çinə hərbi yürüş etmək üçün hazırlıq görürdü. 1405-ci ilin soyuq fevral gecələrindən biri idi. Asiya qitəsinin yarısından çoxunu fəth etmiş 69 yaşlı Əmir Teymur

qədim Otrar şəhərində amansız ölümlə mübarizə aparırdı. İnanırdı ki, həkimi Fəzlullah onu ölümün pəncəsindən xilas edəcək. Məhz ona görə də Çinə hərbi səfərin təxirə salınması haqqında təklifləri qətiyyətlə rədd edirdi. Əmir Teymur həmişə olduğu kimi yenə də Allahdan bu səfərin də zəfərlə başa çatdırılması üçün dualar edir və ondan möhlət diləyirdi...

**1405-ci ilin fevral ayının 17-də səhər həkim Fəzlullah özündə cəsarət tapıb, Əmir Teymura həqiqəti söyləyə bildi. Həkim göz yaşları tökərək Əmir Teymura dedi ki, vəsiyyətini etsin, yoxsa, gec olar... Əmir işıqlı həyatla əbədi olaraq vidalaşdı... O, ölüm ərəfəsində yalnız bir neçə söz deyə bildi: "Məni Seyid Bərkənin ayağı altında dəfn edin... Bir də ki, nə olursa-olsun, qılıncı əlinizdə möhkəm tutun... Zəifliyi qəlbinizə yaxın buraxmayın. Zəiflik ağlınızı çaşdırar, ruhunuzu məhv edər, məqsədinizin həyata keçirilməsinə böyük əzmlə çalışın. Eşidirsiniz? Zəif olan məqsədinə çata bilməz!.."**

Əmir Teymurun vəfatından sonra onun oğlanları və nəvələri arasında hakimiyyət uğrunda mübarizə başlandı. Onun varisi olan Pir Məhəmməd bu mübarizənin qarşısını ala bilmədi... Əmir Teymurun yaratdığı güclü dövlət dağıldı.

1507-ci ildə Məhəmməd Şeybaninin başçılıq etdiyi köçəri özbəklər Orta Asiya və Xorasanı tutmaqla, teymurilər dövlətinin varlığına son qoydular.

Şuşa qəzeti,
iyun, 2012, №14

**Yunis HÜSEYNOV,**
tarix üzrə fəlsəfə doktoru

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİNİN "İKİ OD ARASINDA" ROMANINDA ERMƏNİ MƏSƏLƏSİNİN QOYULUŞU

Şuşada gözəl yaz fəsli hamının əhval-ruhiyyəsinə xoş təsir göstərirdi. Hamı öz işi ilə məşğul idi. İbrahimxəlil xan xanlığın bir sıra daxili və xarici problemlərini həll etmək məqsədilə geniş müşavirə çağırmışdı. Burda demək olar ki, saray əyanları ilə bərabər, bütün səlahiyyət sahibləri və ali ruhani təbəqəsinin nümayəndələri də iştirak edirdi. Müzakirə olunan məsələlər haqqında İbrahimxəlil xan, vəliəhdi Məhəmmədhəsən ağa, vəzir Molla Pənah, şəhərin kələntəri Ağasi bəy, Mirzə Əliməhəmməd ağa öz rəy və təkliflərini bildirdilər. Müşavirə günorta namazına qədər öz işini davam etdirdi. Müşavirə başa çatdıqdan sonra Məhəmmədhəsən ağa Molla Pənahı, Mirzə Əliməhəmməd ağanı və Ohan keşişi nahara saxladı. Süfrədə boyanalı aş, üstündə quzu soyutması, yanında sarımsaq-qatıq, bağırbeyin, bir sözlə, can dərmanı desən, vardı. Məhəmmədhəsən ağa "bismillah!" deyib, qonaqları yeməyə dəvət elədi. Molla Pənah yeməyin şirin yerində:

- Doğrudan da, hər fəslin öz yeməyi var, bu yeməklər insanda xoş arzular oyadır...

- Məhəmmədhəsən ağa Vaqifin sözlərinə əlavə olaraq bildirdi ki, boyananı Ağdamdan göndəriblər.

Yemək süfrəsi qurtardıqdan sonra hamıya qəhvə, Məhəmmədhəsən ağaya isə darçın çayı gətirildi. Darçın çayı soyuqluq verən düyünün insan bədəninə gətirdiyi ziyanı aradan qaldırır.

Qəlyan çəkmə uzun sürdü, söhbət öz məcrasından çıxdı və bu arada üç-dörd il əvvəl Qarabağa Londondan gələn bir erməni yada düşdü. Molla Pənah təəssüflə bildirdi ki, heyf, onu görə bilmədim...

Mirzə Əliməhəmməd ağa Vaqifin sözünə əlavə etdi ki, həmin erməni olduqca alçaq hərəkətlərə yol verib. Xan onun barəsində çox humanistlik edib, günahlarından keçib. Ohan keşiş Əliməhəmməd ağanın sözlərini məmnuniyyətlə təsdiqləyərək:

- Xan, doğrudan da, o yaramaz barədə humanist mövqe tutdu, ona toxunmadı. Bu murdar Həmədandan idi. Londonda təhsil almışdı. Sonra Peterburqa gəlmiş, özü kimi yaramazlara qoşulmuşdu. Onu öyrədib, Qarabağa göndərirlər ki, get, orda yaşayan bir ovuc erməniləri yerli müsəlmanlara qarşı mübarizəyə çağır. Bu bədniyyət alçaq buralarda vurnuxdu, başıboş erməni tacirlərindən pul yığdı. Üçkilsəyə getdi, bizim yararsız patriarxdan xeyir-dua aldı... Məqsədinə nail olmayıb, Hindistana çıxıb-getdi.

Peterburqdan gələn erməni Yusif Əminin hərəkətlərindən Mirzə Əliməhəmməd ağanın xəbərdar olduğunu Ohan keşişə bildirməsi məsələyə bir daha aydınlıq gətirdi. Mirzə Əliməhəmməd ağa keşişə bildirdi ki, Qarabağa şeytan toxumu səpməyə gələn Yusif Əmin Gürcüstan hakiminin yanında olmuş, lakin İrakli onu qovmuşdu. Xan bu şeytanla məşğul olmağı mənə tapşırmışdı. Mən ona bildirdim ki, bütün Azərbaycan xanlıqlarında bir ovuc gəlmə erməni yaşayır... Özləri də alverlə və əkin-biçinlə məşğul olurlar. Onlar bizim kimi at üstündə qılınc oynada bilməzlər. Nə isə sonda Yusif Əmin mənə dedi ki, mənim arxamda ingilis padşahı durur. Göründüyü kimi, ermənilər kiminsə fitnəsinin qurbanına çevrilirlər.

Ohan keşiş əsəbi halda Mirzə Əliməhəmməd ağaya bildirdi ki, bizim bədbəxt başbilənlərimiz bilməlidirlər ki, ingilis və ya rus padşahlarının xatirinə iş görməklə heç bir şeyə nail ola bilməyəcəklər. Müsəlmanlar öz torpaqlarında bizə yer vermiş, qonaqpərvərlik göstərmişlər. Bunu dəyərləndirməmək sadəcə olaraq alçaqlıq olardı.

Ohan keşiş danışdıqca daxildən sanki alışıb-yanırdı. Əsəbilikdən əlləri və dodaqları titrəyir, ermənilərin cinayətkar hərəkətlərini yada saldıqca odlanırdı. Ohan erməni xalqına

rəhbərlik etməyə çalışanların tarixçəsini yada salaraq dedi ki, bu tarixçə çox qanlı və olduqca boş bir şeydir.

Ohan keşiş Ori haqqında bildiklərini tam açıqlığı ilə həmsöhbətlərinə bildirdi. Onun Fransada, Almaniyada və Avstriyada fırıldaqçılıqla məşğul olmasından, sonra I Pyotrun yanına gəlməsindən ətraflı məlumat verdi və onu lənətləndirdi. Eyni zamanda bildirdi ki, Şərq dillərinə bələd olan keşiş Ori kimi murdarlar rus çarına gərəkli idi. I Pyotr Ori vasitəsilə İran şahı Hüseynə məktub göndərib, orda yaşayan ermənilərin vəziyyətini yaxşılaşdırmağı xahiş etmişdi. Bu xahişin arxasında məkrli niyyətlər dururdu.

İrana "xoşməramla" gedən Ori ordan düşmən kimi qayıtdı. Tarixi faktlar sübut edir ki, Həştərxan vasitəsilə İrana gedən Ori heyəti öz çirkin əməllərini görüb qurtardıqdan sonra Üçkilsəyə gəlir, ruhanilərə və məliklərə böyük vədlər verərək geriyə - I Pyotrun sarayına qayıdır. Topladığı məlumatı çara çatdırır. İndi İran səfərinə çıxmaq olardı... Əlbəttə, I Pyotr bu səfəri həyata keçirdi. Aldadılmış ermənilər də bu səfərdə fəal iştirak etdilər. Təbii ki, I Pyotr İranı və Qafqazı tərk edib, geri çəkildi. Bu işdən ermənilər təşvişə düşdülər və onlara qarşı yerli xalqların kin və nifrəti artdı. Beləliklə də, kənar ermənilərin hərəkətləri Cənubi Qafqaz ermənilərinə qarşı düşmənçilikdən başqa, heç bir şey gətirmədi. Keşiş Ohan bunu yaxşı başa düşürdü. Hər dəfə erməni məsələsi dilə gətiriləndə Ohanın əhval-ruhiyyəsi pozulur, əlləri və dodaqları əsirdi... Əsəbi halda deyirdi: Qafqazda yaşayan ermənilər mənşəcə albanlardır.

Keşiş Ohan xəcalət çəkə-çəkə həmsöhbətlərinə "onları duz-çörək tutsun", - deyərək dərin bir "ah" çəkdi.

Şimali Azərbaycan xanlıqları arasındakı fikir ayrılığı Qarabağ xanlığında birmənalı qarşılanmırdı. Baş verən siyasi hadisələr heç də ürəkaçan deyildi. Şimaldan və cənubdan gələn həyəcanlı xəbərlər İbrahimxəlil xanı narahat etməyə bilməzdi. Bütün bu fikirləri xəyalında təhlil edən İbrahimxəlil xan sarayın Bağrıqan dağına baxan pəncərəsinin önündə oturub, dərin xəyala dalmışdı. Hər tərəf qarla örtülü idi. Günəş şüaları qarın üzərinə

düşərək gözqamaşdırıcı bir mənzərə yaradırdı. Şuşanın məhəllə evlərinin bacalarından çıxan tüstü burularaq gah şəhərin şərqinə, gah da şimal-qərbinə doğru hərəkət edirdi. Bu, küləyin istiqamətindən asılı idi. Xan təbiətin möcüzəsinə baxdıqca fərəhlənir, xanlığı və onun paytaxtı Şuşa ilə fəxr edirdi. Bütün bunlara baxmayaraq, İbrahimxəlil xan daxilən olduqca narahat idi. Belə bir vəziyyətdə onun qəlbindən keçənləri həll etmək üçün maraqlı həmsöhbətə böyük ehtiyacı var idi.

Belə hallarda xanın ən yaxın həmsöhbəti Vaqif idi. O, İbrahimxəlil xanın otağına daxil olarkən onun dərin fikrə daldığını hiss elədi. Xan Vaqifi görüncə xəyal dünyasından ayrıldı və vəzirin salamını alıb, bir qədər rahat oldu. Kələntər Ağasi bəy də burda idi. Vaqif xanı xəyallardan tamamilə ayırmaq və ona xoş əhval-ruhiyyə bəxş etmək məqsədilə tamamilə başqa bir mövzu ətrafında söhbətə başladı:

- Xan sağ olsun, bu gün əlimə bir kitab düşüb. Kitab salnamə xarakterində olub, qədim rəvayət və əhvalatlardan xəbər verir.

İbrahimxəlil xan tarixə böyük maraq göstərdiyi üçün maraqla soruşdu:

Orda nədən söhbət gedir?

- Vaqif xanın əhval-ruhiyyəsində baş verən sevinci hiss edərək söhbətə başladı.

- Hələ hicrəti-xatəmələnviyandan (Məhəmməd (s) Məkkədən Mədinəyə köçməsi tarixi nəzərdə tutulur) min il qabaq bizim bu Qarabağda zərdüştlər yaşamış, Turan elləri Dərbənddən, səddi-İskəndərdən keçib, buraları özlərinə məskən etmişdilər. "Salnamə"də rəvayət olunan İran-Turan müharibəsi bizim Kür-Araz arasında vaqe olmuşdur. Bizim bu ölkənin başına çox qəribə qəziyyələr gəlmişdir.

Bu arada Kələntər Ağasi bəy söhbətə müdaxilə edərək bildirdi ki, Pənahəli xan Fətəli xan Əfşarın üstünə gedərkən məni də özü ilə aparmışdı. Lakin mən yaralandım və Ərdəbildə müalicə olundum. Orda olduqca məlumatlı, həmişə ibadətlə məşğul olan qoca bir şeyx var idi. Bir dəfə mənim yanıma gəlib,

yataq döşəyimin üstündə əyləşərək söylədi ki, Aran böyük bir ölkəymiş məqərər-səltənəti (mərkəzi-şəhəri) də Gəncə olmuşdur.

İbrahimxəlil xan birdən Vaqifə belə bir sualla müraciət etdi:

**- Bəs bu ermənilər hardaydılar?**

Vaqif sakit səslə:

**- Ermənilər buralara çox sonralar gəlmişlər. Bunlar Çingiz və Əmir Teymurun yürüşləri zamanı qaçıb, bu dağlara sığınmışlar. Görmürsünüzmü, erməni yaşayan yerlərə "sığnaq" deyirlər". Onların vətəni olmayıb. Ermənilər səyyar həyat sürüblər. Erməniyə vətən məhfumu yaddır. Harda yaxşı güzaran tapsalar, onlar üçün ora "vətən" hesab olunur.**

Şimaldan gələn həyəcanlı xəbərlər Qarabağ xanlığının sarayında narahatçılığa səbəb olurdu. Mirzə Əliməhəmməd ağaya Tiflisdən belə bir yazılı məlumat gəlmişdi ki, Qızlar istiqamətində rus qoşunları toplaşır. Rusiya imperiyasının nümayəndələri İraklinin yanına gəlir, nə isə aralarında danışıqlar aparılır. Qubalı Fətəli xan da Kür çayını tez-tez keçərək Qarabağ kəndlərini dağıdır və əhalini əsir aparırdı. İranda da xanlar biri-biri ilə mübarizə aparır, hətta Arazdan şimala da keçirdilər.

Belə bir mürəkkəb şəraitdə İbrahimxəlil xan Qarabağ xanlığının sərhədlərinin təhlükəsizliyi qayğısına qalır və Şuşanın möhkəmləndirilməsi işini davam etdirirdi.

Məliklər yenə də xanlığın daxilində pozuculuq işlərini davam etdirir, onun hərbi qüvvələri və daxili durumu haqqında ruslara məlumat verirdilər.

İbrahimxəlil xan qaynı Cümşüdü yanına çağırtdırıb, məsələni aydınlaşdırmağı qərara aldı. Xan Ağasi bəylə oturub, düşüncəyə dalmışdı. Bu zaman Cümşüd xanın otağına daxil oldu və salam verdi. Xan onun salamını almadı. Cümşüd bir qədər ayaq üstə qaldıqdan sonra xan onu qəzəblə süzüb, oturmağa icazə verdi. İbrahimxəlil xan qəzəblə danışmağa başladı:

- Balam, sən erməni, mən müsəlman, məndən pislik görmüsən?

Cümşüd itaətkarcasına:

- Allah eləməsin, xan - dedi, - həmişə sizdən hörmət görmüşük, biz bir ovuc erməni sizə nə edə bilərik. Biz ermənilər kimik ki, sizin bir sözünüzü iki eləyək. Evdə oturub, ev yiyəsi ilə dava eləmək olarmı?

- Yaxşı bəs bu məliklər məndən nə istəyirlər? Eşitdiyimə görə, Dizaq məliyi İsa özünü ləyaqətsiz aparır, ruslara arxalanmaq fikrinə düşüb, hətərən-pətərən danışır. Haram olsun ona verdiyim çörək! Bu saat silahlı dəstə göndərib, onun başını bədənindən üzdürüb, itlərə yem etdirərəm...

Cümşüd sakit səslə xana xatırlatdı ki, bu başı batmış məliklər mənim atama da yağı kəsilmişdilər, qudurğanlıq edirlər, onlar ən ağır cəzaya layiqdirlər.

Xan qəti bir səslə Cümşüdə dedi ki, papağınız donuz dərisindəndir, amma gerisindən xəbəriniz yoxdur. Adam gərək tutduğu işin gerisini yaddan çıxarmasın. I Pyotr sizə yalandan nələr vəd etmişdi, axırı nə oldu? Siz bu torpağa qonaq kimi gəlmisiniz, harda olmusunuzsa, ordan biabırcasına qovulmusunuz. Onun-bunun yalançı və’dlərinə aldanıb, yerli əhaliyə qarşı mübarizə aparmısınız. Nəticədə də qırılıb məhv olmusunuz.

İbrahimxəlil xan Ağasi bəyə müraciət edərək dedi:

- Bu saat 300 nəfər silahlı dəstə göndər, İsanın məsələsini həll etsinlər, malını, mülkünü müsadirə edib, yoxsullara paylasınlar. Mən onu Dizaq sığnağına yüzbaşı qoydum, daha özümə düşmən demədim.

Xanın bu sözlərindən dərhal sonra Kələntər Ağasi bəy ayağa qalxdı və “baş üstə” deyib otaqdan çıxdı.

Cümşüdün sifəti qorxusundan tamamilə dəyişmişdi, xanla otaqda tək qalması onu sanki işıqlı dünyadan ayırmışdı. Onun belə bir vəziyyətə düşməsi İbrahimxəlil xanın sərt baxışlarından yayınmadı.

- Gedə bilərsən, - xanın qəzəbli səsi eşidildi.

Cümşüd bütün gücünü toplayıb, birtəhər otaqdan çıxmağa hazırlaşarkən xan bir daha qətiyyətlə dedi:

- Get, ermənilərə de ki, nə qədər gec deyil, ağıllarını başlarına yığsınlar, sonra gec olar.

Gərgin vəziyyətdə olan Cümşüd sarayın artırmasına çıxdıqdan sonra dərindən nəfəs aldı, cibindən dəsmalını çıxarıb, alnının tərini sildi və saraydan uzaqlaşdı...

Otaqda tək qalan İbrahimxəlil xan bir qədər fikrə daldı, sonra ayağa qalxaraq o baş-bu baş gəzməyə başladı. Şahməhəmməd otağa daxil olub, xana hansısa məsələ barədə məlumat verməyə başladı. Bu zaman Vaqif içəri girdi, Şahməhəmməd söhbəti yarımçıq saxladı... Vaqifin otağa daxil olması xanı gərgin vəziyyətdən qurtardı. Şahməhəmmədin ona verdiyi məlumat sanki yaddan çıxdı, söhbət yarımçıq qaldı. İbrahimxəlil xan bir qədər əsəbi halda:

- Axund, - dedi: - görürsən ermənilər yenə də sakit durmurlar, elə deyirsən xoşluqla dolan. Bu da xoşluq! Badaralı Gapı Ballıca yolunu kəsib, gəlib-gedənə sataşır. Bu yaramazı məhv etmək lazımdır.

Vaqif düşüncəli tərzdə:

- Bunların hamısı məliklərin işidir. Elə bilirlər ki, rus gəlib, bunları xan edəcək, məgər bunlar hələ də başa düşmürlər ki, Nadir şahın onlara verdiyi saxta hüququn vaxtı çoxdan qurtarıb. Bir ovuc ermənінin nə istədiyini heç özləri də bilmirlər. Bu, bədbəxtçilikdir.

Daha sonra Vaqif təəssüf hissilə bildirdi ki, araqarışdıranlar, əlbəttə, cəzalarını almalıdırlar. Başqa çıxış yolu yoxdur. Bunlar sakit otursaydılar, elə Loristanda qalardılar, daha qaçıb, Qarabağa gəlməzdilər. İsa da və ona kömək olan yaramazlar da öz layiqli cəzalarını mütləq almalıdırlar. Bəzi qonşu xanlıqların bizə qarşı pozuculuq hərəkətlərini davam etdirdikləri bir zamanda ermənilərin düşmənçilik hərəkətləri yolverilməzdir. Qəti tədbirlər görmək vaxtı gəlib-çatıb.

Şimaldan Rusiya imperiyasının, cənubdan İranın Şimali Azərbaycan xanlıqları üçün təcavüzkarlıq hərəkətlərinin gücləndiyi bir zamanda məlikləri susdurmaq və onları zərərsizləşdirmək zamanın ən mühüm tələblərindən biri idi.

İbrahimxəlil xan Vaqiflə, Kələntər Ağasi bəylə, Şahməhəmmədlə və başqa saray məmurları ilə hərtərəfli məsləhətləşmələrdən sonra qardaşı oğlu, Qarabağ xanlığında igidliyi və mərdliyi ilə məşhur olan Batmanqılınc Məhəmməd bəyi yanına çağırıb dedi:

- Oğlum, səninlə fəxr edirəm. İgidlərini də yığ başına, get Badaralı Gapını aradan götür. İlk növbədə, Badara məliyini asdırarsan! Daha sonra yerin deşiyində də olsa, Gapını tapıb, lazımınca cəzasını verərsən. Qoy bilsin ki, duz-çörəyə xəyanət nə deməkdir. Mən özüm Naxçıvana gedirəm. Naxçıvan xanı məni tanımaq istəmir. Gapı məsələsini həll etdikdən sonra Xudafərin körpüsünə çıxarsan, ordan da Naxçıvana gedərik.

Məhəmməd bəy əmisindən aldığı tapşırığı yerinə yetirmək üçün elə həmin gün, İbrahimxəlil xan isə iki gündən sonra səfərə çıxdı. Xan sarayda, şəhərdə və xanlığın başqa yerlərində asayişi təmin etmək üçün yerində qoyduğu Kələntər Ağasi bəyə böyük səlahiyyətlər verdi.

Məhəmməd bəy Badaraya gəlib, əmisindən aldığı tapşırıqları tamamilə yerinə yetirdi. Sonra Xudafərin körpüsünə doğru hərəkət etdi. Xan Xudafərin körpüsünə çatdıqda Məhəmməd bəyi başının adamları ilə birlikdə onu gözlədiklərini gördü. Məhəmməd bəy Gapının eybəcər başını xanın ayaqları altına atdı...

İbrahimxəlil xan Naxçıvan xanı Kəlbəli xanla münasibətlərini qaydaya salıb, geri qayıtdı.

Rus-Osmanlı müharibəsi 1768-ci ildən davam edirdi. Müharibə 1774-cü ildə Kiçik Qaynarca sülhü ilə başa çatdı və Rusiya Krımı işğal etdi. Bununla da, Qara dənizə çıxış yolu qazandı. Rusiya Şərq planını həyata keçirməyə başladı. Bu, ilk növbədə, məliklər və keşişlər tərəfindən sevinclə qarşılanırdı. Məliklər və keşişlər ruslardan yenə ümid gözləyirdilər. Rusiyanın verdiyi boş vədlər erməniləri məhv olmaq dərəcəsinə gətirib-çıxarmışdı. Keşiş Ohan erməni sığnaqlarını gəzir, nəsihətlər verir və erməniləri məliklərə inanmamağa çağırırdı. O, sığnaqlardan qayıtdıqdan sonra Vaqiflə görüşmək və

məsləhətləşmək qərarına gəldi. Ohan görüşə gələrkən Axund həyətində bənövşə dərirdi. O, keşişi mehribancasına qarşılayıb, evə apardı. Ohan dedi:

- Axund, səninlə məsləhətləşməyə gəlmişəm. Yenə bu yaramaz məliklər sarsaqlaşıblar, Allah axırını xeyir eləsin...

Vaqif böyük bir maraqla Ohanı dinləməyə başladı. O, isə sözünə ara vermədən əsəbi halda danışırdı. Deyirdi ki, məliklər rus padşahına bir ərizə yazıblar. Ərizə iftira və yalanlarla doludur. Onların bu hərəkətləri adamı dəhşətə gətirir.

Vaqif Ohanı dinlədikcə xəyala dalır və daxilən əsəbi hal keçirirdi.

Vaqif Ohandan soruşdu:

- Onlar ruslardan nə istəyirlər?

- Nə istəyəcəklər, istəyirlər ki, rus bura gəlib bir erməni hökmranlığı qursun. Mən qorxuram ki, yenə qan tökülər, camaat qırılar. Vartapet Minasın qəbrinə lənət...

Vaqifin təklifi bu oldu ki, məliklərin hərəkətlərini İbrahimxəlil xana bildirmək lazımdır. Camaat qırılınca qoy beş məlik, beş də tüğyan etmiş keşiş ölsün. İbrahimxəlil xan, Vaqif və Ohan məsləhətləşib qurtardıqdan sonra keşiş Ohan evinə getdi. Otaqda qalan İbrahimxəlil xanla Vaqif hərtərəfli məsləhətləşməyə və qəti qərar çıxarmağa başladılar. Vaqif ümidverici bir səslə İbrahimxəlil xana dedi:

- Xan sağ olsun, erməniləri qırsaq, onda rusların əlinə bəhanə düşər, bundan bizə heç bir xeyir gəlməz. Mənə elə gəlir ki, rusların ən başlıca siyasəti İrana qapı açmaqdan ibarətdir. Ona görə də rus ermənidən istifadə etmək istəyir. Orinin İrana səfərini yada salmaq kifayətdir. Biz də yazaq. Bildirək ki, erməni kimdir, onlar bizim torpaqlara nə vaxt gəliblər, beş-on ermənini məliklər və keşişləri birə kimi canımıza salıb, öz murdar məqsədləri üçün onlardan istifadə edirlər. Mənim məsləhətim belədir. Bir yaxşı kağız yazım, sənin xan övladı olduğundan, iyirmi ildir ki, Qarabağ torpağında hökmranlıq etməyindən, xanlığın gücündən, sənin şəxsi nüfuzundan rus hökumətinə ətraflı məlumat verim. Eyni zamanda da Rusiya

hökumətinə bildirək ki, himayənizə girməyə və bac verməyə də razıyıq. Kağız sabah hazır olar. Kağızı Musa Soltan vasitəsilə rus nümayəndəsinə çatdırmaq olar. Musa Soltan bacarıqlı, dilavər bir adamdır. Beləliklə, biz rusu erməni fırıldaqlarından ayırıb, öz tərəfimizə çəkə bilərik.

Xan Vaqifin təklifini qəbul etdi. Vaqif məlik Abonun tutulub, zindana salınmasını da məsləhət bildi. Ona görə ki, aranı qarışdıran odur. Ayrı tənbeh lazım deyil.

Vaqif saraydakı otağına çəkilib, Rusiya imperatriçəsi II Yekaterinaya olduqca tutarlı bir məktub yazmağa başladı. Bu, o məktub idi ki, Peterburq sarayında Qarabağ xanlığına qarşı hazırlanan məkrli planı tamamilə heçə çıxardı. Ermənilərin 1783-cü ilin mart ayında Peterburqa yazdıqları böhtanla dolu ərizələrinin üzərinə knyaz Potyomkin-Tavriçeski yazmışdı: "İbrahimxəlil xanı hakimiyyətdən salıb, Qarabağda erməni əyaləti yaratmaq lazımdır".

Vaqifin Peterburqa yazdığı məktub 1783-cü ilin aprel ayında çatdı. Bu məktub Potyomkini əvvəlki niyyətindən danışırdı. O, bu məktubun üzərinə belə bir dərkənar yazmışdı: "İbrahimxəlil xanın bizə qarşı bəslədiyi sədaqət rus çariçası üçün ən gözəl bir bacdır" deyərək öz fikrini ifadə etmişdir. Bu barədə Potyomkin Qarabağ xanı İbrahimxəlil xan Cavanşirə də xəbər göndərmişdi.

Qarabağ xanlığının bu dövrdə xarici siyasətinin ən başlıca vəzifələrindən biri rus işğalının qarşısını almaq, erməni böhtanlarını heçə çıxarmaq, onların bu diyara gəlmə olduqlarını ruslara başa salmaqdan ibarət idi. İbrahimxəlil xanla birlikdə Vaqif də bu sahədə böyük işlər görürdü. Rusiya ilə münasibətlər tədricən qaydaya düşürdü...

Rusiya Cənubi Qafqaz uğrunda mübarizəsini bir an da olsa, təxirə salmırdı. Özünə möhkəm dayaq yaratmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1783-cü il iyulun 24-də Rusiya imperiyası ilə Kartli-Kaxetiya (Gürcüstan) çarlığı arasında Şimali Qafqazın Georgiyevsk qalasında traktat imzalandı. Bu traktata əsasən Gürcüstan Rusiya imperiyasının

himayəsi altına keçdi. Gürcüstan hakimi II İrakli özünün və varislərinin adından Rusiya çarının ali hakimiyyətini və himayəsini qəbul etməklə tarixi məsuliyyəti öz üzərinə götürdü. Traktata əsasən Rusiya da üzərinə müəyyən təəhhüdlər götürürdü. Belə ki, II İraklinin çarlığının bütövlüyünün və Gürcüstan taxt-tacının qorunmasını Rusiya öz üzərinə götürür, hakimiyyətdə vərəsəlik hüququnu qəbul edirdi. II İrakli daxili idarəetmə işlərində də müstəqilliyini saxlayırdı, xarici siyasətdə isə Tiflis şəhərində olan səlahiyyətli rus məmuru ilə hesablaşmalı idi. Rusiya Tiflisdə hərbi qüvvə saxlamaq hüququ da əldə edirdi.

Gürcüstanın Rusiya himayəsinə keçməsindən İbrahimxəlil xan da xəbər tutdu. Vaxt itirmədən bütün dövlət məmurlarının, ağaların, bəylərin və din xadimlərinin iştirakı ilə geniş müşavirə çağırdı. Yaranmış beynəlxalq şərait müzakirə olundu. Müşavirə iştirakçıları ikili mövqedə dayandılar. Bir qrup İrandan, digər qrup isə Osmanlı Türkiyəsindən kömək istəməyi irəli sürürdü. Məsələ hərtərəfli müzakirə edildi. İbrahimxəlil xan və Vaqif bütün çıxışları, rəy və təklifləri səbrlə dinləyir, heç kimin sözünü kəsmirdilər. Kələntər Ağasi bəy Şahməhəmməd İbrahimxəlil xanın və Axund Vaqifin məsələyə necə münasibət bildirəcəklərini böyük intizarla gözləyirdilər. Onlar da Qarabağ xanlığının gələcək taleyi üçün məsuliyyət daşıdıqlarını yaxşı bilirdilər. Mirzə Əliməhəmməd də dərin xəyal içərisində idi. Axı xanlığın tale yüklü məsələsi həll olunurdu.

Vəliəhd Məhəmmədhəsən ağa da gərginlik içərisində idi. O, bu vəziyyətdən xilas olmaq üçün söz alıb, sakit tərzdə dedi:

- Mənə elə gəlir ki, ruslarla razılaşmaq məqsədə müvafiqdir. Rus hökumətinin özü də buna can atır... Rusiya dövləti güclü dövlətdir, son zamanların siyasi hadisələri də onun gücünü sübut edir.

Məhəmmədhəsən ağanın bu çıxışı müşavirə iştirakçılarının bir hissəsində mübahisələrə səbəb oldu. Ağalardan biri təəccüblü səslə dedi:

- İslam məmləkətinə kafir buraxmaq olarmı? Dinimizi,

şəriət qanunlarımızı niyə nəzərə almırsınız? Allah mənə o günü göstərməsin!

Nəhayət İbrahimxəlil xan müşavirədə yaranmış gərgin vəziyyəti yumşaltmaq məqsədilə danışmağa başladı:

- Kim deyir ki, Qarabağ xanlığını rusa verək? Mən sağ ola-ola bu işə yol verərəmmi?

Burda xanın səsində bir zəiflik yarandı, rəngi dəyişildi, əsəblərini sakitləşdirmək üçün qəlyan çəkməyə başladı. Xanın vəziyyəti məclisdəki ab-havanın dəyişilməsinə və iştirakçıların sakitləşmələrinə səbəb oldu. Otaqda dərin sükut yarandı. Yaranmış vəziyyəti Vaqifin mənalı və tutarlı çıxışı aradan qaldırdı:

- Xan sağ olsun, ümidsizliyə qapılmaq olmaz, düşmən qapımızın ağzını kəsməyib? Atalar demişkən, nəyinən yoldaş ol, amma əlindən ağacı yerə qoyma! Biz də öz işimizi əvvəlcədən ehtiyatlı tutmalıyıq. Xanlığın müstəqilliyini, təhlükəsizliyini və suverenliyini qoruyub-saxlamaq məqsədilə bütün tədbirlər görülmüş və görülür. Silahlı qüvvələrimizin sayı 7 minə qədərdir. Bunların 3 mini ləzgilərdir. Lazım gələrsə, Əmmə xandan əlavə canlı qüvvə almaq olar. Xanın zəngin xəzinəsi və çoxlu ərzaq anbarları əhalini və ordunu uzun müddət saxlamağa kifayət edər.

Vaqif danışdıqca ətrafdakıları nəzərdən keçirirdi. Hamı onu maraqla dinləyirdi. Vaqif bundan istifadə edərək son fikrini açıqladı:

- Elçilərimizi göndərək, bizim də himayəyə girmək arzumuzu Tiflisdə rus nümayəndəsinə bildirsin. Biz vəziyyəti sonra bir daha götür-qoy edərik. Elə bu saat rusun himayəsinə girmirik ki!

Vaqifin fikri məclisdə yenidən etirazların başlanmasına səbəb oldu. Lakin o, inandırıcı dəlillərlə məclisi yenidən sakitləşdirə bildi.

İbrahimxəlil xan Vaqifin çıxışını dinlədikcə sakitləşir, özündə daxilən yüngüllük hiss edirdi. Ona görə də neypuşu (qəlyanı) xüsusi bir zövqlə çəkir, arabir də gülümsəyirdi.

Gözlənilmədiyi halda xan yenidən məclisi gözdən keçirib dedi:

- Axund Vaqif özü Tiflisə getməlidir. Onunla birlikdə səlahiyyətli adamlar da gedəcək. Yazı-pozu işlərini də Mirzə Camal aparar, yaxşı xətti var. Mən Axund Vaqifə geniş ixtiyar verirəm. Məsləhət necədirsə, elə də edər, özü arif və aqil insandır.

Xanın təklifi məclis tərəfindən böyük razılıqla qarşılandı. Hamının gözlərində ümidverici bir işıq yarandı. Bu işıq gələcəyə yol açırdı...

Qışın oğlan çağı idi. Şuşa qalası dümağ xalat geyinmişdi. Hava sakit və şəffaf idi. Adamlar nəfəs aldıqca yüngülləşir, yumşaq qar üstündə həvəslə gəzir, tanışlar bir-birinə qartopu atırdılar. Səma açıq olduğu üçün günəşin parlaq şüaları hər tərəfə yayılır və təbiətə xüsusi gözəllik verirdi.

Vaqif uzaq səfərə hazırlaşmasına baxmayaraq, hərdən pəncərədən təbiət mənzərəsini seyr etməkdən doymurdu. Vaqifin arvadı Mədinə Vaqifin yol tədarükü ilə məşğul idi. O, qış paltarlarını səliqə ilə seçir, təmiz və yaraşıqlı geyim əşyalarını evin bir tərəfinə yığırdı. Yol üçün geyim əşyalarını Vaqif özü seçməli idi. Bu, belə də oldu.

Vaqif Tiflisə böyük ümidlə gedirdi. Gedirdi ki, xanın ona etibar etdiyi missiyanı layiqincə yerinə yetirə bilsin. Bunun üçün o özündə güc və inam hiss edirdi. Gedirdi ki, Qarabağ xanlığının varlığı üçün əlindən gələni etsin, Pənahəli xanın onlar üçün qoyub-getdiyi Qarabağ xanlığını qoruyub-saxlaya bilsin... Bütün bunlar sanki Vaqifə qol-qanad verirdi. O, dağ qartalı kimi Tiflis istiqamətində uçmaq həvəsində idi...

Vaqifin başçılıq etdiyi Qarabağ nümayəndə heyəti Tiflisə gedərkən yolda çox əziyyət çəkdi. Soyuq qış havası, qalın qar yollarda gediş-gəlişə böyük maneə törədirdi. Atların burunlarından çıxan hava sanki vulkana bənzəyirdi. Buz bağlamış yollarda atlar arabir büdrəyirdilərsə də, cəld Qarabağ atları üçün bunlar adi bir hal idi. Vaqifgil Tiflisə çatan kimi II İraklinin mehmandarları onları gürcü zadəganlarından birinin evinə apardı. Uzun yol atların yorulmasına təsir göstərmişdi.

Nökərlər atları rahatladılar, onların tərləri silinib-qurulandı, arpa-saman verildi.

Vaqif bir qədər istirahət etdikdən sonra həsrətində olduğu Tiflisi gəzməyə çıxdı. Sonra isə Tiflis hamamına getmək və yorğunluğunu çıxarmaq istədi. Bunu hiss edən Mirzə Camal sakit bir tərzdə dedi:

- Axund, yoldan sonra bu qarlı havada hamama getmək olmaz, adam xəstələnə bilər, bu işi sonraya saxlamaq yaxşı olardı.

Vaqif qırmızı yanaqlı, aydın nitqə malik olan Mirzə Camala ata məhəbbəti ifadə edən gözləri ilə baxaraq dedi:

- Oğlum, mən dağlarda böyümüşəm, soyuq, şaxta mənə kar etməz. Su yolun yorğunluğunu canımızdan çıxarar, bir-iki gün evdə oturub-dincələrik.

Vaqif nümayəndə heyəti ilə birlikdə Tiflisi gəzib, yenə də onlar üçün ayrılmış iqamətgaha qayıtdılar. Bir neçə gündən sonra II İraklinin nümayəndəsi Vaqifin yanına gəlib, bildirdi ki, yanvarın 22-də rəsmi ziyarət olacaq, gəldim ki, sizi xəbərdar edim.

Tiflis bayramsayağı bəzədilmişdi. Yanvarın 22-də 101 topdan açılan atəş bayramın başlandığını şəhər əhalisinə xəbər verdi. Rəsmi keçid çarın nümayəndəsi, polkovnik S.D.Burnaşevin yaşadığı mənzildən başlayıb, II İraklinin sarayına getməli idi. Vaqif və onun başçılıq etdiyi nümayəndə heyəti rəsmi keçidə qoşulmadılar, kənarda dayanıb, onu seyr etməyə başladılar.

Rəsmi keçid qurtardıqdan sonra Rusiyanın nümayəndələri bir-bir yaxınlaşaraq Rusiyanın himayəsinə keçməsi şərəfinə İrakliyə əl verib, təbrik etdilər. Növbə Vaqifə çatdıqda o, irəli yeriyib, II İraklinin əlini sıxdı və İbrahimxəlil xanın adından onu təbrik etdi. II İrakli qaşlarının altından Vaqifi süzərək türkcə dedi:

- Dostum İbrahimxəlil xana məndən çox-çox salam söyləyin!

Sonra qonaqlar yemək otağına dəvət olundular. II

Yekaterinanın və II İraklinin şərəfinə badələr qaldırıldı, sağlıqlar deyildi. Söz Vaqifə verildi. O, dərin məzmunlu çıxış etdi. II İraklini vali kimi şərəfləndirdi. Bu, II İrakliyə xoş gəlmədi. Çünki o, artıq İranın dörd valisindən biri deyildi. Rusiyanın himayəsinə keçmiş müstəqil padşah idi. Vaqifin vali deməsi Burnaşevi də razı salmadı. Vaqif İraklini padşah adlandırmaqla İranı narazı sala bilərdi. Bunu o, yaxşı bilirdi. Burnaşev ilk dəfə olaraq incə Şərq diplomatiyası ilə qarşılaşdığını hiss etdi. Hiss etdi ki, Vaqifin çıxışı Qarabağ xanlığı ilə İranın münasibətlərinin pozulmamasına yönəldilmişdir.

Vaqif və onun başçılıq etdiyi nümayəndə heyəti Tiflisdə iki həftə qaldı. Bu müddət ərzində o, şəhərin tarixi yerləri ilə tanış oldu. II İraklinin andiçmə mərasimində Qarabağ nümayəndələri də iştirak etdilər. Vaqif II İrakli ilə bir daha görüşə bilmədi. Səbəb o idi ki, imzalanan müqaviləyə görə Gürcüstan hakimi yalnız Burnaşevdən başqa, digər xarici nümayəndə heyəti ilə görüşə bilməzdi, onun razılığı olmadan bir addım da ata bilməzdi. Rusiya imperiyasının müstəmləkəçilik siyasəti ilk anlardan özünü açıq surətdə göstərirdi. Vaqif bunu dərindən hiss edirdi.

Vaqif II İraklinin düşdüyü vəziyyətdən məyus oldu. İrakli nümayəndəsi vasitəsilə Vaqifə Burnaşevlə görüşməsini məsləhət gördü. Vaqif İraklinin təklifini qəbul etdi.

Vaqif rus məmurunun qəbuluna böyük qürurla, Qarabağ xanlığının gücünü və əzəmətini nümayiş etdirən vəzir kimi getdi. Onun mindiyi Qarabağ atı Tiflis küçələrindən keçərkən adamlar atın yerişinə, onun sahibinə maraqla baxırdılar. Atın hərdənbir kişnəməsi sanki Qarabağ xanlığının gücünü, əzəmətini nümayiş etdirirdi.

Vaqif Burnaşevin qəbuluna tək getdi. Bəylərin məmurun yanına getmələrinə razı olmadı. Yalnız özü ilə Mirzə Camalın getməsini məsləhət bildi. Vaqif Burnaşevin otağına daxil olanda məmur masanın sol tərəfində dayanmışdı. Vaqif onu diqqətlə süzdü... Divardan asılan II Yekaterinanın iri rəsmi ilə Burnaşevin arasında heç bir fərq olmadığı Vaqifin nəzərini

özünə cəlb etdi. İmperatriçənin sifəti, gözləri, qaşları, dodaqları eynilə Burnaşevdə idi. Bu zaman Vaqif ürəyində “mal yiyəsinə oxşamalıdır” atalar sözünü yada saldı. S.D.Burnaşev Vaqifə nəzakətlə əl verib, əyləşməsini xahiş etdi. Hər ikisi əyləşdi. Mirzə Camal da Vaqifin sol tərəfində, masanın qarşısında əyləşdi. Onlar bir sıra rəsmi söhbət etdilər, tərcüməçi Vaqiflə Burnaşevin danışıqlarını tələsmədən, aydınlıqla tərcümə edirdi. Bu arada Burnaşev Yekaterinanı tərifləməyə başladı. Tiflisə qoşun yeritməsini əhalinin asayişinin qorunması ilə izah etdi. Rusiyanın əsl məqsədindən, işğalçılıq siyasətindən bir kəlmə də olsun danışmadı və danışa da bilməzdi.

Sonra Burnaşev əsl məsələyə keçdi:

- Biz möhtərəm hökmdarımız İbrahimxəlil xanla da dost olmaq istəyirik. Mərhəmətli çariçə himayəedici əlini sizə də uzatmaq istəyir. Xan yalnız bizim himayəmizdə öz taxtında həmişəlik qala bilər...

Uzaqgörən Vaqif Burnaşevin bu saxta sözlərini dinləyir və şərqlilərə məxsus şübhə ilə onun incə dodaqlarına və ağ dişlərinə tamaşa edirdi. Burnaşev danışığını qurtarar-qurtarmaz Vaqif sözə başladı:

**- İbrahimxəlil xan adlı-sanlı nəslin nümayəndəsidir. Qarabağ xanının Şərqin açarı sayılan Şuşa kimi əzəmətli qalası var, - deyə qüvvət və qüdrətinin Təbrizə qədər hökmü yeridiyini məmurun nəzərinə çatdırdı: - Biz əlahəzrət çariçə ilə də dostluq münasibətləri saxlamaq fikrindəyik. Bir az dayanaraq ciddi bir baxışla Burnaşevi süzdü və sonra İraklinin bağladığı müqaviləyə işarə edərək eyni şərtlərin İbrahimxəlil xanın da qəbul edəcəyini sezdirdi.**

Burnaşev gülümsündü. Onun bu hərəkətində çar nümayəndəsinin bu şərtlərə razı olmadığı aşkar surətdə hiss olunurdu. Burnaşevin siması birdən-birə sərtləşdi:

- Siz əlahəzrət çariçənin alicənablığına, mərhəmətinə inanmalısınız, bu, sizin üçün böyük ne’mət ola bilər.

**Vaqif də ciddi bir şəkildə:**

**- Mərhəmət böyük nemətdir, çox doğru deyirsiniz, lakin ölkələr arasında münasibətlərin də qayda-qanunu var. İbrahimxəlil xan vüqarlı, uzaqgörən dövlət xadimidir. Mən deyə bilmərəm o, sizin irəli sürdüyünüz şərtləri qəbul edəcək, ya yox! Xan üçün xanlığın tam müstəqilliyi onun üçün hər şeydən əzizdir. Bunu sözlə ifadə etmək çox çətindir.**

**Vaqifin bu məğrurluğu Burnaşevə güllə kimi təsir etdi. Vaqifin tutarlı dəlilləri qarşısında məmur olduqca cılızlaşdı və özünü itirdi... Necə deyərlər, daş qaya ilə qarşılaşmışdı.**

Vaqif və onun rəhbərlik etdiyi nümayəndə heyəti Şuşaya gələn kimi baş vəzir İbrahimxəlil xanın qəbuluna getdi. Tiflisdə gördüklərini, Rusiya dövlətinin Gürcüstanla imzaladığı müqavilənin mahiyyətindən xana ətraflı məlumat verdi. Daha sonra Tiflisdəki çar məmurunun Qarabağ xanlığının da qeyd-şərtsiz Rusiyanın himayəsinə girməsi haqqındakı fikirlərini də İbrahimxəlil xanın nəzərinə çatdırdı. Vaqifin bu sözləri İbrahimxəlil xanın qəzəbinə səbəb oldu. Vaqif xanı sakitləşdirmək üçün xanlığın bütün mənafelərini qoruduğunu xanın nəzərinə çatdırdı.

**- Mirzə Əliməhəmmədin dalınca adam göndərmişəm, gəlsin məsləhətləşək, - deyə İbrahimxəlil xan əsəbi tərzdə danışmağa başladı.**

**Vaqif nikbin bir vəziyyət alaraq dedi:**

**- Xan sağ olsun, rusları ələ almaq üçün imkanımız var. İndi biz müdafiə işlərimizi daha da gücləndirməli və ərzaq ehtiyatlarımızı artırmalıyıq. Razılığa gələ bilmədiyimizi ermənilər yəqin ki, biləcəklər. Ona görə də onlar apardığımız işlər haqqında Tiflisə xəbər çatdıracaqlar, haram olsun onların yediyi çörək! Torpağımızda özlərinə sığınacaq tapmalarına baxmayaraq, özlərini düşmən kimi aparırlar.**

**Söhbətin şirin yerində Mirzə Əliməhəmməd ağa icazə alaraq otağa daxil oldu. O, İranda baş verən siyasi**

**hadisələrdən, xarici dövlətlərin Ağa Məhəmməd xan Qacarla münasibətlərindən ətraflı məlumat verdi. Sözünün sonunda Mirzə Əliməhəmməd ağa onu da bildirdi ki, tacirlərin gətirdikləri xəbərə görə Firəngistan hökuməti İsfahana elçi göndərib, Ağa Məhəmməd xan Qacarla danışıqlar aparırlar.**

**İbrahimxəlil xan İran haqqında Vaqifin fikrini öyrənmək üçün nəzərini ona yönəltdi. Vəzir özünəməxsus qürurla: - Xan sağ olsun, İrandan bizə hələlik qorxu yoxdur, əsas məsələ rus məsələsidir. Ermənilər bizdən rusa yenə də böhtanla dolu kağız yazacaqlar, İrakli bizdən uzaqlaşıb, Gəncəni və İrəvanı onun əsarətindən qurtarmalıyıq. Süleyman paşa ilə əlaqə yaratmaq lazımdır. Əmmə xan hücuma hazır olmalıdır. Təzyiqə məruz qalan xanlarla əlaqə yaratmaq və onlara kömək lazımdır. Fətəli xanla, Şəki hakimi Əbdülqədir xanla dil tapmaq, qüvvələri birləşdirmək lazımdır. Onda güclü olarıq, sözümüzün kəsəri olar.**

**İbrahimxəlil xan çox məyus idi. Otaqda tək qalıb, xəyala dalmışdı. Mən dəfələrlə kömək verib, dardan qurtardığım İrakliyə tac gəlsin, peşkəşlər verilsin... Mənə də şərtsiz-sübutsuz təbəəlik təklif olunsun. İraklinin mənimlə iyirmi illik dostluğu xəyanətlə başa çatdı. İndi də deyir Qalanın qapısını aç, düşməni içəri burax, erməni qəddini düzəltsin.**

**Musa Soltanın çar sarayından nə xəbərlə qayıdacağını İbrahimxəlil xanla Vaqif səbirsizliklə gözləyirdi. Onun apardığı məktubda Qarabağ xanlığının himayəyə hazır olduğu, xanın hakimiyyətdə qalacağı, daxili işlərimizə qarışmamaq və Qarabağ torpağında asayişin pozulmaması qeyd edilmişdi.**

**İbrahimxəlil xan xəyaldan ayrılıb, qəti bir səslə dedi:**

**- Dünya dağılsa da, mən rusun təklif etdiyi boyunduruğu qəbul etməyəcəyəm. Ermənilərin heçdən tarix səhnəsinə çıxmalarına yol verə bilmərəm. Valiyə edilən hörmət mənə də edilərsə...**

**Bu zaman Musa Soltan içəri daxil oldu. Onun gətirdiyi məktub Tiflisdə Burnaşevin Vaqifə dediklərini özündə ehtiva edirdi.**

Qasid həyəcanlı xəbər gətirdi, qonşu xanların Qarabağ ərazisinə hücum edib, soyğunçuluqla məşğul olduqlarını İbrahim xana xəbər verdi... Vəziyyət yaxşı deyildi. Qarabağ igidləri onları susdurmalı idilər və bu işi uğurla başa çatdırdılar.

İbrahimxəlil xan əhalini məhv olmaqdan qurtarmaq və dağıntıların qarşısını almaq üçün Məhəmməd bəyi hüzuruna çağırıb, Ağdam istiqamətində baş verən siyasi hadisələrin tezliklə qarşısını almağı əmr etdi. Məhəmməd bəy ən yaxın silahdaşı Səfər vasitəsilə çox qısa vaxt ərzində 3000 qoşun toplayıb, yola düşdü.

**İbrahimxəlil xan, Məhəmmədhəsən ağa, Mirzə Əliməhəmməd, Şahməhəmməd və başqaları qoşunla birlikdə xanlığın müəyyən istiqamətlərindən hərbi yürüşə başladılar. Əlbəttə, xanın silahlı qüvvələri igidlik göstərərək Qarabağ xanlığının ərazisinə soxulmuş qarətçi silahlı dəstələri bir neçə gün ərzində vurub, ərazidən çıxartdılar. Əsir alınan əhali və onların qarət edilmiş əmlakları, mal-qara düşməndən alındı.**

**İbrahimxəlil xan Şuşa qalasına qayıtdıqdan sonra müşavirə çağırdı. Ağasi bəy görülən işlər haqqında məlumat verərək bildirdi ki, Məlik Abo, Məlik Məcnun və Qanzasar keşişi satqınçılıq etdiklərinə görə nəzarət altına alınmışlar. Onlar Tiflisə adam göndərib, rusları Qarabağa hücum etməyə çağırmışlar. Bu xəbər xanı sarsıtdı. Xan bildirdi ki, mən Abonu niyə salamat buraxdım ki, indi mənə qarşı qiyam qaldırsın. İbrahimxəlil xan Kələntər Ağasi bəyə göstəriş verdi ki, satqınları tutub mənim yanıma gətir. Ağasi bəy baş üstə deyib, otaqdan çıxdı.**

**Vaqiflə Mirzə Əliməhəmməd saraydan çıxıb, piyada evə gedirdilər. Saatlı məhəlləsində onlar keşiş Ohanla qarşılaşdılar. Ohan ermənilərin hərəkətlərini eşitmişdi. Utana-utana salam verdi, məliklərə və keşişə lənət oxudu.**

**Onları gətirmək üçün atlı dəstə göndərildiyini Vaqif keşiş Ohana bildirdi.**

Ağasi bəy iki həftədən sonra sığnaq səfərindən geri döndü. Qanzasar keşişinin evindən knyaz Potyomkinə yazılmış məktublar tapıldı. Xəyanətlərinin üstünün açıldığını görən Abo və Məcnun Ağasi bəyin gəlməsi xəbərini eşidib, Gəncə yolu ilə rus qoşunlarının yanına qaçdılar.

Ağasi bəy Məcnunla Abonu ələ keçirə bilmədiyindən çox narahat idi. Fikirləşirdi ki, nə üçün onları Çiləbörd məliyi Allahqulunun yanına göndərmədik. Rəhmətlik Pənahəli xanın dövründə o, özünü düzgün aparmadığı üçün çox haqlı olaraq xan onu cəhənnəmə göndərmişdi. Gərək biz də satqınları, üzə ağ olanları da həmin yerə göndərək.

Georgiyevsk müqaviləsindən dörd il sonra Türkiyə ilə Rusiya arasında yenidən müharibə başlandı. Rusiyanın başının müharibəyə qarışması nəticəsində Qafqaza müdaxilə müvəqqəti olaraq təxirə salınmışdı. İranda da daxili vəziyyət mürəkkəb olaraq qalırdı. Hakimiyyət uğrunda mübarizə yeni mərhələyə daxil olmuşdu. Bütün bunlar Qarabağ xanlığında müvəqqəti də olsa, sakitliyə zəmin yaratmışdı. İbrahimxəlil xan bu vəziyyətdən istifadə edərək daxildə təxirə salınmaz işlər həyata keçirirdi. Şimali Azərbaycan xanlarından heç biri indi İbrahimxəlil xana mane ola bilmirdilər. Deməli, xan gələcək mübarizələrə hazır olmaq üçün xanlığın möhkəmləndirilməsini davam etdirirdi.

**1787-1791-ci illər Türkiyə-Rusiya müharibəsi davam edirdi...**

**Qarabağda payız fəslinin qızıl çağı idi. İbrahimxəlil xan yorğunluğunu və gərgin vəziyyətini yüngülləşdirmək üçün yaxın adamlarından ibarət yüz atlı ilə Yevlax istiqamətində ova çıxmışdı. Vaqif Şəki xanının ona bağışladığı naxışlı tüfəngini atının yəhərinin qaşından asmışdı. Əllərinə əlcək geymiş quşçular əllərində iyirmiyə qədər qızıl quş tutmuşdular. Ovçular ov tulası götürməmişdilər, çünki quş ovunda tula götürməzdilər.**

**İbrahimxəlil xan ovçuluğa hərbi məşğələ kimi baxırdı. Dəqiq nişan almaq, vəhşi heyvanlarla mübarizə aparmaq, çeviklik və güc lazım idi. Döyüşçülərə bu keyfiyyətlər aşılanırdı.**

**Ağa Məhəmməd xan Qacarın İranda hakimiyyəti ələ alması Qarabağ xanlığında da birmənalı qarşılanmadı. Məhəmmədhəsən ağa ilə Vaqifin arasında gedən söhbət zamanı axund ona ehtiyatla bildirdi ki, nicat yolunu İranda görmürəm. Xanlığın mənafeyi naminə hansısa bir sədaqətli dövlətə meyl etməliyik. Məhəmmədhəsən ağa da eyni fikirdə olduğunu bildirdi...**

**Söhbət Şahməhəmmədin dəfn mərasimində baş verdiyindən söhbətin genişlənməsini məqsədəuyğun hesab etmədilər.**

Duman ətrafı bürümüşdü, göz-gözü görmürdü. Dəfn mərasimi başa çatdıqdan sonra hamı şəhərə doğru qalxmağa başladı. Adamlar dərin sükut içində idi. Şahməhəmməd xanın sədaqətli məmurlarından biri idi.

Nəhayət, İranda hakimiyyət uğrunda gedən mübarizədə Ağa Məhəmməd xan Qacar bütün rəqiblərinə qalib gələrək şahlıq kürsüsünə yiyələndi. Onun Təbrizə gələn nümayəndəsi Süleyman xan İrəvan və Naxçıvan xanlarını İran himayəsinə çağırdısa da, rədd cavabı aldı. Daha sonra İrəvan, Qarabağ, Talış, Dağıstan xanlarına və Gürcüstana elçilər göndərərək İran himayəsinə girməyi təklif etdi, yenə rədd cavabı aldı. Şəki, Şirvan, Dərbənd, Bakı xanlıqları Ağa Məhəmməd xanın elçilərini hörmətlə qəbul edib, İran himayəsinə keçməyə razı olduqlarını bildirdilər. Gəncə xanı Cavad xan isə tərəddüd edirdi. Əslində, o, İrana meylli idi...

İran təhlükəsi Qarabağ xanlığının sarayında təşviş yaratmışdı. Bir neçə il əvvəl yaranmış əmin-amanlıq birdən-birə pozulmuşdu. Şuşa qalasının kələntəri Ağasi bəyin əsas işi xanın verdiyi tapşırıqlara, müdafiə işlərinə yönəldilmişdi.

Vaqif iki-üç gün idi ki, evdən çölə çıxmırdı. İbrahimxəlil xanın göstərişi ilə nəzərdə tutulan dövlətlərin başçılarına

məktublar yazır, Mirzə Camal isə onların üzünü tirmə kağıza köçürürdü. Onlar Mirzə Əliməhəmmədin otağa girməsini hiss etmədilər. Mirzə Əliməhəmməd salam verib, cavab aldı. O, Türkiyə sultanına yazılan məktubu aparmaq üçün gəlmişdi.

Vaqif mehribancasına dedi:

- Mirzə, çalış, İstanbula tez çat. Sultana vəziyyəti hərtərəfli danış, de ki, biz iki od arasında qalmışıq, yeganə çarəmiz Osmanlı himayəsidir. Bildir ki, tezliklə silahlı qüvvə göndərməsə, Qacar xanı bizi məhv edəcək.

Mirzə Əliməhəmməd məktubu alıb, səliqə ilə qurşağına qoydu. Sonra mehribancasına dedi:

- Axund, arxayın ol, inşallah, əliboş qayıtmaram.

Vaqif Mirzə Əliməhəmmədlə qucaqlaşıb-öpüşdü. Ona uğurlar arzuladı, gözləri yaşardı... Mirzə Əliməhəmməd ata minib, yoldaşları ilə birlikdə Rum səfərinə yola düşdü. Vaqifin göstərişi ilə xidmətçilərdən biri onların ardınca bir tas su atdı...

**Şuşada müdafiə üçün böyük hazırlıq işləri aparılırdı. Küçələrdə silahlı adam əlindən tərpənmək mümkün deyildi. İbrahimxəlil xan, Məhəmmədhəsən ağa, Vaqif kələntər Ağasi bəyin apardığı işdən razı idilər. Onlar bu işi daim diqqətdə saxlayırdılar. Dağ yolları ilə şimaldan gətirilən toplar Şuşanın cənub-şərq ərazisində, Dağıstandan və başqa yerlərdən köməyə gələn silahlı qüvvələr isə şəhərin məhəllələrində yerləşdirilirdi.**

İbrahimxəlil xan Məhəmməd bəyi çağırtdırıb, Qalaya gətirmişdi. O, qoşunla Araz sahilinə getməli idi. Batmanqılınca çox mühüm hərbi tapşırıq verilmişdi.

Ağa Məhəmməd şah Qacar Qarabağ xanlığına hücuma keçmişdi. İbrahimxəlil xan Tuğ kəndi istiqamətində səngər qurmuşdu. Məhəmməd bəy Cavanşir Xudafərin körpüsünü dağıtmışdı. Məlik Məcnun Ağa Məhəmməd şahın bələdçisinə çevrilmişdi. Qacar şahı Xudafərin körpüsünün dağıdılmış hissəsini bərpa etdirə bildi. Bunu Məhəmməd bəy bilmirdi. O, üç min əsgərlə Araz çayının şimal ərazisində iranlıları gözləyirdi. Onun döyüşçüləri İran ordusuna ağır zərbə

endirdilər. Lakin qüvvələr bərabər deyildi...

Qızılbaşlar xanlığın paytaxtına doğru irəliləyib, 1795-ci ilin iyununda onu mühasirəyə aldılar. Otuz üç günlük mühasirə heç bir nəticə vermədi. Qarabağlılar Şuşa qalasının alınmaz olduğunu bir daha sübut etdilər. Erməni ünsürlərinin bələdçiliyi də puça çıxdı. Ağa Məhəmməd şah Qacar Şuşanın mühasirəsindən əl çəkib, Tiflisə yürüşə başladı.

Mirzə Əliməhəmməd İstanbuldan xoş xəbərlə qayıtmadı... Vaqif xanın çağırdığı növbəti müşavirədə bir daha qətiyyətlə bildirdi ki, Ağa Məhəmməd şah Qacardan qurtarmaq üçün yeganə çarə - Rusiya himayəsidir.

Bəzi ağaların etirazlarına baxmayaraq, İbrahimxəlil xan Rusiyaya himayəçilik haqqında məktub yazmağı Vaqifə tapşırdı. Bu məktub Şimali Qafqazda yerləşən rus ordusunun komandanı vasitəsilə II Yekaterinaya göndərildi. 1796-cı il may ayının 2-də o, Azərbaycana ordu göndərdi. Lakin Yekaterinanın ölümü ilə əlaqədar rus qoşunu I Pavelin əmri ilə geri çağırıldı.

Ağa Məhəmməd şah Qacar V.A.Zubovun Azərbaycana gəlməsini qəzəblə qarşıladı. O, Qafqaz xalqlarını birləşməyə çağıran məktub göndərdi. Çağırışda göstərilirdi ki, rusun Qafqaza gəlməsinin məqsədi xristianlığı yaymaq və regionda özü üçün sərfəli xristian dövləti yaratmaqdır. Ona görə də Qafqazda yaşayan bütün müsəlman xalqları birləşməlidirlər.

Qacar xanı nə qədər diplomatik səy göstərdisə də, İbrahimxəlil xana təsir göstərib, özünə tabe edə bilmədi. Onun Rusiyaya meylinin qarşısını ala bilmədi. Rus ordusunun Azərbaycanı tərk edib getməsi, Ağa Məhəmməd şah Qacarın Qarabağ xanlığına qarşı yeni yürüşünə səbəb oldu. O, 1797-ci ilin yazında İbrahimxəlil xanı məhv etmək üçün çoxsaylı qoşunla Qarabağa hücuma keçdi. Bu, elə bir dövr idi ki, xanlıqda quraqlıq nəticəsində üç il idi ki, taxıl və başqa kənd təsərrüfatı məhsulları kəskin surətdə azalmışdı, əhali ərzaq cəhətdən korluq çəkirdi. Ermənilər xanlığın daxili vəziyyəti barədə Ağa Məhəmməd şah Qacara ətraflı məlumat vermişdilər.

İbrahimxəlil xan iranlılara müqavimət göstərsə də,

istədiyi nəticəni əldə edə bilmədi. O, "**Topxana**" adlandırılan ərazidən Şuşanı top atəşinə tutan Qızılbaşların toplarını məhv etmək üçün gizli yolla hücuma keçib, topları sıradan çıxarmağı qərara aldı. Həmin topları fransız mütəxəssisləri idarə edirdilər. Xan topları və onları idarə edənləri zərərsizləşdirib, şəhərə qayıdarkən yolların Qacar qoşunları tərəfindən tutulduğunu gördü. Vəziyyətin ağır olduğunu görən xan qohumu, avar xanı Əmmə xanın yanına getdi...

Qacar xanı Şuşanı tutdu, lakin bir həftədən sonra öldürüldü. Bu hadisə 1797-ci il iyun ayının 11-də baş vermişdi.

İbrahimxəlil xan doğma şəhərə qayıtdı və hakimiyyəti yenidən ələ alıb, xanlığı idarə etməyə başladı... Lakin Molla Pənah Vaqif, Mirzə Əliməhəmməd, Ağasi bəy artıq həyatda deyildilər, amansızcasına qətlə yetirilmişdilər. Onların yoxluğu İbrahimxəlil xana mənəvi cəhətdən ağır təsir göstərirdi...

İbrahimxəlil xan Rusiyanın himayəsindən böyük ümidlər gözləyir və bu məsələ ətrafında Vaqifin məsləhətlərini unutmurdu.

Rusiya imperiyası Qafqazın işğalını tezliklə həyata keçirmək məqsədilə yeni planlar hazırlayırdı. 1801-ci ildə hakimiyyətə gələn çar I Aleksandrın göstərişi ilə bu iş sürətləndirildi. Qafqaza hərbi yürüşdə iştirak edəcək qoşuna P.D.Sisianov başçı təyin edildi. O, Cənubi Qafqaza gəlməmişdən ermənilər rusların planlarından xəbər tutdular və həvəslə onun yürüşündə iştirak etmək arzusunda olduqlarını bildirdilər. Erməni keşişi Danil öz soydaşlarının səfərbər olunmasını elan etdi. Ermənilər Şimali Azərbaycanın başqa xanlıqları kimi, Qarabağ xanlığı haqqında Sisianovda düşmən mövqeyi yarada bildilər. Sisianovun əli Gəncə xanlığında qana boyandı. Yenə də ermənilər öz alçaq hərəkətləri ilə ruslara xidmət göstərir, xanlığın hərbi qüvvələri haqqında və başqa təchizatları barədə Sisianova məlumat verirdilər.

Lakin Sisanov Qarabağ xanlığını işğal etməyi əsas tuturdu. Beləliklə də, 1805-ci il mayın 14-də Kürəkçay sahilində İbrahimxəlil xanla P.D.Sisianov arasında "**Andlı müqavilə**"

imzalandı. Riyakarlıqla imzaladığı bu müqavilədə Rusiya demək olar ki, öz məkrli niyyətinə çatdı. Sisianovun məqsədi Şuşa qalasına qoşun yeritmək idi. Bu müqaviləyə əsasən Qarabağ xanı İbrahimxəlil xan Rusiyanın vassalı oldu. Xarici dövlətlərlə müstəqil əlaqələr saxlamaq hüququndan imtina etdi. Rusiya xəzinəsinə hər il 8 min çervon bac verməyi öhdəsinə götürdü.

P.D.Sisianov mayor İvan Lisaneviçin başçılığı altında Şuşaya 500 əsgər, üç top göndərdi. Beləliklə də, İbrahimxəlil xanın bütün hüquqları əlindən alındı. Bütün hakimiyyət Lisaneviçin əlinə keçdi. O, İbrahimxəlil xanı özündən asılı vəziyyətə salmışdı.

1806-cı il iyun ayının 12-də Lisaneviç hərbi dəstəsi ilə birlikdə İbrahimxəlil xanın üzərinə hücum edib, onu, ailə üzvlərini və yaxın adamlarını vəhşicəsinə öldürdü. Sözsüz ki, bu qətldə erməni ünsürü də öz rolunu oynamışdı.

Son araşdırmalar sübut edir ki, öldürülənlərin sayı 35 nəfər olmuşdur.

**Yunis HÜSEYNOV,**
**tarix üzrə fəlsəfə doktoru**

## AZƏRBAYCANLILARIN SOYQIRIMI

**«Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz».**

**Ulu Öndər**

**HEYDƏR ƏLİYEV**

XIX əsrin əvvəllərindən ermənilərin Cənubi Qafqaza köçürülüb məskunlasdırılması burda cinayətkarlığın bünövrəsini qoydu. İrandan və Türkiyədən gətirilən yüz minlərlə erməni ailəsinin Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarında yerləşdirilməsi xalqımız üçün ağır nəticələr törətdi,

Rus-İran müharibələri (1804-1813 və 1826-1828-ci illər) zamanı ruslar ailələri ilə birlikdə baş götürüb, qonşu dövlətlərin ərazilərinə qaçan azərbaycanlıların boş qalmış evlərində erməniləri məskunlaşdırır və bu yolla onların sayını süni yolla artırırdılar. Bundan başqa, yay dövründə arandan dağa gedən yarımköçəri elatların da evləri ermənilər tərəfindən zəbt olunur və azərbaycanlıların bütün əmlakları mənimsənilirdi.

Birinci Dünya müharibəsi (1914-1918) dövründə silahlı erməni quldurları Türkiyə və Azərbaycan ərazilərində kütləvi qırğınlar törətdilər. Əməllərinin cəzasız qaldığını görən ermənilər daha da azğınlaşdılar. «Böyük Ermənistan» yaratmaq məqsədilə qonşu torpaqlar hesabına «dövlət»

yaratmaq xülyasına düşdülər. 1918-1920-ci illərdə onlar Qarabağ, Naxçıvan, İrəvan, Gəncə, Şamaxı, Quba, Lənkəran qəzalarında tarixdə görünməmiş milli qırğın törətdilər, on minlərlə azərbaycanlının qanı axıdıldı. Azərbaycanlılara qarşı 1918-ci ilin mart ayında törədilən soyqırımın təşkilatçısı daşnak S.Şaumyan və quldur silahdaşları idi. Onun hazırladığı təxribat ağır nəticələrə səbəb oldu. Ermənilər Bakıda Erməni Milli Şurası yaratdılar. Bu şura azərbaycanlılara qarşı milli qırğın törətməkdə S.Şaumyana və onun quldur dəstələrinə fəal kömək edirdi. Çox çəkmədən Erməni Milli Şurası S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin tərəfinə keçdi. Mart qırğını ərəfəsində Bakıda fəaliyyət göstərən eser, kadet və daşnaklar ermənilərə kömək üçün vahid cəbhədə birləşdilər. S.Şaumyan ictimaiyyəti aldatmaq məqsədilə belə bir şayiə yaydı ki, guya, Bakıda və Azərbaycanın başqa ərazilərində müsəlmanlar silahlanır, erməniləri qırmağa hazırlaşırlar. Korqanovun rəhbərlik etdiyi «inqilabi dəstə» azərbaycanlılara qarşı soyqırımı törətməyə hazırlaşırdı. Tarixi sənədlərdə göstərilir ki, bu quldur dəstənin tərkibində bir nəfər də olsun, azərbaycanlı yox idi. Korqanovun quldur dəstəsində isə minlərlə erməni hərbçisi vardı. S.Şaumyanın tabeçiliyində olan Bakı Sovetinin əsgərləri, sözün əsl mənasında, Erməni Milli Şurasına tabe idi və onun göstərişi əsasında fəaliyyət göstərirdi. 1918-ci il martın 31-də azərbaycanlılara qarşı soyqırımı öz üzərinə götürən bədnam «İnqilabi Müdafiə Komitəsi» yaradıldı.

Daşnaklar yaranmış əlverişli şəraitindən istifadə edərək 1918-ci il martın 30-dan aprel ayının 1-nə kimi Bakıda 15 minə qədər azərbaycanlının həyatına son qoydular. Onların məqsədi daha çox müsəlman qırmaq, qorxutmaq və Azərbaycandan didərgin salaraq bu torpaqlara sahib olmaqdan ibarət idi. Bu işlərin önündə xalqımızın tarixi düşməni olan daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti gedirdi. 1918-ci il aprelin 25-də yaradılan bu qurum xalqımıza qarşı açıqdan-açığa düşmən kəsildi.

«İnqilabı Müdafiə Komitəsi»nin tərkibi başqa millətlərin nümayəndələrindən təşkil edilmişdi. Mart hadisələri zamanı Bakıda bolşevik silahlı qüvvələrinin rəisi N.Aponçenko, komissarı isə S.Martikyan idi. Aprelin 1-də səhər tezdən ermənilər 6 mindən artıq silahlı dəstə ilə hücuma keçdilər. Bu quldur silahlı dəstələr azərbaycanlıları kütləvi surətdə qırmaqla yanaşı, əvvəlcədən planlaşdırdıqları kimi amansız talanlara başladılar.

Mart soyqırımı xalqımıza qarşı ermənilərin törətdikləri ilk cinayət deyildi. Ona görə də bu qanlı hadisəni tədqiq etmək zəruri idi. 1918-ci il martın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyulun 15-də ermənilərin bu qanlı cinayətini tədqiq etmək məqsədilə xüsusi dövlət komissiyası yaratmağı qərara aldı. **AXC-nin Xarici İşlər Naziri M.Hacinski, hökumətin başçısı F.Xoyskiyə bu barədə yazırdı: «... 4 aydır ki, Azərbaycanın ərazisinin müxtəlif bölgələrində bolşevik bayrağı altında məsuliyyətsiz erməni hərbi hissələri və başqaları dinc müsəlman əhalisinin əmlakına və həyatına qarşı görünməmiş vəhşiliklər törədirlər. Eyni zamanda həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yalan məlumatlar əsasında Avropa ölkələrində bütün ictimai fikri tamamilə əks istiqamətə yönəldə bilmişlər». Komissiyanın qarşısında duran əsas və başlıca vəzifə bütün zorakılıq hadisələrinin dəqiq hesabatını aparmaq, zorakılıqların həyata keçirildiyi tarixi şəraiti dəqiq müəyyənləşdirmək, törədilən qətl və talanların iştirakçılarını aşkara çıxarmaq və xalqa vurulan zərərin ümumi miqdarını müəyyənləşdirməkdən ibarət idi.** Onu da deyək ki, dövlət komissiyası eyni zamanda Fövqəladə İstintaq Komissiyası xarakteri daşıyırdı. Komissiyanın əldə etdiyi bütün nəticələr rus, fransız, alman və digər dillərdə nəşr edilib, həmin ölkələrə göndərilməli və erməni quldurlarının yalanlarını təkzib etməli idi. Daha doğrusu, Avropa ölkələrində formalaşan erməni təbliğatını ifşa etmək lazım idi.

Bu iş, əsasən, həyata keçirildi.

1918-ci il avqustun 31-də Gəncədə fəaliyyət göstərən AXC hökumətinin baş nazirinin imzaladığı qərara əsasən yeddi nəfərdən ibarət **Fövqəladə İstintaq Komissiyası yaradıldı. Ələkbər bəy Xasməmmədov komissiyanın sədri, Gəncə dairə məhkəməsinin üzvləri isə İsmayıl bəy Şahmalıyev, Andrey Fomiq Novatski, dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixayloviç Mixaylov, həqiqi mülki müşavir V.V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə idi. Komissiya ermənilərin azərbaycanlılara qarsı törətdikləri cinayətlərin aşkara çıxarılmasında olduqca böyük işlər gördü. Tərtib olunan sənədlərdə aydın surətdə göstərilir ki, «Bakıda daşnaklar bolşeviklər, menşeviklər və başqa partiyalarla birlikdə 15 mindən çox günahsız müsəlmanı qətlə yetirmişdir». N.Nərimanov da 1918-ci il mart hadisələrini milli soyqırımı kimi qəbul etmişdir.**

Bakıda və onun ətrafında törədilən total qırğınlar azərbaycanlıların mövcudluğuna və mənəviyyatına qarşı törədilən cinayətlər idi. Həmin vaxt ermənilər azərbaycanlılara məxsus şəxsi binaları, «Açıq söz» və «Kaspi» qəzetlərinin redaksiyalarını yandırmış, onların əmlaklarını qarət etmiş, Təzəpir məscidini, İsmailiyyəni və başqa ictimai binaları dağıtmışdılar.

1918-ci ilin mart ayında Bakıda siyasi vəziyyət kəskinləşdiyi bir zamanda bütün qeyri-müsəlmanlar erməni-bolşevik zəminində azərbaycanlılara qarşı vahid cəbhədə birləşdilər. Bakı küçələri günahsız və əli silahsız azərbaycanlıların cəsədləri ilə dolu idi. Qırğın 36-cı Türküstan alayının tələblərindən və Xəzər donanması dənizçilərinin hədələrindən sonra dayandırıldı. Dənizçilər açıq surətdə bildirdilər ki, əgər ermənilər azərbaycanlılara qarşı soyqırımını dayandırmasalar, ermənilərin yaşadıqları ərazilər top atəşinə tutulacaq. Bu bəyanatdan dərhal sonra «**Ərdəhan» və «Krasnovodsk**»

hərbi gəmiləri Bakının şərq hissəsində yerləşən limana yaxınlaşdılar. Yalnız bundan sonra erməni quldurları atəşi dayandırdılar.

Daşnak S.Şaumyanın rəhbərliyi altında olan Bakı Soveti mart qırğınının qarşısını almaq əvəzinə, onu daha da qızışdırdı. 0, utanmadan açıq surətdə deyirdi: **«...Döyüşün nəticələri bizim üçün əladır»**. S.Şaumyan RSFSR Xalq Komissarları Sovetinə göndərdiyi 13 aprel 1918-ci ıl tarixli məlumatında qeyd edirdi ki, ...martın 30-31-də və aprelin 1-də Bakı şəhərində baş vermiş döyüşlərdə bizim tərəfdən Sovet qırmızı qvardiyası, təşkil etdiyimiz beynəlmiləl qırmızı ordu, qırmızı donanma və erməni milli hissələri vuruşurdular. Həm yerli sovetin, həm də bura gəlmiş Qafqaz ordusunun qüvvələrini hərbi-inqilab komitəsinin səyləri ilə birləşdirərək 6000 nəfərə yaxın silahlı qüvvə təşkil edə bildik. «Daşnaksutyun»un da 4 mindən çox milli hissələri bizim ixtiyarımızda idi. Lakin Bakıda erməni silahlı qüvvələrinin sayı 6000 nəfərə çatırdı. Onlar qırğınlarda fəal iştirak etmişdilər. S.Şaumyan utanmadan deyirdi ki, 15 min nəfərdən artıq öldürülənlər qara kütlədir. Deməli, o, qətlə yetirilənləri «qara kütlə» adlandırırdı. Elə burda qeyd edək ki, S. Şaumyanın oğlu Suren Şaumyan daşnak olmasına baxmayaraq, etiraf edirdi: - «**Hamı bir səslə deyir ki, Bakıda erməni-tatar qırğını gedir və bu qırğını ermənilər törətmişlər».** Tatar dedikdə azərbaycanlılar nəzərdə tutulurdu.

1918-ci il aprelin 28-də bolşevik Ter-Petrosyan da Həştərxandan S.Şaumyana açıqdan-açığa yazırdı: **«Hamı bir səslə deyir ki, Bakıda tatar qırğınını ermənilər törətmişlər». «Naşe Vremya» qəzeti isə belə yazırdı: «Heç kim inkar edə bilməz ki, Bakı şəhərində müsəlman əhalisinə qarşı ayrı-ayrı erməni qrupları, yaxud erməni olmayanlar vəhşiliklər törətmişlər».** Bu deyilənlər aydın surətdə göstərir ki, ermənilər müsəlmanların kütləvi surətdə qırılmasında həvəslə iştirak etmiş, qanlı cinayətlər, zorakılıqlar və talanlara

yol vermişlər. Beləliklə də, mart qırğını Bakıda bolşeviklərə və BXKS-ə ağır zərbə vurdu və onların süqutunu sürətləndirdi, milli dövlətçiliyimizin – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün tarixi şəraitin yaranmasında mühüm rol oynadı.

Zaqafqaziya Seymində azərbaycanlıların soyqırımı müsəlman blokunun qəti etirazına səbəb oldu. Seymin iclasında bolşeviklərə qarşı etiraz çıxışları gücləndi. Sosialist müsəlman blokunun nümayəndəsi A.Səfikürdski deyirdi ki, əgər Zaqafqaziya hökuməti bolşevik-erməni cinayətkarlarına qarşı ciddi tədbirlər görməsə, onda biz özümüz onları məhv edəcəyik. **Müsəlman blokunun nümayəndələri Z.Q.Məmmədbəyov, M. Ə. Rəsulzadə və başqaları da bildirirdilər ki, azərbaycanlıların qırğınına son qoymaq, cinayətkarları cəzalandırmaq Seymin başlıca vəzifəsidir. Müsəlman blokuna daxil olan nümayəndələrin və onları müdafiə edən Seymin üzvlərinin təzyiqi altında Cənubi Qafqaz Seymi BXKS-ə qarşı mübarizə aparmaq məqsədilə 100 min manat pul, piyada qoşun və süvari hissələri, iki təyyarə, zirehli qatar, xeyli silah və sursat ayırmağa razılıq vermişdi. Lakin bu qüvvələr qırğınların qarşısını ala bilmədi.**

Tayqulaq Andronikin, Dronun, Lalayanın və başqalarının başçılıq etdikləri erməni quldur silahlı dəstələri **Bakıdan əvvəl Qarabağda, Şamaxıda, İrəvanda, Qubada da kütləvi qırğınlar törətmişdilər. 1918-ci ilin mart ayına kimi İrəvan quberniyasında 15155 təsərrüfatı təmsil edən 199 kənd (100626 nəfər) dağıdılmışdı. Andronikin və Dronun silahlı quldur dəstələri bütün kəndləri yandırmış, əhalisini məhv etmişdi. Bu qanlı hadisələr də Zaqafqaziya Seymində müzakirəyə çıxarıldı və vəziyyəti öyrənmək məqsədilə ora təhqiqat nümayəndəsi göndərildi. Aparılan araşdırmalar zamanı müəyyən edildi ki, 211 kənd və 100 min azərbaycanlı amansızcasına məhv edilmişdir.**

Gəncə Müsəlman Milli Şurasının sədri Ə. Xasməm-

mədov Cənubi Qafqaz Seyminə göndərdiyi **28 mart 1918-ci il tarixli teleqramında göstərirdi ki, martın 18-də bolşeviklər tərəfindən 2000 yaxşı silahlanmış və hərbi təlim görmüş silahlı dəstə Bakıdan Şamaxıya yola salınmışdır. Bu quldur dəstə Şamaxını və qəzanın 72 kəndini talan etmiş və yandırmış, 7 mindən çox müsəlmanı, o cümlədən, qadın və uşaqları vəhşicəsinə öldürmüşdür.** S.Şaumyanın şəxsi göstərişi ilə Quba qəzasına göndərilən erməni silahlı quldur dəstəsinə Hamazasp başçı təyin olunmuşdu. Bu quldur cinayətkar öz qəddarlığı ilə tayqulaq Andronikdən, Drodan və başqa cinayətkarlardan geri qalmırdı. O deyirdi: **"Mənə Xəzər dənizindən Şahdağa *qədər olan ərazi*də bütün müsəlmanları məhv etmək əmri verilmişdir".** Ermənilər **Quba qəzasında 122 kəndi yandırmış, əhalini kütləvi surətdə qırmış və onların əmlakmı qarət etmişlər. Qubada tapılan məzarlıq *tarixin* inkar olunmaz faktıdır.**

**"Azərbaycan" qəzeti 3 mart 1919-cu il tarixli nömrəsində Şamaxı faciəsi ilə bağlı geniş məqalə vermişdir. Məqalədə göstərilir ki, Birinci Dünya müharibəsi cəbhəsindən qayıdan erməni əsgərləri özləri ilə silahlar gətirir və onları öz həmyerlilərinə paylayırdılar. Həmin silahlardan ermənilər azərbaycanlılara qarşı apardıqları qırğınlarda istifadə etmişlər. Erməni quldurları Şamaxı qırğını zamanı yerli əhaliyə 1 milyard manatdan artıq ziyan vurmuşlar.**

1918-1920-ci illərdə Qarabağda da ağır vəziyyət yaranmışdı. Bu barədə mətbuat səhifələrində və arxiv sənədlərində istənilən qədər material var. "Azərbaycan" qəzetində 1918-1920-ci illərdə Qarabağda baş verən hadisələr barədə silsilə məqalələr dərc olunmuşdur. Həmin məqalələrdə ermənilərin fitnə-fəsadları hərtərəfli şəkildə öz əksini tapmışdır. Daşnaklar Şuşa ilə Ağdamın əlaqəsini kəsmək üçün Əsgəranı əllərinə keçirmişdilər. Şuşada ərzaq qıtlığı yaranmışdı. Ermənilər bütün yolları, hətta dağ cığırlarını da bağlamışdılar. Onlar şuşalıları qorxutmaq üçün tayqulaq

Andronikin və Şahnəzəryanın başçılığı altında tezliklə qoşun gələcəyi haqqında geniş təbliğat aparmağa başlamışdılar. Şuşada olan ermənilər sürətlə silahlanır və azərbaycanlılara qarşı qırğına hazırlaşırdılar. Şəhərin yuxarı hissəsində onlar 15 yaşından 60 yaşına kimi erməniləri silahlandırır və qan tökməyə hazırlaşırdılar. Lakin şuşalılar ermənilərə istənilən səviyyədə cavab verirdilər... Zabux kəndi istiqamətindən Şuşaya hücuma keçən Şahnazaryanın dəstələri müsəlmanlar tərəfindən darmadağın edildilər. Şuşalıların vurduqları ağır zərbə onların bel sütununu sındırdı. Elə bu vaxt Xosrov bəy Sultanovun Qarabağa general-qubernator təyin olunması erməni quldurları üçün olduqca dözülməz oldu.

Dərələyəz mahalında daşnak Dronun quldur dəstəsi ilə döyüşlərdə Abbasqulu Şadlinskinin rəhbərliyi altında olan qüvvələr mühüm rol oynamışdılar. Dro burda 50 kəndi dağıtmış və əhalisini qırmışdı. Abbasqulu Şadlinski bu mübarizəni Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da davam etdirmişdi. Zəngəzurda da ermənilərin azərbaycanlılara qarşı qırğınları 1920-ci ilə kimi davam etmişdi. Qəza rəisi Şəkinski ermənilər tərəfindən *48* azərbaycanlı kəndinin dağıdılması haqqında məlumat vermişdi. Faktlar sübut edir ki, həmin kəndlərin bir çoxu bir neçə dəfə viran olunmuşdur. **Azərbaycan parlamentinin üzvü Qara bəy Əliverdiyev Şuşadan Bakıya AXC-i hökumətinə göndərdiyi 19 dekabr 1918-ci il tarixli teleqramda Andronikin Zəngəzurda, Şuşada, Cəbrayılda, Tərtərdə, Ağdamda törətdiyi cinayətləri hərtərəfli təsvir etmişdi. 1918-ci il dekabrın 20-də Azərbaycan parlamenti bu cinayətləri müzakirə etmiş və həmin qəzalarda yüzlərlə kəndin dağılmasını, minlərlə dinc və əliyalın azərbaycanlı əhalinin öldürülməsini göstərmişdir. AXC hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra** Andronik zərərsizləşdirildi, bu quldur Şuşa və Zəngəzurdan qovuldu.

**Erməni qırğınları Cənubi Azərbaycanın Xoy, Urmiya, Salmas, Marağa, Təbriz və başqa şəhər və**

**kəndlərində də təşkil olunmuşdu. Onlar Andronikin fəal iştirakı ilə bir neçə gün ərzində 10 min nəfər azərbaycanlını amansızcasına qətlə yetirdilər. Urmiya və Salmas şəhərlərinin ətrafında yerləşən kəndlər boş qalmış, əhalinin əmlakı qarət edilmişdi.**

Ermənilərin burda törətdikləri qırğınlar İranın indiki rəhbərlərinə məlumdur. Bəs nə üçün İran İslam Respublikasının başında duranlar onlara qardaş və yaxın qonşu deyirlər? İran prezidenti öz erməni həmkarını qucaqlayıb öpürsə, rəsmi görüşlərdə və verdiyi müsahibələrdə Ermənistanın Azərbaycanın 20 faiz torpağını işğal etdiyini dilinə gətirib, onu işğalçı adlandırmırsa, bizimlə necə din qardaşı ola bilər? Hələ bu, bir yana, son zamanlar İİR-nin televiziya kanalları Azərbaycana qar*şı* təxribat xarakterli təbliğat aparır, daşnaklara hərtərəfli kömək edir, onlarla iqtisadi və siyasi əlaqə saxlayır, Ermənistanla illik əmtəə mübadiləsinin həcmini 1 milyarda çatdırır. Farslar ermənilərlə birgə Azərbaycana qarşı pozuculuq, qarşıdurma və qisasçılıq siyasəti aparır, düşmənçilik xarakterli kitablar yazırlar. İranın dini rəhbərləri öz müsəlman qardaşlarına beləmi hörmət bəsləyirlər? Onlar bilmirlərmi ki, indiki İran cəmiyyətində müsbət nə varsa, azərbaycanlılara məxsusdur?! Fars mədəniyyəti Azərbaycan mədəniyyətinə minnətdar olmalıdır.

Cənubi Azərbaycanda yaşayan 35 milyondan artıq azərbaycanlının ana dilində məktəbi varmı? Yox! Ari irqindən olan qardaşlarına – daşnaklara isə hərtərəfli yardım göstərirlər. Görəsən, ermənilər "səmimi dost", "böyük qardaş" adlandırdıqları Təbrizdə, Urmiyada, Xoyda, Makuda, başqa şəhər və kəndlərdə İran əhalisini nə üçün vəhşicəsinə qırmışlar? Məqsədləri hansı səmtə yönəldilmişdi? Aydındır ki, ermənilərin məqsədi İranda azərbaycanlıların milli azadlıq hərəkatının qarşısını almaqda hökumətə köməklik göstərmək və fars qardaşlarının rəğbətini qazanmaqdır. Erməni məktəblərinin və başqa müstəqil cəmiyyətlərin azad fəaliyyəti isə farslara göstərilən xidmətlərin bəhrəsidir.

Ermənilərin İranın vəzifəli şəxslərinə terror etmələri dövlət səviyyəsində narazılıqla qarşılanmır. Bununla əlaqədar bir faktı yada salmaq yerinə düşər: 1994-cü ilin mart ayında İİR-nın Moskvadakı səfirliyinin bir neçə işçisi Novruz bayramını keçirmək üçün İrana gedərkən mindikləri təyyarə Dağlıq Qarabağ səmasında ermənilər tərəfindən vuruldu və onların hamısı həlak oldu. İran hökuməti bu cinayətə lazımi səviyyədə qiymət vermədi, bu işə biganə qaldı. Bu misalların sayını xeyli artırmaq olar. Fars və erməni şovinistlərinin "dostluğu" nəinki onlara, hətta başqalarına da xeyir verə bilməz. Azərbaycan bütün dünya azərbaycanlılarının vətənidir. Onlar bu müqəddəs Vətənə böyük ümidlə baxırlar. Azərbaycanın siyasi və iqtisadi cəhətdən inkişaf etməsi, beynəlxalq əlaqələrinin genişlənməsi indiki İİR-nın hakim dairələrini qorxuya salır. Elə buna görə də onlar erməni qardaşlarını etibarlı tərəfdaş adlandırırlar.

Söz yox ki, ermənilərin Cənubi Azərbaycanda törətdikləri vəhşiliklər yaddaşlardan silinməmişdir. Onlar Şimali Azərbaycandakı milli qırğının dəhşətli formasını cənubda yaşayan müsəlman xalqlarına qarşıda törətmişdilər. İndinin özündə İran rəhbərlərinin ermənilərə bəslədikləri isti münasibət nəyə əsaslanır? Qoy bu suala onlar özləri cavab tapsınlar. İran rəhbərləri yaxşı bilirlər ki, erməni soyqırımı heç vaxt olmamışdır. İnsanlığa yad olan bu əməli tarix boyu ermənilər törətmişlər. İrəvanda qondarma soyqırımına qoyulan "abidə"nin üzərinə gül qoymaq, baş əymək kimə və nəyə lazımdır?! Bu hərəkət mənəviyyatsızlıqdan, öz din qardaşlarına hörmətsizlikdən başqa, bir şey deyil. Qoy İran keçmiş tarixini vərəqləsin, görsün orda nələr var...

Ermənilər öz havadarlarının fəal köməyi ilə iki yüz ildən artıqdır ki, Azərbaycan xalqına qarşı qanlı cinayət törədirlər. Onların əsas məqsədi bizim doğma torpaqlarımızı ələ keçirməkdir. XIX əsrin əvvəllərində Cənubi Qafqaza pənah gətirən ermənilər azərbaycanlıların hesabına torpaq ələ keçirib, qondarma dövlətlərini yarada bildilər. Bu erməni

dövləti İrəvan xanlığının ərazisində yaradıldı. Rusiya imperiyasının forpostu kimi yaranan Ermənistan bu günə kimi "böyük qardaşı"nın köməyi ilə Azərbaycanda saysız-hesabsız qanlar tökmüşdür. 1948-1953-cü illərdə Ermənistandan 200 minə qədər azərbaycanlının deportasiya edilməsində Sovet hökumətinin rolu xüsusilə qeyd edilməlidir. Onların böyük əksəriyyəti iqlim şəraitinə və başqa maddi çətinliklərə dözməyərək həlak olmuşdu. Kür-Araz ovalığına köçürülənlərin düşdüyü fəlakətləri sözlə ifadə etmək olduqca çətindir. Həlak olanların xeyli hissəsi uşaq idi.

Erməni cinayətləri XX əsrin sonlarında özünün yeni mərhələsinə qalxdı. Daşnaklar "böyük qardaş"ın köməyindən istifadə edib, hərbi yola əl ataraq dinc azərbaycanlı əhalini kütləvi surətdə qırmağa, ərazimizdə etnik təmizləmə aparmağa və dağıntılar törətməyə başladılar. 1993-cü ilə kimi erməni quldurları doğma torpaqlarımızın 20 faizini ələ keçirə bildilər. Bu hadisədən əvvəl Ermənistan azərbaycanlıları üçün də ağır və əzablı günlər oldu. 1993-cü il fevralın 5-nə kimi Ermənistandan Azərbaycana 243682 nəfər qaçqın kimi gəlmişdir. Hərbi müdaxilə nəticəsində 220 nəfər öldürüldü, 1154 nəfər yaralandı. Erməni vəhşilikləri bütün istiqamətlərdə davam edirdi. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Azərbaycan Respublikasına məxsus olan hərbi vertolyotun ermənilər tərəfindən vurulması nəticəsində xeyli dövlət xadimi həlak oldu. Belə misalların sayı çoxdur. Erməni terroru soyqırımının tərkib hissəsidir. Buna başqa ad vermək olmaz.

Dağlıq Qarabağı Ermənistanla birləşdirmək pərdəsi altında daşnaklar hər cür vəhşiliyə əl atmağa başladılar. Onlar o zaman Azərbaycanda yaranan hakimiyyət boşluğundan istifadə edərək Xocalı hadisəsini törətdilər. **1992-ci il fevralın 25-dən 26-na keçək gecə erməni hərbi birləşmələri ən müasir silahlardan istifadə edərək 366-cı polkun bilavasitə iştirakı ilə Xocalıya hücum etdilər. Xocalılar soyqırımına**

**məruz qaldılar. Qadınlar, uşaqlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildilər. Həmin müdhiş gecədə 613 nəfər dinc sakin öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü.**

**Xocalı soyqırımı dünya ictimaiyyətinə özünü "məzlum", "əzabkeş" kimi tanıtmış ermənilərin qaniçən sifətini bir daha göstərdi. 1000 nəfər dinc sakin yaralandı, 106 nəfər qadın, 63 nəfər uşaq, 70 nəfər qoca öldürüldü, 76 nəfər həddi-buluğa çatmamış gənc oğlan və qız əlil oldu. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi. 56 nəfər şəhid oldu. Onlar xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldılar. Budur, İranın erməni qardaşı. Əsir düşənlər və meyidlər qeyri-insani hərəkətlərlə təhqir edildi. Onların başları və digər bədən üzvləri kəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı. Bütün beynəlxalq hüquq normalarına zidd olaraq erməni silahlı quldurları azərbaycanlı əsirlərə qarşı qeyri-insani rəftar etdilər. Onlar Cenevrə konvensiyasının bütün maddələrinə və protokollarına zidd olaraq dinc sakinlərin yollarını kəsərək onlara işgəncələr verdilər.**

**Heydər Əliyev Xocalı soyqırımından danışarkən demişdir: "Bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil olmuşdur".**

Erməni silahlı qüvvələrinin respublikamıza qarşı təcavüzü zamanı (1988-1993-cü illərdə) 30 mindən artıq soydaşımız öldürülmüş, 50 min nəfərə qədər adam yaralanmış və ömürlük şikəst olmuş, 4 min nəfər əsir düşmüş, yaxud girov götürülmüşdü. Bir milyondan çox azərbaycanlı ata-baba yurdunu itirmişdir. Yüz mindən çox yaşayış evi, bir milyondan çox iqtisadi obyekt, altı mindən çox məktəb və tibb müəssisəsi yandırılmış, yüz milyonlarla dollar dəyərində

maddi sərvətlər ələ keçirilərək talan edilmiş və ya Ermənistana aparılmışdı. Əsrlər boyu xalqımızın qoruyub-saxladığı tarix və mədəniyyət abidələri məhv edilmişdi. Erməni vandalları xalqımızın tarix və mədəniyyət abidələrini erməniləşdirmişlər.

Azərbaycan torpaqları ermənilər üçün yaddır. Yerli olmayan, tarixdə diqqəti cəlb etməyən (qan tökməkdən başqa), vətəni, mədəniyyəti, kökü, paytaxtı və tarixi şəxsiyyətə malik olmayan ermənilər torpaqlarımıza gətirilərək məskunlaşdırılmışlar. Bu, tarixdir.

Ermənilər unutmasınlar ki, Qarabağda XIX əsrin əvvəllərinə qədər erməni yaşamamışdır. Azərbaycan ərazisində mövcud olan doqquz iqlim qurşağının altısı Qarabağın payına düşür. Dağlıq Qarabağın iqlimi, yeraltı və yerüstü sərvətləri onları özünə cəlb edir. Məhz bütün bunlar xalqımıza qarşı tarixdə dəfələrlə soyqırımı törədən erməni ünsürlərini bu qədim Azərbaycan ərazisindən rədd olub getmələrini mümkünsüz edir.

Ermənilərin, onların "prezidentləri"nin murdar əlləri xalqımızın günahsız qanının axıdılmasına səbəb olmuşdu. Onlar dəqiq bilirlər ki, Azərbaycan ərazisində və o cümlədən də, qədim torpağımız olan Dağlıq Qarabağda yaşamaları artıq mümkün deyil.

*Şuşa qəzeti,*
*mart, 2011, №5-6*

**Yunis HÜSEYNOV,**
**tarix üzrə fəlsəfə doktoru**

# ERMƏNİ SAYIQLAMALARI

Məlum olduğu kimi, 1805-ci il mayın 14-də bağlanmış Kürəkçay müqaviləsinə görə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi, 1822-ci ildə isə ləğv edilərək Rusiya imperiyasının əyalətinə çevrildi.

Qarabağ xanlığını yaradılmış yeni siyasi qurum - komendantlıq idarə edirdi. Mərkəzi Şuşa şəhəri olmaqla o, hərbi müsəlman dairəsinin tərkibinə daxil idi. Türkmənçay sülh müqaviləsindən sonra (10.II.1828) ermənilərin torpaqlarımıza kütləvi axını başlandı.

Əldə olan rəsmi məlumatlara görə, iki il ərzində, yəni, 1828-1830-cu illərdə Şimali Azərbaycana, o cümlədən də, Qarabağ xanlığı ərazisinə İrandan 40 min, Osmanlı Türkiyəsindən 90 min erməni köçürülmüşdü. Bundan başqa, 70 minə qədər erməni torpaqlarımıza qeyri-rəsmi gətirilmiş və beləliklə də, onların sayı 200 mindən artıq olmuşdu. Ermənilər iddia edirlər ki, guya, onlar Qarabağın yerli sakinləridir. Onların bu sayıqlamalarını heç bir qaynaq və mənbə təsdiq etmir.

Ermənilərin ərazimizə köçürülüb-gətirilmələri rus məmurlarını da həmişə narahat etmişdir. Məsələn, A.S.Qriboyedov Rusiya imperatoruna yazdığı məktubunda deyirdi: -**"Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşdırılmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim qədim dədə-baba torpaqlarımızdır"**. Göründüyü kimi, A.S.Qriboyedov başa düşürdü ki, erməni tutduğundan əl çəkmir, ona görə də onları Rusiya imperiyasının müstəmləkə ucqarlarına köçürülmələrinə işarə edirdi. Bu yolla da Rusiya imperiyası erməniləri öz ərazisindən kənarlarda yerləşdirməklə, özü üçün forpost yaradırdı. Hazırda torpaqlarımızda yaşayan və özləri üçün dövlət

yaradan ermənilər Rusiya Federasiyasının əsl forpostudur. Siyasi, iqtisadi və sosial cəhətdən misli görünməmiş böhran məngənəsində boğulan erməni “dövləti”ni başqa cür təsəvvür etmək mümkün deyil.

Rusiya imperiyası XIX əsrin 30-cu illərindən başlayaraq erməniləri Cənubi Qafqaza köçürməkdə davam edirdi. Bu köçürmələrdə Qarabağ və İrəvan xanlıqlarının ərazisi əsas yer tuturdu. Rus Qafqazşünası N.N.Şavrov 1911-ci ildə yazırdı: **“Zaqafqaziyadakı 1,3 milyon erməninin 1 milyonundan çoxu gəlmədir. Burda yaşayan həmin 1 milyon 300 min ermənının 1 milyondan çoxu yerli deyil. Onlar vilayətə bizim tərəfimizdən köçürülüb-gətirilmişdir”.**

Qeyd edilən iqtibaslar bir daha sübut edir ki, ermənilər mənşəcə yerli deyillər, onlar Qarabağa və İrəvan torpaqlarına gətirilib yerləşdirilmişlər.

... Onlar üçün İrəvan xanlığı ərazisində “Erməni vilayəti” yaradıldı. “Böyük Ermənistan” xülyası ilə yaşayan ermənilər havadarlarının fəal köməyi ilə A.S.Qriboyedovun dediyi kimi, “torpaq mənimdir” deyərək yerli əhaliyə qarşı genişmiqyaslı qırğına başladılar. Bu soyqırım XX əsrdə xüsusilə geniş miqyas aldı.

Erməni silahlı dəstələri Birinci Dünya müharibəsi (1914-1918-ci illər) illərində xüsusilə azğınlaşaraq türklərin soyqırımına başladılar. Müharibə dövründə Rusiyanın hakim dairələri ermənilərə böyük etimad göstərmiş, Qafqaz cəbhəsində Türkiyəyə qarşı aparılan döyüşlərdə bu quldurlardan öz məqsədləri üçün istifadə etmişlər.

Ermənilərin məqsədi ondan ibarət idi ki, müharibənin gedişində rus qoşunları tərəfindən Türkiyədən ələ keçirdikləri ərazilərdə, İrəvan quberniyasını da bura əlavə etməklə “Böyük Ermənistan” adlı siyasi bir qurum yaratsınlar. Bu məqsədlə ermənilərin tərtib etdikləri xəritəyə görə bu “dövlət” - Aralıq dənizi, Qara dəniz və Xəzər dənizinin arasında yerləşən torpaqları əhatə etməli idi. Ermənilər xəritəyə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərləri də salmışdılar.

“Dövlətin coğrafi xəritəsi”nə Zaqafqaziya və Asiya Türkiyəsi də daxil idi. Bütün bunlar isə yalnız erməni sayıqlamalarından başqa bir şey deyildi.

Tarixi araşdırmalardan məlum olur ki, 1914-cü ilin sentyabr ayından başlayaraq erməni könüllü silahlı dəstələri yaradılmağa başladı. Məqsəd türklərə qarşı soyqırımı törətmək idi və törədildi də. Qısa müddət ərzində 7 könüllü polk yaradıldı. Onların sıralarında 6000 nəfərdən artıq əsgər və zabit vardı. Bu birləşmələrə müxtəlif vaxtlarda tayqulaq Andronik Ozanyan, Arşak Qafafyan, Vardan Mehrabyan, Hamazasp Orvandzyan, Qriqor Avşaryan, Hayk Bjşkyan (Qay), Havser Artunyan komandanlıq etmişdilər. Ümumiyyətlə, erməni hərbi birləşmələrini formalaşdırmaq məqsədilə Rusiya imperiyasında məskunlaşan 250 mindən çox erməni səfərbərliyə alınmışdı.

Rus-erməni silahlı qüvvələri Türkiyənin içərilərinə doğru irəlilədikcə küçələrdə qarşılarına çıxanları qəddarlıqla qətlə yetirirdilər. Onlar sakinləri fiziki cəhətdən məhv edir və əmlaklarını ələ keçirirdilər.

Bu quldur dəstələrini “Daşnaksütyun” (“İttifaq”) partiyasının ideologiyası zəhərləmişdi. “Daşnaksütyun” öz iyrənc nəfəsini daşnak lideri S.G.Şaumyandan alırdı.

Türkiyə ərazisində daşnaklar on minlərlə türkü öldürmüş, saysız-hesabsız kənd və qəsəbələri yandırmışdılar. Bu cür cinayətkar hərəkətləri onlar azərbaycanlılara qarşı da törətmişdilər. Həm Türkiyədə, həm də Azərbaycanda erməni qətllərinə və talanlarına həsr olunmuş çoxlu elmi-tədqiqat əsərləri yazılmışdır. Bununla da onların cinayətləri sübuta yetirilmiş və beləliklə də, yalançı, uydurma erməni soyqırımı təkzib edilmişdir. Ermənilər onlara qarşı soyqırımı məsələsini ortaya atırlar ki, öz əməllərini ört-basdır etsinlər. Türkiyədə aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, rus qoşunları tərəfindən Birinci Dünya müharibəsi illərində ələ keçirilmiş ərazilərdən 850000 müsəlman qaçqın düşmüşdür. Bu işdə erməni silahlı quldur dəstələri fəal iştirak etmişlər.

1917-ci ilin fevralında Rusiyada baş verən burjua

inqilabından sonra ermənilər Cənubi Qafqazda öz çirkin əməllərini daha da genişləndirdilər. Aprel ayında Tiflisdə konfrans çağıraraq Cənubi Qafqazı və Şərqi Anadolunu da özündə birləşdirəcək "Böyük Ermənistan" yaratmağı qərara aldılar. Bunu həyata keçirmək üçün 25 nəfərdən ibarət "Erməni Milli Məclisi" və 15 nəfərdən ibarət başqa bir mürtəce təşkilat da yaradıldı. Ermənilər Türkiyənin Şərq vilayətləri, Şimali və Cənubi Azərbaycanın bir sıra əraziləri hesabına "Böyük Ermənistan" yaratmaq üçün sayıqlamalara başladılar.

İrəvan xanlığının Ermənistan SSR yaradılan ərazisi 1380600 hektar təşkil edirdi. 1828-ci ildən sonra ermənilərin yaşadıqları kəndlərin ərazisi isə 46515 hektar, ümumi sahənin 3,37 faizi qədər idi. Göründüyü kimi, ərazinin 1334085 hektarı, ümumi ərazinin 96,63 faizi azərbaycanlılara məxsus idi. Türkiyə və İrandan qovulan ermənilərə torpaq vermək məqsədilə Cənubi Qafqazın müəyyən əraziləri azərbaycanlılardan təmizlənməyə başlanıldı. Bu, sözün əsl mənasında, xalqımıza qarşı soyqırımı demək idi. Qısa müddətdə "təmizlənmiş" ərazilərə 1 milyondan çox erməni köçürüldü. 1828-1830-cu illərdə 2 milyondan çox yerli müsəlman ata-baba torpaqlarından zorla çıxarılmış, bir sözlə, soyqırıma məruz qalmışdılar.

Cənubi Qafqazda ermənilərin sayı durmadan artırdı. Bu sahədə Rusiya xüsusi rol oynayırdı. Əgər 1896-cı ildə burda 900 min erməni vardısa, 1907-ci ildə onların sayı 1 milyon 300 minə çatdı. Onların 1 milyon 2 yüz mini xaricdən köçürülüb-gətirilənlər idi.

1917-ci il dekabrın 29-da Sovet Rusiyası XKS "Türkiyə Ermənistanı" haqqında dekret verdi. Həmin dekret 1918-ci il yanvar ayının 15-18-də III Ümumrusiya Sovetlər qurultayında təsdiq edildi. Dekretə əsasən XKS "əzabkeş" erməni əhalisinə müharibənin gedişində rus ordusunun ələ keçirdiyi türk torpaqlarında erməni dövləti yaratmağa təzminat verirdi. Bu dövlətin yaradılması işi Stepan Şaumyana həvalə edilmişdi. V.İ.Lenini ermənilərə bağlayan nə idi?

Ermənilər 1918-ci ilin yanvarından başlayaraq Bakıda,

Cənubi Qafqazın digər ərazilərində müsəlmanlara qarşı soyqırımı törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atırdılar. 1917-ci il martın 9-da təşkil olunmuş Xüsusi Cənubi Qafqaz Komitəsi, həmin il noyabrın 15-də təşkil olunmuş Cənubi Qafqaz Komissarlığı, daha sonra isə 1918-ci il fevralın 15-də təşkil olunmuş Cənubi Qafqaz Seymi real siyasi və hərbi gücə malik olmaları ilə yanaşı, göstərilən qurumların tərkibində Azərbaycanın nümayəndə heyətləri də yetərincə təmsil olunmamışdılar. Bütün bunlar ermənilərə əl-qol açmağa və niyyətlərini həyata keçirməyə şərait yaradırdı.

Bakı Sovetinin siyasi hakimiyyəti ilə erməni-rus silahlı qüvvələrini bir araya gətirən S.Şaumyan və onun tərəfdarları Azərbaycan xalqına qarşı ən böyük soyqırımı həyata keçirməyə başladılar. Onlar bu ideyalarını 1918-ci ilin mart-aprel aylarından Bakı quberniyasında reallaşdırdılar. Azərbaycanlılara qarşı soyqırımında erməni milli şurası xüsusi fəallıq göstərirdi. Mübarizəyə rəhbərlik etmək üçün 1918-ci il mart ayının 31-də bolşeviklər tərəfindən inqilabi müdafiə komitəsi yaradıldı. Onun tərkibinə S.Şaumyan, P.Caparidze, Q.Korqanov, İ.Suxartsev daxil idilər. Mart döyüşləri günlərində bolşevik hərbi dəstələrinin rəisi N.Anançenko, komissarı isə S.Martikyan idi.

Əldə olan sənədlər sübut edir ki, 1918-ci il martın 30-dan aprelin 1-ə kimi erməni quldur dəstələri milli qırğın törətdilər. Üç gün ərzində Bakıda 15 mindən artıq günahsız insan qətlə yetirildi. Daşnak birləşmələrinin vəhşilikləri Bakı ilə məhdudlaşmadı. Onlar Şamaxı, Quba, Kürdəmir, Salyan, Lənkəran qəzalarında da soyqırımı törətdilər. T. Əmirovun dəstəsi 1918-ci il aprelin 1-16-da Şamaxının azərbaycanlı əhalisinə amansız divan tutdu. Burda onlar 7 mindən artıq dinc sakini öldürdülər, 72 kəndi dağıtdılar. Quba qəzasında minlərlə adam öldürüldü, 122 kənd yandırıldı və əhalinin əmlakı qarət edildi. Bakı quberniyasında soyqırımı 1918-ci ilin sentyabr ayının ortalarına qədər davam etdi. Ümumiyyətlə, ermənilər həmin vaxt Bakı quberniyasında 30 minə qədər azərbaycanlını öldürmüş, Qarabağda qanlı qırğınlar törətmişdilər. 1918-ci ilin

mart ayına kimi İrəvan quberniyasında 211 Azərbaycan kəndini yandırmış və 100 mindən çox azərbaycanlını qəddarcasına qətlə yetirmişdilər.

Budur "əzabkeş", "yazıq" ermənilərin törətdikləri faciələr. Onlar utanmadan yenə də öz sərsəmliklərindən əl çəkmir, cinayətkar hərəkətlərini davam etdirirlər. Ataların yaxşı bir sözü var "Köpək qaya kölgəsində yatır, elə bilir ki, öz kölgəsidir". Erməni də belədir. Müvəqqəti olaraq torpaqlarımızı ələ keçirən daşnaklar dincliklə Qarabağdan çıxıb-getmir, gah seçkilər keçirir, gah da Suriyadan qaçan dindaşlarını burda yerləşdirməyi bəyan edirlər. Ermənilər onların puluna ümid bəsləyirlər, lakin onlar bilməlidirlər ki, suriyalılar onlar kimi ağılsız deyillər. Onlar da yaxşı bilir ki, Qarabağ ermənilərin deyil.

Erməni sayıqlamalarının ən alçaq nümunələrindən biri də qədim Urartu dövlətinə və onun mədəniyyətinə sahib olmaqdır. Lakin tarixçi alimlər onların bu həyasızlığının qarşısını elmi dəlillərlə heçə çıxartdılar. Başqa xalqların və dövlətlərin hesabına özlərinə tarix yaratmaq niyyətləri onlara müyəssər olmadı və bundan sonra da olmayacaq. Bəs nə üçün ermənilər Urartu dövlətini özləri üçün obyekt seçir, ona zorla sahib olmaq istəyirlər. Birincisi, ona görə ki, Urartu eramızdan əvvəl I minilliyin əvvəllərində Ön Asiyada yaranan böyük dövlət idi. İkincisi, Urartu dövlətinin siyasi, iqtisadi və sosial inkişafı dövründə onun sərhədləri şimalda Göyçə və Urmiya göllərinə, cənub-qərbdə Dəclə və Fərat çaylarının yuxarı axarına qədər uzanırdı. Ermənilər isə iki çayın - Dəclə və Fərat çaylarının şimal hissələrində altıncı yüzilliklərdə qaraçısayağı ömür sürürdülər. Bu, elə bir dövr idi ki, onlar başqa xalqların qulu idilər, yəni, həmin xalqlar onlara həqarətlə baxırdılar. Üçüncüsü, Urmiya gölü İranın, Göyçə gölü isə Azərbaycanın qərbində yerləşir. Hazırda ərazimizə köçürülüb-gətirilən ermənilər bu ərazidə yaşayırlar. Daha dəqiq desək, "Ermənistan" deyilən forpost dövlətin ərazisinə daxildir. Erməni sayıqlamalarında Urartu dövlətinin tərkibinə daxil olan ərazilər

“Böyük Ermənistan” üçün əsas götürülür. Urartu dövləti üç əsr ərzində Ön Asiyanın ən qüdrətli dövləti olmuşdur. Dövləti irsi hakimiyyətə malik olan padşahlar idarə edirdilər. Urartunun ərazisi vilayətlərə bölünürdü. Vilayətləri isə canişinlər idarə edirdilər. Dördüncüsü, ermənilər tarixdə mərkəzləşdirilmiş dövlətə, siyasi paytaxta, padşah və canişin titullarına malik olmamışlar. Beşincisi, Urartu dövləti mövcud olduğu dövrlərdə yüksək mədəniyyətə malik olmuşdur. Urartuların özlərinə məxsus dini təsəvvürləri var idi. Bunların heç biri tarix boyu ermənilərdə olmamışdır. Ona görə ki, onlar oturaq həyat tərzinə çox-çox sonralar başlamışlar.

Tarixi baxımdan ən mühüm bir məsələyə də aydınlıq gətirmək istərdik. Tarix ədəbiyyatında Ani erməni şəhəri kimi vurğulanır. Xarabalıqları Türkiyə ərazisində yerləşən Ani erməni şəhəri ola bilərmi? Əlbəttə, yox! Tarixin müxtəlif dövrlərində Bizans imperatorluğunun, səlcuqların, Şəddadilərin, Rusiyanın və Türkiyənin tərkibində olan Ani şəhəri ilə ermənilərin heç bir əlaqəsi yoxdur. Tarixi-elmi araşdırmalar da dediklərimizi əyani sübut etmişdir.

Akademik N.Y.Marr müxtəlif vaxtlarda Anidə arxeoloji qazıntı işləri aparmış və təqdirəlayiq elmi məlumatlar aşkar etmişdir. Burda məbədlərin, sarayların, məscid və mədrəsələrin olması bir daha sübut edir ki, Ani şəhəri qədim türklərə məxsusdur.

Monqolların, cəlairilərin, qaraqoyunluların zərb etdikləri sikkələr tarixi sübutdur. Əmir Manuçe məscidi Anidə qiymətli müsəlman abidəsidir. Məscidin kitabələrində Elxani hökmdarı Əbu Səid Bahadur xanın vergilər haqqında verdiyi fərmanın mətni yazılmışdır. Bütün bunlar bir daha sübut edir ki, Ani şəhəri müsəlman-türk şəhəridir.

Şuşa qəzeti,
Mart, 2013, №6

# ERMƏNİ CİNAYƏTLƏRİ MƏNBƏLƏRDƏ

**"Tarix həmişə hər<br>şeyi öz yerinə qoyur".<br>Ulu Öndər<br>Heydər ƏLİYEV**

**"Erməni yer üzünün əhrəməni,<br>Ermənidir insanlığın düşməni".<br>Sədi ŞİRAZI**

**"Erməni terroruna son<br>qoyulmayınca, Qafqazda<br>sülh olmayacaq".<br>Əhməd bəy AĞAYEV**

Erməni quldurlarının türklərə və o cümlədən də, azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər saysız-hesabsız tarixi mənbələrdə və sənədlərdə öz əksini tapıb. Bu mənbələr və sənədlər içərisində **M.S.Ordubadinin «Qanlı sənələr», M.M.Nəvvabın «1905-1906-cı illərdə erməni-müsəlman davası», S.N.Qlinkanın «Ermənilərin Azərbaycana köçürülməsi», İ.Q.Çavçavadzenin «Erməni alimləri və fəryad edən daşlar»** və erməni müəlliflərinin özləri tərəfindən yazılan xeyli əsərləri də göstərmək olar. Siyahıya başqa alim və səyyahların da əsərlərini əlavə etmək olar.

Biz bu yazıda erməni cinayətlərindən bəhs edən bir neçə mənbə ətrafında söhbət açacağıq.

**M.S.Ordubadinin 1911-ci ildə nəşr olunan «Qanlı sənələr»** kitabında ermənilərin cinayətləri hərtərəfli şərh olunur. O, qeyd edir ki, 1905-ci il faciələri Naxçıvanda, Bakıda, Şuşada, Cəbrayılda, Cavanşirdə, Zəngəzurda, digər şəhər və kəndlərdə qətl-qarətlər, rus kazaklarının fəal köməyi ilə daşnaklar tərəfindən törədilmişdi. Bu cinayətin başında

Hamazasp, Aram, Baqrat, Asqırat və başqaları dururdular. Ermənilər dinc azərbaycanlı əhaliyə aman vermir, qarşılarına çıxan qocaya, cavana, qadına, uşaqlara divan tuturdular. Müəllif qeyd edir ki, 1905-ci il fevralın 5-də və 6-da Bakıda erməni daşnaklarının törətdikləri qanlı qətllər bir bomba idi ki, bütün Qafqaza yayıldı.

Ermənilər 1905-ci ilin mart və may aylarında Naxçıvanda da vəhşiliklər törədərək Tumbul, Əliabad kəndlərinin əhalisinə divan tutdular, Cəhri kəndini yandırdılar. **M.S.Ordubadi göstərir ki, ermənilər İrəvanda və onun ətrafında azərbaycanlılar yaşayan məntəqələrin əhalisinə də divan tutdular. Qırxbulaq mahalında Süzəçik, Pulluca, Kötüklü, Qoşabulaq və sair kəndləri yandırdılar, əhalini qarət etdilər. Müəllif 1905-ci il iyunun 13-də Cəbrayılda baş verən hadisələri ətraflı təsvir edir. Qeyd edir ki, Divanlı, Qacar, Ağbulaq və digər kəndlər də daşnaklar tərəfindən yandırıldı və 50-dən çox azərbaycanlı qətlə yetirildi.**

Əsərində M.S.Ordubadi 1905-1906-cı illərdə ermənilərin Qarabağda, o cümlədən də, Şuşada törətdikləri vəhşiliklərə də toxunmuşdur. Gəncədə, Qazaxda, Cavanşirdə, Tərtər, Xaçın dairələrində erməni cinayətlərinin əsas məqsədi ondan ibarət idi ki, onlar rusların köməyi ilə yerli əhalini zorla həmin ərazilərdən çıxarıb, özləri orda məskunlaşsınlar.

Erməni terrorunun başlanmasına, getdikcə genişlənməsinə erməni «xalqının tarixi»ndə qara ləkə olan daşnakların siyasi təşkilatı olan «Daşnaksutyun» partiyasının yaranması səbəb oldu. H.Pastermaçiyanın yazdığına görə bu partiya 1890-cı ildə Tiflisdə yaranmışdır. Cinayətkar – terrorçu daşnak partiyasının yaranmasında qatı cinayətkar daşnaklar – K.Mikaelyan, doktor J.Loris-Melikov, S.Zavaryan və K.Xatisov fəal iştirak etmişlər. Partiya yarandığı gündən bu vaxta kimi qanlı tenor ocağına çevrilmişdir. Bununla da ermənilərin başına bəla olan iyrənc partiya cəllad rolu

oynamağa başladı. M.S.Ordubadi yazırdı: **«1905-1906-cı illərdə bilavasitə daşnak partiyasının fitnəkarlığı ilə törədilən və Rusiya imperiyasının hakim dairələri tərəfindən qızışdırılan milli qırğın nəticəsində on minlərlə günahsız azərbaycanlı öldürüldü və amansız işgəncələrə məruz qaldı».**

Erməni daşnakları İranda da təxribatla məşğul olurdular. Onlar Gilanı İrandan ayırıb, xüsusi respublika yaratmaq adı altında Rusiya imperiyasına birləşdirmək, sonra da İran ərazisindən Cənubi Azərbaycanı və Gilanı ayırıb, tarixdə mövcud olmayan saxta «Böyük Ermənistan» yaratmaq istədilər. S.Şaumyan, Yefrem, tayqulaq Andronik və başqaları Rəştdə qiyama rəhbərlik etməklə, eyni zamanda Talış mahalında müsəlləh ordu da yaratmışdılar.

Herand Pastermaçiyan «Ermənistan tarixi» adlı cızmaqarasında yazır: **«Mən Ermənistan tarixi kitabını yazmaqla çalışmışam ki, atamın işini davam etdirim. Onun Azərbaycan türklərinə qarşı qılıncla başladığı vuruşmaları mən qələmlə yerinə yetirim»** (H.Pastermaçiyan. Göstərilən əsəri, səh. 3). H.Pastermaçiyan böyük saxtalığa yol verir, belə bir fərziyyə irəli sürür ki, guya, XI əsrdə səlcuqlar Ermənistana hücum edərək Qarabağın düzən ərazilərində yaşayan erməniləri Qarabağın dağlıq ərazilərinə köçürüb, onların yaşadığı düzən ərazilərdə isə müsəlmanları yerləşdirmişlər. Bununla da hər iki millət arasında düşmənçilik yaranmışdı.

Qeyd edək ki, XI əsrdən çox-çox əvvəl Qarabağda türklər yaşayırdılar. Qarabağ Azərbaycan ərazisi idi. Bu ərazidə o zaman erməni yox idi. Daşnak H.Pastermaçiyan bilməmiş olmazdı ki, onun mənsub olduğu etnik qrup çox-çox sonralar Qarabağ ərazisinə ayaq açmışdı. 1585-1586-cı

illərdə Qarabağın Dağlıq hissəsində bir neçə erməni ailəsi yaşayırdı. 1587-ci ildə türklər Qarabağı işğal edərkən onlar Tillisə köçmüşdülər. 1603-cü ildə isə Osmanlı ordusu

Qarabağı tərk edəndən sonra həmin ermənilər I şah Abbasdan xahiş etmişdilər ki, Qarabağda yaşamalarına onlara icazə versin. Lakin şah onların xahişim rədd edərək demişdi ki, siz vətənin ağır günündə Tiflisə qaçmısınız. Qızılbaş qoşunu qan töküb, Qarabağı azad edib. Siz isə heç bir əzab-əziyyət çəkmədən yenidən Qarabağa qayıtmaq istəyirsiniz. Şah Abbas onların Qarabağa qayıtmalarına icazə vermədi, Mazandaranın Fərhabad şəhərinə köçürülmələrinə göstəriş verdi.

Daşnak H.Pastermaçiyan daha sonra qeyd edir: «Nadir şah Qarabağ məliklərinin hüquqlarını əllərindən almaq istəyirdi. XVIII əsrin sonunda iki işğalçı dövlət - Turan (Türkiyə nəzərdə tutulur - Y.H.) və İran saraylarının mübarizələri nəticəsində Qarabağ dağıldı. Bundan sonra burda yaşayan ermənilər bütün ümidlərini şimaldan gələn bir böyük dövlətə çevirdilər. Bu böyük dövlət Rusiya idi». Görünür, H.Pasdermaçiyan 1828-ci il Türkmənçay müqaviləsini nəzərdə tutur. Amma o, fərziyyələrə, saxtakarlıqlara üstünlük verir. Ermənilər Qarabağda yerləşmək üçün bütün çirkin əməllərə əl atırdılar. Torpağı və vətəni olmayan erməni ünsürü H. Pasdermaçiyan yazır: «1826-cı il dekabrın 2-də Şamxorda general Madatov İranın 10 min nəfərlik ordusuna qalib gəldi və Gəncəni geri aldı. Sonra general Paskeviç 8 min nəfərlik ordu ilə onun köməyinə çatdı və Madatovun qoşununa qoşuldu. Bu sərkərdə Gəncə ətrafında İran ordusuna ağır zərbə endirdi. Bütün bu əməliyyatlarda ermənilərin piyada və süvari könüllü dəstələri iştirak edirdi və rus əsgərləri ilə çiyin-çiyinə vuruşurdular». Burdan aydın olur ki, 1826-1828-ci illər rus-İran müharibəsində ermənilər ruslar tərəfindən vuruşmuşlar.

1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsi Azərbaycanı iki yerə parçaladı. H.Pasdermaçiyan yazır ki, ermənilər rus işğalı nəticəsində sürətlə işğal ərazilərində məskunlaşdılar... ona görə də ermənilər ruslara

sədaqətlidirlər. **«Ümumiyyətlə, erməni millətі istəmir ki, rusların kölgəsi onların başının üstündən əskik olsun və yenə də ruslar türklərə qalib gəlsinlər».**

1828-ci il Türkmənçay müqaviləsinin maddələrinin birində deyilirdi ki, İran ərazisində yaşayan xristianlar istədikləri vaxt Rusiya ərazisinə mühacirət edə bilərlər. İvan Şopenin başçılığı ilə 1829-cu ildə təşkil olunmuş komissiyanın sənədinə əsasən, 1828-ci ildə qacarlardan ibarət 20 min nəfər Naxçıvan və İrəvandan məcburi surətdə İran ərazisinə köçürüldü. H.Pasdermaçiyan göstərir ki, rus-türk müharibəsi nəticəsində Ərzurum, Əlişgərd, Bayazid, Qars və Vandan 100 min nəfər erməni köçüb, rus Ermənistanına (İrəvan xanlığı ərazisinə) gəldilər. Onlar burda ən yaxşı torpaqlarda yerləşdirildilər. Gələn ermənilərin 25 min nəfəri Göyçə gölü ətrafında sakin oldular. 1914-cü ildə 10 kvadrat kilometr sahəsi və 300 min nəfər əhalisi olan Ermənistanda 4 ildən sonra ermənilərin sayı artdı.

**Ermənilər təkcə Şimali Azərbaycanda deyil, Cənubi Azərbaycanın Urmiya, Xoy, Təbriz və Salmas şəhərlərində də dəhşətli cinayətlər törətmişdilər. «Onlar Urmiyada 500 evə od vurub yandırmış**dılar. Erməni daşnakları bir gecədə Urmiyada 1500 nəfər azərbaycanlı öldürdülər. 1918-ci ildə Osmanlı qoşunları Urmiyaya gələnə kimi ermənilər 10 min nəfərdən çox azərbaycanlını qətlə yetirdilər... 1918-ci ilin martında ilin axır çərşənbəsində... ermənilər evlərə girib, kiçik qız uşaqlarına təcavüz etdilər, qadınları, kişiləri öldürdülər. Uşaqlarını qucaqlarına alıb-qaçan anaların ahnaləsi, qışqırığı göyə qalxmışdı. Bu dəhşətli hadisələri, vəhşilikləri insan artıq şərh edə bilmir» (Seyid Əhməd Kəsrəvi. «Tarixe-Hicdə sale-ye Azərbaycan, 3-cü çapı, Tehran, 1961, səh. 605-606).

Erməni terrorunun tarixi qədimdir. Bu, 1896-cı il avqustun 14-nə təsadüf edir. Həmin gün «Daşnaksutyun» partiyasından 25 erməni İstanbulda Osmanlı bankının binasını

gözlənilmədən ələ keçirdilər. Quldurlar binanı istehkama çevirib, dinamit və bombalarla müdafiə olunaraq şəhərdəki Avropa səfirlərinə müraciət edib, kömək istədilər. Onlar bildirdilər ki, binanı və onun içərisində olan bütün qiymətli əşyaları sənədlərlə birlikdə məhv edəcəklər... Terrorçuların bu hərəkəti ermənilərin nəinki sosial vəziyyətini yaxşılaşdırdı, bütünlüklə onları ümidsiz vəziyyətə saldı.

Erməni terrorçuları sentyabrın 12-də yeni terror həyata keçirmək üçün səylə təbliğata başladılar. Başkaldan şərqə tərəf, Salmas sərhədində bir erməni quldur dəstəsi İran kürdləri ilə birləşərək kürd tayfasının nümayəndəsi Mərzək Şərəf bəyin düşərgəsinə hücum edib, onu ağır yaraladılar və 150 nəfərə qədər kürd, o cümlədən, kişilər, qadınlar, uşaqlar öldürüldü və yaralandı... 1898-1899-cu illərdə Bitlis vilayətində Seronun quldur terrorçu dəstəsi qanlı cinayətlər törətdi.

**Yuxarıda deyildiyi kimi «Daşnaksutyun» partiyasının yaranması ilə ermənilərin bədbəxt günləri başlandı.** V.Mayevskinin bu iyrənc partiya haqqında bir neçə fikrini yada salmaq yerinə düşərdi: «... Sübut edə bilərəm ki, «Daşnaksutyun» və onun kimi təşkilatlar istər Türkiyədə, istərsə də Qafqazda erməni xalqının bədbəxtliyinin əsas mənbələridir... «Daşnaksutyun»un, «Qnçak»ın və başqa təşkilatların gələcəkdə də mövcud olması erməni əhalisinə, hətta indi konstitusiyalı Türkiyədə də yeni-yeni bəlalar gətirəcək.

Ermənilərin gizli təşkilatlarının fəaliyyəti onlar üçün təkcə maddi itkilər demirəm nə qədər göz yaşları, nə qədər məşəqqət, nə qədər insan tələfatına başa gəlib? Və əgər «Daşnaksutyun» və onun kimi təşkilatlar olmasaydı, ermənilər yoldan çıxmasaydılar, necə firavan yaşayardılar, necə parlaq mövqedən istifadə edərdilər» (V.Mayevskinin qeydləri, səh. 125).

Gürcü yazıçısı İ.Q.Çavçavadze erməni saxtakarlı-

ğından bəhs edərkən yazırdı: «Ermənilərin gürcü məbədlərində və monastırlarında gürcü mənşəli izləri məhv etməyə, gürcü yazılarını daşlardan qaşıyıb-təmizləməyə və yox etməyə, daşların özünü tikililərdən çıxarıb, yerinə erməni yazıları olan başqa daşları qoymaq üçün əlləşdiklərinə çoxlu misal gətirə bilərəm. Bu haqda, hətta həm rus, həm də gürcü qəzetlərində yazılıb. D.Bakradze erməni saxtakarlığı haqqında sərrast yazmışdır: «Artvində çox qədim bir kilsə var. Orda yaşayan ermənilər bu məbədi özlərinin adlarına çıxmaq istəyirlər... Məbəddə gürcü yazısı olan daş götürülüb, çünki bu yazı məbədin gürcülərə məxsus olmasını sübut edir, onda ermənilər bu daşı ağıllı surətdə fikirləşib, gizlətmək üçün fırıldağa əl atıblar» (İ.Q.Çavçavadze. «Erməni alimləri və fəryad edən daşlar». səh. 13).

Son zamanlar ermənilər yeni bir xəyala düşüblər. Buna ancaq dəlilik demək olar. Ermənilər özlərini gah Qafqaz Albaniyasının, gah da Urartu dövlətinin «varisi» adlandırırlar. Əvvəla, onu deyim ki, Ermənistan qətiyyən etnoqrafik termin yox, coğrafi termindir. Erməni hara, yuxarıda qeyd olunan dövlətlər hara? Ermənilərin dünyanın hər tərəfə yayılmasının günahı kimdədir? Əlbəttə, özlərində. Ona görə ki, onların vətəni yoxdur. Özgə torpaqlarında xırda sənətkarlıqla, alverlə məşğul olan ermənilərin sonralar müəyyən səbəblərə görə Cənubi Qafqazda, o cümlədən, Azərbaycan torpaqlarında məskunlaşmaları tarixi hadisələrlə bağlıdır. Onların özlərini tərifləyib, «ali irqə» mənsub olmaların söyləmələrinə nə demək olar. Biz onlara siyasi sığınacaq verdik, onları məhv olmağa qoymadıq, onlar isə nadürüstlük edib verdiyimiz çörəyi tapdaladılar...

«1905-ci ildə erməni-müsəlman davasında sülh və əmin-amanlıq yaratmaq üçün Şuşaya göndərilən Qoloşapov adlı bir rus generalı azərbaycanlılara qarşı düşmən mövqeyinə keçdi. Ermənilər hər gecə Kiki Kələntərovun

başçılığı ilə Qoloşapovun mənzilində kef məclisi qurur, 2-3 nəfər xoş surət erməni övrəti gecə-gündüz ona xidmət edirdi. Ermənilər Qoloşapova rüşvət verərək rusların köməyi ilə erməniləri silahlandırıb, azərbaycanlıların üzərinə qaldırmağa razı saldılar. General və ermənilər azərbaycanlılara qarşı müharibəyə 1905-ci il iyulun 12-də başlamağı qərara aldılar.

Qoloşapov erməniləri arxayın salaraq bildirdi ki, erməni silahlıları ilə rus silahlı qüvvələri 24 saat ərzində Azərbaycan türklərini məhv edəcəklər. Bu zaman Şuşada 7 min erməni quldur dəstəsi, 6 topu və rusların isə beş top var idi. Bunlardan əlavə, rusların bir neçə yüz silahlı kazak dəstəsi də var idi.

...Ermənilərdən 10 min manat rüşvət alan Qoloşapov onlara söz verdi ki, rus kilsəsindən başlayaraq Böyük məscidə kimi Rastabazarı, Meydanı, Şeytanbazarı və bütün evləri yandırmağı həyata keçirəcək. Dələduz generala hər rus topundan müsəlmanlara atılan atəşə görə 15 manat və rus əsgərlərinin atdığı hər bir gülləyə görə 1 manat pul verməyi ermənilərin başçısı Kələntərov öz öhdəsinə götürdü. 7 min erməni qulduru və 850 nəfər kazak və rus silahlı qüvvələri müsəlmanlara heç bir ziyan vura bilmədilər. Topların mərmiləri Böyük məscidin ətrafında yerləşən evlərin pəncərələrinə və taxtapuşlarına ziyan vurdu... Düşmənin yarısından da az olan müsəlmanlar onlara qarşı mərdliklə müqavimət göstərdilər. Müsəlmanların toplarının gurultusu düşməni lərzəyə salırdı. Nəticədə 18 erməni qulduru öldürüldü və yaralandı» (M.M.Nəvvab. Göstərilən əsəri, səh. 113, 114, 118).

1906-cı il erməni-müsəlman davasında Şuşaya ətraf kəndlərdən, İrəvandan, Gəncədən və digər yerlərdən 7 min silahlı erməni qulduru göndərildi. Beş gün davam edən şiddətli döyüşlərdə azərbaycanlılardan 18 nəfər şəhid oldu. Onlardan 5 nəfəri adlı-sanlı cavan, qalanları isə qocalar idi ki,

onlar da ermənilər tərəfindən qəflətən güllə ilə vurulanlar idi. M.M.Nəvvab qeyd edir ki, döyüşlərdə öldürülən erməni quldurlarının sayı 700-ə qədər, yaralananların sayı isə 287 nəfər idi.

Şuşa cavanları sayca özlərindən çox olan düşmənə layiqli cavab verdilər. Qalalılar Qoloşapovun əməlləri barədə yuxarı dövlət orqanlarına tutarlı məlumat verdilər. Güclü təzyiqdən sonra Qoloşapov qovuldu. Şuşaya yeni komendant Bauyer adlı bir nəfər təyin olundu.

Tarixi sənədlərdə deyilir ki. 1906-cı ildə general Qoloşapov Tiflisdə bir nəfər azərbaycanlı tərəfindən qətlə yetirilib.

Əldə olan tarixi məlumatlar erməni «alimləri»nin, «başbilənləri»nin və onlarla həmfikir olanların fırıldaqlarını artıq çoxdan ifşa etmişdir. Erməni saxtakarlığı və cinayəti hələ də beynəlxalq ictimaiyyət tərəfindən lazımi səviyyədə qiymətəndirilmir. Bu yaxınlarda Ermənistanda keçirilən saxta seçkilər, insan qırğını, demokratik təsisatların kobud surətdə pozulması heç də beynəlxalq aləmdə mənfi rəy doğurmadı. Ermənistan işğalçı və təcavüzkardır. Öz havadarlarının köməyi ilə bu işğalçı dövlət ərazimizin 20 faizini işğal etmişdir. Bir milyondan artıq azərbaycanlı öz doğma ata-baba torpağında qaçqın olmuşdur.

Erməni fırıldaqçıları hər il aprelin 24-nü «genosid günü» kimi qeyd edirlər. Saxta tarixi günü təkzib etmək üçün tarixi faktlara müraciət edək: Birinci Dünya müharibəsi ərəfəsində bütün dünya ərazisində təxminən 3 milyona qədər erməni – 1 milyon 100 min nəfəri Cənubi Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə yaşayırdı. Deməli, Ermənistanda 1 milyon 300 min, Türkiyədə isə 400 min erməni yaşayırdı. Ermənilərin iddialarına görə 1 milyon 500 min erməni Türkiyə ərazisində məhv edilmişdir. 400 min hara 1 milyon 500 min hara?

Don Kixotun dəyirmanla vuruşmasını ermənilər,

görəsən, bilirlərmi? Yoxsa, onlar dilənməyin başqa bir forması olan genosid adı ilə yardım almaq niyyətindədirlər. Atalar demişkən, «Utanmasan, oynamağa nə var». Yuxarıda deyildiyi kimi ermənilərin bədbəxtliyi «Daşnaksutyun» partiyasının yaranması və fəaliyyəti ilə sıx bağlıdır. Bu üzdəniraq partiya başqa xalqlara, o cümlədən də, türk-Azərbaycan xalqlarına qarşı düşmənçilik təbliğatı aparır.

ABŞ-ın Arkanzas ştatından olan vəkil və tədqiqatçı Səmuel A.Uimzin **“Ermənistan-terrorçu “xristian” ölkənin gizlinləri”** əsərində erməni millətinin mənşəyindən və erməni xristianlığının xüsusiyyətlərindən söhbət açır. Amerika alimi ermənilərin xristian olmasına şübhə ilə yanaşır, onların türk-müsəlman dünyasının başına açdığı müsibətləri, XIX-XX əsrlərdə Cənubi Qafqaz və Kiçik Asiya regionlarında törətdikləri təxribatçı fəaliyyətlərini, insanlığa yaraşmayan çirkin əməllərini dəyərli, elmi və tarixi sənədlərə istinad edərək açıb-göstərir.

**V.L.Veliçko qeyd edirdi ki, “Əgər erməni tarixinin üz qabığı üçün “uydurma” sözündən başqa, bir söz axtarsaydıq, “xəyanət” sözündən heç vəchlə yayına bilməzdik**”.

Aparılan gərgin araşdırmalar nəticəsində mənşəcə erməni olan keşiş Tiriğişa Kiğamyansın “Erməni hərəkatının tarixçəsi” adlı əsəri əldə edilmişdir. Kitabda Rusiya imperiyasının Şərq siyasətinin həyata keçirilməsində ermənilərdən bir alət kimi istifadə olunması qabarıq şəkildə verilmişdir. Rusların və ermənilərin mənafeyinə burda toxunan fikirlər olduğu üçün əsər demək olar ki, məhv edilmişdir. 1917-ci ildə Mirzə Fətəli İsmixanov ad-familiyalı bir nəfər tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Həmin nüsxənin tapılmasında və tədqiqatçıların istifadəsinə verilməsində AMEA Tarix İnstitutunun direktor müavini, tarix elmləri namizədi Cəbi Bəhramovun böyük əməyi xüsusilə qeyd edilməlidir.

Türk səyyahı Övliya Çələbi 1647-ci ildə, fransız səyyahı Jan Şarden isə 1673-cü ildə İrəvanda olmuşlar. Onlar öz yazılarında şəhər əhalisinin türk olduğunu təsdiq etmişlər.

İrəvanın etnik tərkibi haqqında 1700-cü ildə burda olmuş alman səyyahı G.Şillingerin məlumatı daha maraqlıdır. “İrəvan şəhərinin daxilində yalnız farslar (Azərbaycan türkləri), şəhərin ətrafındakı qəsəbələrdə isə kilsəyə xidmət üçün (Üçkilsə nəzərdə tutulur) erməni tacir və sənətkarları yaşayırlar və farslara (azərbaycanlılara) vergi verirlər.

I Şah Abbas dövründə ermənilərə bir sıra güzəştlər verilmişdir. Onlar bundan istifadə edərək xarici ticarətdə iştirak etmiş, şahlığın ərazisində kilsə tikmək üçün icazə almışlar. Ermənilər bunlara görə birbaşa xəzinəyə vergi verirdilər. Üçkilsədəki erməni kilsəsinin başçısı Filippos I Şah Abbasa yaltaqcasına yazdığı müraciətində bildirirdi: **“Hazırda bizim vilayətdə yaşayanların əksəriyyəti bura müxtəlif vilayətlərdən əlahəzrət hökmdarın tükənməz sevgisi və qayğısı nəticəsində köçürülmüşdür. Üçkilsədəki 300 ibadətkar gecə və gündüz öz dualarında burda yaşamaları üçün tamamilə əlahəzrət hökmdarın mərhəmətinə borclu olduqlarım göstərirlər”.**

Erməni kilsəsinin cinayətkar əməlləri bütün aləmə məlumdur. Hətta xristianlar özləri də bunu etiraf edirlər. A.Səmuel bu barədə yazır: “Ermənistan elə bir şeytan məmləkətin nümunəsidir ki, yalnız dövlət və kilsə bir olanda belə nümunə mümkündür. Erməni kilsəsinin rəsmi internet saytında deyilir: “Erməni kilsəsi tarix boyu erməni xalqı ilə o qədər yaxın olmuşdur ki, indi onları bir-birindən ayrı düşünmək mümkün deyil... Yarandığı vaxtdan bu günə kimi erməni kilsəsi siyasi və ictimai problemlərin müzakirə meydanına çevrilmişdir”.

Yeri gəlmişkən, onu da qeyd edim ki, əsrlər boyu hər bir erməni ailəsi kilsə fonduna ianə şəklində müəyyən məbləğdə üzvlük haqqı verir. Həmin pullar isə sonra çirkin

işlərə – özgə torpaqlarını ələ keçirməyə, terror hərəkətlərinə sərf olunurdu. Matenadaranda saxlanılan alqı-satqı sənədlərinin birində deyilir: “1431-ci ildə Ağqoyunlu Yaqub padşahın nümayəndəsi Əmir Rüstəm Üçkilsə də daxil olmaqla 7 kəndi katolikos Qriqor Makuluya 530 min Təbriz dinarına satmışdı. Belə siyahıların sayını artırmaq da olar. Torpağı satın almaqla ələ keçirən ermənilər baş verən siyasi hadisələrdən məharətlə istifadə edərək onu özününküləşdirə bilmişlər. Bu siyasi hadisələr Osmanlı Türkiyəsi ilə Rusiya imperiyası arasında baş verən və Türkiyənin məğlubiyyəti ilə başa çatan müharibələrlə və Səfəvi dövlətinin tənəzzülü ilə bağlıdır.

Erməni saxtakarları Qarabağın xristian məliklərindən “ağızdolusu” danışırlar. Məliklərin mənşəyi, Qarabağda yerləşmələrinin səbəbləri tarixi baxımdan araşdırılmır. Məlum olduğu kimi, Qarabağın beş məliyindən yalnız biri Həsən Cəlalyanlar nəslinə mənsub olan Xaçın məliyi yerli alban mənşəli idi. Qalan dörd məlik Dizaq, Vərəndə, Gülüstan və Çiləbörd məlikləri ordan-burdan qovulan və ya qaçıb Qarabağın Dağlıq ərazisində özlərinə sığınacaq tapanlar idi. Hətta bu həqiqəti qatı millətçi olan erməni tarixçisi Raffi də inkar edə bilməmişdir. Onlar da alban xristian məlikləri idilər.

1723-cü ilin mart ayında Xaçın məliyindən başqa yerdə qalan dörd məlik I Pyotra yazdıqları məktubda özlərinin alban olduqlarını bildirmişdilər. İ.Petruşevski də XV əsrdə Qarabağ əhalisinin etnik tərkibindən danışarkən göstərir ki, buranın alban əhalisi müxtəlif dövrlərdə erməniləşməyə məruz qalmışdır. Dəfələrlə qeyd etdiyimiz kimi, gəlmə məliklər siyasi və iqtisadi cəhətdən o qədər zəif idilər ki, heç bir siyasi qurum yarada bilməmişdilər.

“Ermənistan” adlı saxta bir məfhumu zorla dünya ictimaiyyətinə çatdırmaq nə qədər saxta səslənir. Axı Cənubi Qafqazda erməni ərazisi olmamışdır. Hökmdarı və paytaxtı məlum olmayan hansı “Ermənistan”dan söhbət gedə bilər?

Qondarma erməni “dövləti” Qərbi Azərbaycan ərazisində sığınacaq tapmışdı. Özünə paytaxt etdiyi İrəvan da Azərbaycanın qədim şəhəridir, İrəvan xanlığının paytaxtıdır.

Ermənilərin Azərbaycan torpaqları hesabına özlərinə dövlət yaratmaq xülyası kimi çirkin ideyanı zorla həyata keçirmələri artıq tarixi sənədlərlə təsdiq olunmuşdur. Onlar Rusiyanın və bir sıra Avropa dövlətlərinin fəal köməyinə arxalanaraq Azərbaycan torpaqları hesabına “öz dövlətləri”ni yaratmaq üçün hər cür alçaq niyyətlərə əl ataraq, nəhayət, 1918-ci ildə buna nail oldular.

Ermənistan deyilən dövlətdə siyasi hakimiyyəti zorla ələ keçirən bir qrup cinayətkar nəzarətsizlikdən istifadə edərək demokratiyanı, insan hüquqlarını, ən adi yaşayış normalarını kobud surətdə pozur, hakimiyyətdən istifadə edərək sərvət toplayan, milli mənafeyi şəxsi mənafeyə qurban verirlər.

2008-ci il fevralın 19-da ermənilərin fırıldaqçı və biabırçı prezident seçkisi özünün saxtakarlığı ilə dünyaya səs saldı. Fırıldaqçı “prezident seçkiləri”nə etiraz edən ermənilərə divan tutuldu. Erməni müxalifətinin saxta seçkilərə qarşı mübarizəsi indi də davam edir. Çox təəssüf ki, ermənilər bu hərəkətlə Avropa Şurasının və dünyanın aparıcı dövlətlərinin müqaviməti ilə qarşılaşmadı, mənfi əks-səda vermədi. Cinayətkar qrupun Ermənistanda yenidən siyasi hakimiyyəti zəbt etməsi, beynəlxalq aləmə “meydan oxumaqdan” başqa, bir şey deyil. Demokratiyanın müdafiəsini və terrorizmlə mübarizəni öz öhdəsinə götürən ABŞ-ın ermənilərin hərəkətlərinə biganəliyi təəssüf hissi doğurur.

Ermənilər Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının qərarlarmı yerinə yetirməkdən imtina edir. Həmin qərarlarda danışıqsız olaraq erməni silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılması təkidlə tələb olunur.

Erməni problemi onların iştirakı olmadan həll

edilməlidir. Başqalarının əlində alətə çevrilən ermənilərin taleyi, həyatı və ümidləri həmişə onların əlində olmuşdur. Ermənilər bütün dövrlərdə həmişə özlərinə qarşı başqa xalqlarda nifrət yaratmağa adət etmişlər. Sanki bu adətə qarşı ermənilərdə ehtiyac hissləri formalaşmışdır. Bu, elə bir xəstəlikdir ki, müalicəsi qeyri-mümkündür. Ermənilər özləri etiraf edirlər ki, sayları artanda öz pis əməllərinin ucbatından mütləq qırılmalıdırlar. Tarixi hadisələr sübut edir ki, hər bir əsrdə ermənilər cinayətkar hərəkətlərinin qurbanı olurlar.

Ermənilər işğal altında olan Azərbaycan torpaqlarında hərbi təlim keçirlər. Onların bu cinayətkar hərəkətlərini yalnız qorxaqlıq əlaməti kimi qiymətləndirmək olar. Ermənilər bilməlidirlər ki, Azərbaycan Milli Ordusu istənilən an düşməni torpaqlarımızdan vurub çıxara bilər. Amma hələlik münaqişəni sülh yolu ilə həll etməyə üstünlük veririk. Eyni zamanda onu da deyim ki, ermənilər artıq bizimlə bir torpaqda yaşaya bilməzlər. Onlar bunu yaxşı başa düşürlər.

Mənə belə gəlir ki, erməniyə canıyananlıq edən Rusiya rəhbərliyi ölkəsində hüdudsuz boş ərazilərində onları yerləşdirə bilər. Nəticədə regionda erməni ünsürünün pozucu əməllərinə son qoyular və eyni zamanda da onlardan istədiyi kimi istifadə edə bilər. Əgər bu, həyata keçirilsə, onda rus rəhbərliyi dünyada xeyirxah iş görər, itirilmiş şəxsi nüfuzlarını bərpa edə bilər.

Azərbaycan dövləti və başqa müstəqil respublikalar öz qanuni hüquqlarını müdafiə edəcəklərini bildirdikdə RF-nin rəhbərliyi vaxt itirmədən bəyanat verərək müxtəlif bəhanələrlə pozucu qüvvələri hərtərəfli müdafiə edəcəyini bildirir. Erməni cinayətkarlarının müdafiə olunması bir daha sübut edir ki, bu cinayətkarların arxasında Rusiya dayanır.

2008-ci ilin aprel ayında Ermənistan parlamenti qondarma Dağlıq Qarabağ məsələsini müzakirəyə çıxarmaqla bir daha sübut etdi ki, Ermənistan işğalçıdır. Ermənistan parlamentinə Azərbaycan Milli Məclisi mədəni surətdə cavab

verərək bildirdi ki, dövlət büdcəsinə əlavə dəyişikliklər edilərkən hərbi xərclər bir daha artırılır. Məlum olduğu kimi Azərbaycanın hərbi büdcəsi Ermənistanın illik büdcəsindən xeyli çoxdur.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev dəfələrlə bildirmişdir ki, biz torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik, istənilən anda öz torpaqlarımızı azad etməyə qadirik. Nə qədər gec deyil, ermənilər ağlını başına yığmalı, günahsız qan tökülməsinə bais olmamalıdırlar. Əgər onlar işğal etdikləri torpaqları xoşluqla tərk etməsələr, tökülən qanlar üçün beynəlxalq ictimaiyyət qarşısında cavab verməli olacaqlar. Verilən tələblərə biganəlik göstərərlərsə, ordumuz xalqın iradəsini yerinə yetirəcək, torpaqlarımızı tamamilə azad edəcək. Bununla da onların dövləti yer üzündən silinəcək. Qərbi Azərbaycan torpaqları vahid Azərbaycan dövləti halında birləşdiriləcək. Nəticədə erməni məsələsinə birdəfəlik son qoyulacaq.

2008-ci ilin aprel ayında ABŞ-ın dövlət rəhbərləri Buşun və Raysın çıxışlarında Ermənistanı demokratiya sahəsində Azərbaycana nümunə göstərmələrinə nə ad vermək olar? Ermənistanda seçkilərdən sonra saxtakarlıqla həyata keçirilən seçkilərə etiraz edənlərə divan tutulması, bu prosesin indi də davam etməsi, ən adi insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasından ABŞ rəhbərlərinin, görəsən, xəbərləri yoxdurmu?

ABŞ-ın dövlət katibi Kondaliza Rays Azərbaycan haqqında qeyri-obyektiv və məntiqsiz bəyanat verərək Ermənistanda və Gürcüstanda ictimai-siyasi vəziyyətin sağlam olmasını bəyan etmişdir. Onun bu məntiqsiz bəyanatından belə çıxır ki, 2008-ci ilin fevral və mart aylarında terrorçu və antidemokratik Ermənistanda baş verən qanlı cinayətlər Azərbaycanda da baş verməlidir ki, bundan sonra o, Azərbaycanı da tərifləsin.

Qoy ermənilər möhkəm yadda saxlasınlar ki, Azərbaycan Milli Ordusu hərbi əməliyyatlara başlasa, işğal altında olan torpaqlarımız çox qısa müddətdə azad ediləcək. Qoy erməni quldurları yaxşı yadda saxlasınlar ki, Azərbaycan xalqı Qarabağa, onun zümrüd tacı olan Şuşaya top-tüfənglə yox, sülh yolu ilə getmək istəyir.

*Yunis HÜSEYNOV,*
*tədqiqatçı-tarixçi*
*"Şuşa" qəzeti,*
*avqust, 2008, №7-8*

## MÜNDƏRİCAT


Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........................................ 3

Şuşanın təbii mənzərəsinin qısa təsviri....................................... 5

Pənahabad-Şuşa qala-şəhərinin salınması tarixindən ................. 8

Şuşanın inkişaf tarixindən........................................................ 19

Şuşa xarici müdaxiləyə qarşı mübarizədə................................. 26

Şuşanın əhalisi .......................................................................... 40

Şuşanın iqtisadi həyatı .............................................................. 44

Şuşa sovet hakimiyyəti dövründə ............................................. 47

Şuşa mədəniyyətimizin mərkəzidir........................................... 50

Təvazökarlıq və bilik ................................................................ 72

Qarabağın keçmişinə səyahət.................................................... 77

Əmir Teymurun Azərbaycana hərbi yürüşləri .......................... 85

Yusif Vəzir Çəmənzəminlinin "İki od arasinda" romanında erməni məsələsinin qoyuluşu.................................. 94

Azərbaycanlıların soyqırımı.................................................... 119

Erməni sayıqlamaları .............................................................. 132
Erməni cinayətləri mənbələrdə ............................................... 139

**HÜSEYNOV Yunis Rza oğlu**

**ŞUŞA ŞƏHƏRİNİN TARİXİ**

**Bakı, "Şuşa" nəşriyyatı, 2013**

Kompüter operatoru və dizayner

**Azad Qasımlı**

Texniki redaktor

**Azər Rəsulov**

---

Yığılmağa verilmişdir: 05.05.2013

Çapa imzalanmışdır: 20.05.2013

Kağız formatı: 60x84 1/16

Həcmi: 10 ç.v.

Sayı: 300